AZƏRBAYCAN
TARİXİ ŞƏCƏRƏ CƏMİYYƏTİNİN

# XƏBƏRLƏRİ

## DOQQUZUNCU BURAXILIŞ

"APOSTROFF"
BAKI – 2014

**Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri.**
***Doqquzuncu buraxılış.*** Bakı: **"APOSTROFF",** 2014. 220 səh.

ISBN 978-9952-404-15-9

© Azərbaycan Tarixi Şəcərə Cəmiyyəti, 2014
© "APOSTROFF" nəşriyyatı, 2014

# AZƏRBAYCAN TARİXİ ŞƏCƏRƏ CƏMİYYƏTİNİN XƏBƏRLƏRİ

DOQQUZUNCU BURAXILIŞ, 2014

***Redaksiya heyəti:***
*E.E.İsmayılov (baş redaktor),*
*A.T.Xanlarov, K.A.Qacar, Ç.O.Qacar,*
*Ə.Ş.Tahirzadə (məsul redaktor)*

## İÇİNDƏKİLƏR

***SOYKÖTÜKLƏR***
*Mustafayev Ə.F.* Gəncəli İsrafilbəyovlar: nəsil şəcərəsinin təsviri ......7
*Çingizoğlu Ə.* Müqəddəmlər: Marağa xanları ......66
*Çingizoğlu Ə.* Haqverdiyevlər ......77

***ŞƏCƏRƏ SÖHBƏTLƏRİ***
*Tahirzadə Ə.Ş.* Məhəmmədəmin Rəsulzadənin soyağacı haqqında .....83
*Tahirzadə Ə.Ş.* Aşurovlar (soyun tarixinə ötəri baxış) ......94

***ŞƏCƏRƏ OÇERKLƏRİ***
*Məmmədov (Baharlı) O.Z.* Mirzə Vəli bəy və onun nəslinin tanınmış övladları ......114

***AİLƏ SALNAMƏSİ***
*İsmayılov E.E.* Daşdəmirovlar ......126

***ARXİV SƏNƏDLƏRİ***

*Tahirzadə Ə.Ş.* Şəkinin xan, bəy və ruhani ailələri haqqında qiymətli bəlgə ....................................................................144

*Əliövsət Dərbəndli.* Töhfeyi-əhbab və sovqati-əshab [Sevimlilərin töhfəsi və ağaların sovqatı] ....................................................170

*Kazakov A.B.* Rusiya zabitləri Aslanbeqovlar: onların etnik mənşəyinə dair qeydlər ..........................................................190

Rusiya zabitləri Aslanbeqovlar: sözardı. *E.E.İsmayılov, Ə.Ş.Tahirzadə* .......................................................................197

***NƏŞRLƏR, RƏYLƏR***

*Bayramova L.V.* Kitab haqqında: Исмаил Умудлу. История дворянского рода Дильбази (İsmayıl Umudlu. Zadəgan Dilbazi soyunun tarixi) ..........................................................199

***"ATŞC-nin XƏBƏRLƏRİ" TOPLUSUNDA NƏŞR EDİLMİŞ MƏQALƏLƏRİN SİYAHISI*** ..................................................202

***"ATŞC-nin XƏBƏRLƏRİ" TOPLUSU DOQQUZUNCU BURAXILIŞINDAKI MƏQALƏLƏRİN MÜƏLLİFLƏRİ VƏ REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ*** ...........................215

***GÖTÜRÜLMÜŞ QISALTMALAR*** ..................................................217

# ИЗВЕСТИЯ
# АЗЕРБАЙДЖАНСКОГО
# ИСТОРИКО-РОДОСЛОВНОГО ОБЩЕСТВА

ВЫПУСК 9, 2014

***Редакционная коллегия:***
*Э.Э.Исмаилов (главный редактор),*
*К.А.Каджар, Ч.О.Каджар,*
*А.Ш.Тагирзаде (ответственный редактор),*
*А.Т.Ханларов*

## СОДЕРЖАНИЕ

***РОДОСЛОВИЯ***

*Мустафаев А.Ф.* Исрафилбековы из Гянджи: поколенная родословная роспись ....36

*Чингизоглу Э.* Мугаддамы: ханы Марагинские ....66

*Чингизоглу Э.* Ахвердиевы ....77

***РОДОСЛОВНЫЕ СЮЖЕТЫ***

*Тагирзаде А.Ш.* О родословной Мамедэмина Расулзаде ....83

*Тагирзаде А.Ш.* Ашуровы (взгляд на историю семьи) ....94

***РОДОСЛОВНЫЕ ОЧЕРКИ***

*Мамедов (Бахарлы) О.З.* Мирза Вели бек и его знаменитые потомки ....114

***СЕМЕЙНАЯ ХРОНИКА***

*Исмаилов Э.Э.* Дащдамировы ....126

**_АРХИВНЫЕ МАТЕРИАЛЫ_**

*Тагирзаде А.Ш.* Ценные сведения о фамилиях ханов, беков и духовенства города Шеки ....................................................144

*Алиовсат Дербендли.* Тохфеи-эхбаб ве совгати-эсхаб [Подарок друзьям и дар сотоварищам] ..................................170

*Казаков А.В.* Российские офицеры Асланбеговы: штрихи к их этническому происхождению ..........................................190

Российские офицеры Асланбеговы: послесловие. *Э.Э.Исмаилов, А.Ш.Тагирзаде* ..............................................197

**_БИБЛИОГРАФИЯ, РЕЦЕНЗИИ_**

*Байрамова Л.В.* О книге: Исмаил Умудлу. История дворянского рода Дильбази ..................................................199

**_УКАЗАТЕЛЬ МАТЕРИАЛОВ, ОПУБЛИКОВАННЫХ В СБОРНИКЕ «ИЗВЕСТИЯ АИРО»_** .................................209

**_АВТОРЫ СТАТЕЙ И ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ 9-го ВЫПУСКА СБОРНИКА «ИЗВЕСТИЯ АИРО»_** ........216

**_ПРИНЯТЫЕ СОКРАЩЕНИЯ_** .....................................................217

# *SOYKÖTÜKLƏR*

**Ə.F.Mustafayev**

## GƏNCƏLİ İSRAFİLBƏYOVLAR
### Nəsil şəcərəsinin təsviri

*Nənəm Zərrintac xanım Mikayıl bəy qızı İsrafilbəyovanın (Nəzərovanın) xatirəsinə həsr edilir*

İsrafilbəyovlar Gəncədən olan bəy nəslidir, bu nəslin nümayəndələri Azərbaycanın bir çox məşhur nəsilləri ilə sıx bağlı olmuşlar məsələn, Cəmillinskilər, Cavanşir, Zülqədərovlar, Səfikürdskilər, Qalabəyovlar, Qazi-zadələr (Qazıyevlər) və s. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Azərbaycan bəylərinin ruslaşdırılmış soyadları XIX əsrin ikinci yarısında bəylik komissiyalarının fəaliyyəti başa çatdıqdan sonra rəsmi işlənməyə başlamışdır. Bu dövrə qədər isə əsasən, yalnız ad və ata adı işlədilmişdir.

Bu məqalə İsrafilbəyovların nəsil şəcərəsinin bərpa edilməsində ilk təşəbbüsdür və onun doqquz nəslini, yəni ailənin XIX–XXI əsrlərdə yaşamış, iki əsrdən artıq bir dövr ərzində öz xalqına vicdan və sədaqətlə xidmət etmiş nümayəndələrini əhatə edir.

Gəncə (Yelizavetpol) şəhərinin bəy ailələrinə mənsub olan İsrafilbəyovlar nəsli digər xan və bəy ailələri kimi, mürəkkəb sovet dönəmində bütün mülk və varidatlarından məhrum olsalar da, taleyin kəşməkeşlərinə baxmayaraq, təkidlə, əzmlə, yorulmaq bilmədən, həyat sevgisini itirmədən, saf nəcabətləri sayəsində və yüksək peşəkarlıqları ilə müasir cəmiyyətdə öz yerlərini tapa bilmiş, Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatında əcdadlarına layiq mövqeləri tutmuş və onların işlərini davam etdirməkdədirlər.

Təəssüblü deyil ki, İsrafilbəyovlar nəslinin nümayəndələri son yüzilliklərdə Azərbaycanın bütün inkişaf mərhələlərində öz xalqlarının tarixi ilə sıx bağlı olmuşlar. Bunlar dövlət xadimləri və siyasətçilər, hərbi qulluqçular və polis məmurları, mühəndis və maarif işçiləridir, onların bir çoxu orden, medal və digər yüksək mükafatlara layiq görülmüşlər.

Bu məqalənin müəllifi – İsrafilbəyovlar nəslinin varisi uzun müddət ərzində öz əcdadları, qohumları, nəslinin tarixi haqqında məlumat toplamış, əsasən şifahi, yaddaşlarda qalmış böyük miqdarda materialı araşdırmış, ailənin sağ qalmış nümayəndələri ilə söhbətlər aparmış, arxiv sənədləri üzərində səylə işləmiş, istorioqrafiyanı dərindən təhlil etmiş, xeyli faktik materialı ümumiləşdirmiş və bunu oxucuların müzakirəsinə təqdim edir. Yalnız sənədlər, qiymətli xatirələr və əşyalar deyil, ailənin

yaşlı üzvlərinin həyat və fəaliyyəti haqqında istənilən xatirə böyük maraq doğurmuşdur.

Məqalədə nəslin sənədlərlə müəyyən edilmiş ilk nümayəndəsindən başlayaraq, bütün ailə şəcərəsi verilir və tədricən bugünkü varisləri də göstərilir.

Məqalənin daha bir məziyyəti də bundan ibarətdir ki, müəllif nəslin yalnız kişi nümayəndələri ilə məhdudlaşmır, həmçinin qadın nümayəndələri haqqında da məlumat verir. Nəticədə məqalədə nəslin həm kişi, həm də qadın xətti ilə bütün varisləri haqqında danışılır.

Ümid edirik ki, bizim araşdırmalarımız davam etdiriləcək və yenidən işlənəcək, hər bir tədqiqatçının araşdırmalarında olduğu kimi, burada da təsadüf olunan uyğunsuzluqlar, qüsur və boşluqlar aradan qaldırılacaq. Məqalə üzərində işləyərkən bizə məsləhətlər vermiş, fotoşəkil və digər materiallar təqdim etmiş hər bir şəxsə dərin minnətdarlığımızı bildirmək istəyirik.

Beləliklə, öz nəsli haqqında məqalə yazmaq fikrinə düşən müəllifin əlində əcdadları haqqında nə ətraflı məlumat, nə də sənədlər var idi.

Nənəm Zərrintac xanım İsrafilbəyovanın (Nəzərova) söhbətlərindən (sovet dövründə öz bəy nəslindən danışmağa çox qorxurdu və bütün sənəd və şəkilləri məhv etmişdi) bilirdik ki, onun atası Mikayıl bəy[1] Useyn (Hüseyn) bəy oğlu İsrafilbəyov «Yelizavetpol (Gəncə) şəhərində hörmətli adamlardan idi». Useyn (Hüseyn)bəyin atasının kimliyi, nəslin başçısının kim olması haqqında isə müəllifin, ümumiyyətlə, heç bir məlumatı yox idi. Nənəsinin vəfatından sonra müəllif öz qohumlarından zərrə-zərrə məlumat toplamağa başlamışdır. Elə onlardan da Zərrintac xanımın atasının şəklini və onun bəy nəslinin kökləri haqqında məlumat əldə edə bilmişdir.

Ailə xatirələrinə görə, nəslin banısı İsrafil bəy – Gəncə hakimi Cavad xanın[2] ordu başçısı (sərdar) olmuşdur (Gəncə xanlığı XVIII əsrdə – XIX əsrin əvvəllərində Azərbaycanda, Kür vadisində feodal dövləti olmuşdur, paytaxtı Gəncə şəhəri idi. 1804-cü ildən Rusiya imperiyasının tərkibinə daxil edilmişdir)[3].

Araşdırmalarımın növbəti mərhələsi kameral təsvir materiallarının[4] saxlandığı Azərbaycan Respublikası Dövlət Tarix Arxivində (bundan

---

[1] Bəy titulunun daha dəqiq izahatı haqqında bax: *Ашурли Р.С.* Беки // Известия АИРО. Вып. 3. Баку, 2001. С. 150–153.

[2] АКАК. Т. I. Тифлис, 1866. С. 596–597. Док. № 794; *Бабаев Эльгюн*. Из истории Гянджинского ханства. Баку, 2003. С. 85, 136.

[3] СЭС. Москва, 1989. С. 357.

[4] Müəllif səmimi dəstəyinə və zəruri materialları tapmaqda göstərdiyi köməyə görə Azərbaycan Milli Arxiv İdarəsinin rəisi cənab Ataxan Paşayevə dərin minnətdarlığını bildirir. Azərbaycanda kameral təsvirlər barədə daha ətraflı məlumat üçün bax: *Исмаилов Э.Э.* Камеральные описания городов и

sonra: ARDTA), Azərbaycan Respublikasının Dövlət Arxivində (ARDA), M.F.Axundov adına Azərbaycan Milli kitabxanasında, Rusiya Federasiyasının Dövlət Arxivində (RFDA), Rusiya Dövlət Kitabxanasında apardığım ağır işlərdən, kitab və məqalələrin, müxtəlif tarixi qaynaqların öyrənilməsindən ibarət olmuşdur, bunlar kifayət qədər dəqiq şəcərə yaratmağa imkan vermişdir.

Uzun axtarışlardan sonra (bəxtim gətirdi) iki sənəddə ulu babam – Ağabəy İsrafilbəyovun adı çəkilirdi, bunu Useyn bəyin (Hüseyn bəy) atasının adı belə olduğuna görə müəyyənləşdirmək mümkün olmuşdur:

«Yelizavetpol Xəzinədarlıq Arxivindən. Torpaq sahiblərinin siyahısı. Yelizavetpol qəzasının 1 polis sahəsi. Güləmətin malikanəsi № 669. Yelizavetpol qəzasının sakini Hüseyn bəy Ağabəy oğlu İsrafilbəyov. Desyatinin ümumi miqdarı – 115. Vergi məbləği – 642 rub. 60 q.»[5]

Həmçinin bu sənədlər vasitəsilə müəyyən edə bildim ki, Ağabəy bizim soyadımızın banisi – gəncəli sərdar İsrafil bəyin oğludur, soyadımız da (İsrafilbəyovlar) onun adı ilə bağlıdır.

Yelizavetpol qəza rəisinin Yelizavetpol klassik gimnaziyasının direktoruna ünvanlanmış 3 sentyabr 1893-cü il 3890 saylı məktubuna əsasən, aydın olur ki, «Mikayıl bəy İsrafilbəyov Kollej müşaviri Useyn bəy Ağabəy oğlu İsrafilbəyovun oğludur, müsəlmandır, bəy nəslindəndir»[6].

Bu məlumatlar məzmununa görə çox cüzi olsa da, XIX əsrin əvvəllərinə kimi ailəmizin nəsil şəcərəsini izləməyə imkan vermişdir. Təəssüf ki, bu dövrə qədər ailə öz nəslinin yaranması və inkişafı haqqında heç bir əsaslı məlumata malik deyil, halbuki bu istiqamətdə həm arxiv materialları, həm də digər mənbələr üzərində daim iş aparılır.

Sözsüz ki, aşağıda verilən siyahı başa çatdırılmış hesab edilə bilməz və İsrafilbəyovlar nəslinin bitirilmiş genealoji cədvəli deyil. Arxiv materiallarının araşdırılmasını gələcəkdə də davam etdirəcəyik. Materiallar toplandıqca, imkan daxilində, İsrafilbəyov – Cəmillinski nəslinin bütün nümayəndələrinin bioqrafiyasının daha dərindən öyrənilməsi planlaşdırılır və bu yeni məlumatlar nəsil şəcərəsində öz əksini tapacaq.

## Nəsil şəcərəsinin təsviri

Aşağıda Yelizavetpol (Gəncə) şəhərinin bəy nəsillərindən birinin nümayəndələri – İsrafilbəyovlar və onların varisləri haqqında qısa bioqrafik məlumat verilir.

---

сел Азербайджана – как генеалогический источник. Известия АИРО. Вып. 5. Баку, 2004. С. 61–70.

5 ARDTA. F. 418. S. 1. İş 38 (Елисаветпольское уездное Казначейство).

6 ARDTA. F. 319. S. 4. İş 1848 (Елисаветпольская мужская гимназия).

**I nəsil**

**1. İsrafil bəy** (? – ?).

1802–1804-cü il sənədlərində Gəncə xanının sərdarı kimi[7] qeyd olunur. Kimlə evlənməyi və neçə uşağı olması haqqında məlumatımız yoxdur.

**II nəsil**

**2/1. Ağabəy İsrafilbəy oğlu** (? – ?).

Ağabəy haqqında yuxarıda deyilənlərdən başqa, heç bir məlumatımız yoxdur.

Kimlə evlənməsi və neçə uşağı olması haqqında dəqiq məlumatımız yoxdur: 2 oğlu olduğunu bilirik.

**III nəsil**

**3/2. Useyn (Hüseyn) bəy Ağabəy oğlu İsrafilbəyov** (təxminən 1838 və ya 1841-ci illərdə anadan olmuşdur – 22.12.1907).

Yelizavetpol şəhərinin 1860-cı il üçün kameral təsvir materiallarına əsasən, məlik, ağa, bəy, məmur və müsəlman ruhanilərinin siyahısında göstərilir: «İmamlı küçəsi. 2-ci dərəcəli dəftərxana qulluqçusu Useyn bəy İsrafilbəyov – 22. Onun qardaşı – Süleyman bəy – 6. Ailədə qadın cinsinə məxsus adamların sayı – 5. Məzhəbləri – islam»[8].

Burada qeyd etmək lazımdır ki, bəzi hallar istisna olmaqla, kameral təsvirlərdə qadınların adları qeyd olunmur, yalnız onların ocaqdakı ümumi sayı bildirilirdi. Təsvir 1860-cı ildə tərtib olunduğuna görə, Useyn bəyin yaşı 22 göstərilmişdir, onun 1838-ci ildə anadan olduğunu ehtimal etmək olar.

Bəzi yanlışlıqlara baxmayaraq, kameral təsvirlərin böyük əhəmiyyəti var idi, indi isə mühüm tarixi əhəmiyyət kəsb etmişdir. Məhz bunlardakı məlumatlar bəylik rütbələrinin varisləri kimi hüquqlarının tanınması haqqında bəylik komissiyalarına müraciət edənlər üçün mühüm dəlil olmuşdur[9].

---

[7] АКАК. Т. I. Тифлис, 1866. С. 596–597. Док. № 794; *Бабаев Эльгюн*. Из истории Гянджинского ханства. Баку, 2003. С. 85, 136.

[8] ARDTA. F. 10. S. 1. İş. 65. V. 711a.

[9] Azərbaycanda bəy komissiyalarının fəaliyyəti haqqında daha ətraflı bax: *Исмаилов Э.Э.* Бекские комиссии и проект положения о правах высшего мусульманского сословия Закавказья // Генеалогический вестник. Вып. 9. Санкт-Петербург, 2002. С. 47–51; *Ахмедов С.А.* Материалы Шушинской и Бакинской бекских комиссий в Государственном историческом архиве Азербайджанской Республики // Известия АИРО. Вып. 6. Баку, 2007. С. 118–124; *Абрамян Р.М.* Материалы Эриванской бекской комиссии как генеалогический источник // Известия АИРО. Вып. 6. Баку, 2007. С. 125–133.

Eyni zamanda, 10 yanvar 1880-ci ildə tərtib edilmiş Formulyar siyahıda onun 39 yaşı olduğu göstərilir, deməli, onun doğum tarixi təxminən 1841-ci il ola bilər[10].

Bəy nəslindəndir. Dini islamdır.

Keçmiş Yelizavetpol müsəlman məktəbinin tam kursunu[*] bitirdikdən sonra – 27 yanvar 1856-cı ildə Yelizavetpol şəhər polis idarəsində aşağı maaşla muzdlu katib işləməyə başlamışdır.

23 fevral 1859-cu il – 2-ci dərəcəli dəftərxana qulluqçuları sırasına daxil edilmişdir.

17 iyun 1859-cu il – xüsusi səylə xidmət göstərdiyinə görə orta maaşlı katib təyin edilmişdir.

Dəfələrlə Yelizavetpol şəhər polis idarəsində tərcüməçilik etmişdir.

30 mart 1862-ci il (rütbəsinin artırılması – 27 yanvar 1860-cı il) – kollej registratoru rütbəsi verilmişdir.

5 yanvar 1863-cü il – tərcüməçi vəzifəsini yerinə yetirməsinə icazə verilmişdir. 6 noyabr 1863-cü ildə bu vəzifədə təsdiq edilmişdir.

Dəfələrlə məhəllə nəzarətçisi vəzifəsini icra etmişdir.

7 oktyabr 1865-ci il (rütbəsinin artırılması – 27 yanvar 1863-cü il) – quberniya katibi rütbəsi verilmişdir.

20 dekabr 1865-ci il – Yelizavetpol şəhər polis idarəsinin məhəllə nəzarətçisi vəzifəsini yerinə yetirməsinə icazə verilmişdir. 7 dekabr 1867-ci ildə bu vəzifədə təsdiq edilmişdir.

8–26 dekabr 1867-ci il – pristav vəzifəsini icra etmişdir.

21 yanvar 1868-ci il – Qazax barışdırıcı şöbəsinin məhkəmə pristavı vəzifəsini yerinə yetirməsinə icazə verilmişdir.

23 yanvar 1868-cı il (rütbəsinin artırılması – 27 yanvar 1866-cı il) – kollej katibi rütbəsi verilmişdir.

10 mart 1869-cu il – Yelizavetpol dairə məhkəməsinin Qazax barışdırıcı şöbəsinin məhkəmə pristavı vəzifəsinə təsdiq edilmişdir.

12 iyul 1869 – 13 fevral 1870-ci illər – öz vəzifələrini də icra etmək şərti ilə barışdırıcı hakim köməkçisi vəzifəsinə namizəd mükəlləfiyyətlərini də yerinə yetirmişdir.

29 yanvar 1870-ci il – ərizəsinə əsasən Yelizavetpol şəhərində polis pristavı vəzifəsinə keçirilmişdir.

---

[10] RDHTA. F. 400. S. 12. İş. 7423. Vv. 12–29 (Формулярный список о службе Елисаветпольского полицеймейстера надворного советника Усеин-бека Ага-бекова сына Исрафильбекова).

[*] 1854/55-ci tədris ilində müsəlman məktəbini tərifli attestatla bitirmişdir (Bax: *Таирзаде Н.А.* О мусульманских училищах в Азербайджане в конце 40-х и в 50-е годы XIX в. // Труды Музея истории Азербайджана. Вып. V. Баку, 1962. С. 183).

4 iyul – 26 avqust 1870-ci il – Yelizavetpol polismeysteri vəzifəsini icra etmişdir.

15 dekabr 1870-ci il – Qazax qəza rəisinin kiçik köməkçisi vəzifəsinə keçirilmişdir.

1 sentyabr 1871-ci il (rütbəsinin artırılması – 29 yanvar 1869-cü il) titulyar müşavir rütbəsi verilmişdir.

17 oktyabr 1873-cü il (rütbəsinin artırılması – 27 yanvar 1872-ci il) kollej asessoru rütbəsi verilmişdir.

28 dekabr 1873-cü il – 3-cü dərəcəli Müqəddəs Stanislav ordeni ilə (qeyri-xristianlar üçün təsis edilmişdir) təltif edilmişdir.

27 yanvar 1874-cü il – Qazax qəza rəisinin kiçik köməkçisi vəzifəsinə təsdiq edilmişdir.

1 fevral 1875-ci ildən Yelizavetpol quberniyasının inzibati müəssisələrinin yenidən təşkil edilməsi ilə əlaqədar olaraq ştatdan kənarda qalmışdır.

1 fevral 1876-cı il – Yelizavetpol qubernatoru yanında əlahiddə tapşırıqlar üzrə baş məmur təyin edilmişdir.

22 fevral 1876-cı il – Yelizavetpolda ticarət və digər istehsalat hüquqlarına görə vergilər haqqında qanunları həyata keçirməkdə Yelizavetpol polismeysterinə kömək etmək üçün onun sərəncamına göndərilmişdir.

5 mart 1876-cı il – Yelizavetpol polismeysteri vəzifəsini icra etməyə təyin olunmuşdur.

29 mart 1876-cı il – Yelizavetpol polismeysteri vəzifəsini icra etməklə yanaşı, Zəngəzur qəza rəisinin köməkçisi vəzifəsinə də təyin edilmişdir.

26 iyul 1876-cı il (rütbəsinin artırılması – 27 yanvar 1876-cı il) saray müşaviri rütbəsi verilmişdir.

24 dekabr 1876-cı il – Yelizavetpol quberniyasının ehtiyatda olan aşağı rütbələrinin uğurlu çağırışına görə Əlahəzrətin təşəkkürü elan edilmişdir.

18 aprel 1877-ci il – Yelizavetpol polismeysteri vəzifəsinə təsdiq edilmişdir.

14 dekabr 1879-cu il – 1877–1878-ci illərdə Türkiyə ilə müharibədə xüsusi xidmətlərinə görə 3-cü dərəcəli Müqəddəs Anna ordeni ilə (qeyri-xristianlar üçün təsis edilmişdir) təltif edilmişdir.

1880-ci il Formulyar siyahısına əsasən, xidməti töhmət və iradlar almamışdır. Düşmənə qarşı səfər və yürüşlərdə iştirak etməmişdir[11].

25 noyabr 1880-ci ildə «quldur Vəli və onun dəstəsinin tutulmasında fərqləndiyinə görə» 4-cü dərəcəli bantlı, ancaq qılıncsız Müqəddəs Vladimir ordeni ilə təltif edilmişdir[12].

---

[11] RDHTA. F. 400. S. 12. İş. 7423. Vv. 12–29.

[12] RDHTA. F. 400. S. 12. İş. 7423. Vv. 30–35, 36–37, 38, 39–40.

Bundan sonra Useyn (Hüseyn) bəy İsrafilbəyovun bioqrafiyasını Qafqaz təqviminin materiallarına əsasən izləməyə çalışmışıq.

Belə ki, 1878–1883-cü illər üçün Qafqaz təqviminin materiallarına əsasən, Useyn bəy İsrafilbəyov əvvəl saray müşaviri rütbəsində (1878–1881-ci illərdə), sonra isə kollej müşaviri rütbəsində (1882–1883-cü illərdə) Yelizavetpol şəhər polis idarəsində polismeyster vəzifəsini tutmuşdur.

1882-ci ilin məlumatlarına əsasən, Yelizavetpol Quberniya həbsxanaları üzrə Qəyyumluq Komitəsinin üzvü olmuşdur.

1885-ci ilin məlumatlarına əsasən, kollej müşaviri Hüseyn bəy İsrafilbəyov Nuxa-Areş Barışdırıcı şöbədə barışdırıcı münsif olmuşdur. 1895–1897-ci illərin məlumatına əsasən, Useyn bəy İsrafilbəyov əvvəl kollej müşaviri (1895–1896-ci illərdə), sonra isə mülki müşavir (1897-ci ildə) rütbəsində yenidən Yelizavetpol şəhər polis idarəsində polismeyster vəzifəsini tutmuşdur.

1897-ci ilin məlumatına əsasən, mülki müşavir Useyn bəy İsrafilbəyov Yelizavetpol Quberniya həbsxanaları üzrə Qəyyumluq Komitəsinin üzvü olmuşdur.

1902–1903 və 1906–1908-ci illərin məlumatlarına əsasən, Useyn bəy İsrafilbəyov Yelizavetpol şəhər ictimai idarəsinin (Yelizavetpol şəhər duması) qlasnısı olmuşdur.

1902–1908-ci illərin məlumatlarına əsasən, mülki müşavir Useyn bəy İsrafilbəyov Yelizavetpol şəhər idarəsinin üzvü olmuşdur.

28 dekabr 1907-ci il tarixli «Yeni həyat» qəzetində belə bir məlumat verilmişdir: «Xüsusi müxbirdən. Gəncədən. Dekabrın 22-də axşam saat 6-ya yaxın Çavçavadze küçəsində Gəncədə tanınmış əyan və maarifçi Hüseyn bəy İsrafilbəyov naməlum şəxs tərəfindən üç güllə ilə qətlə yetirilmişdir, qatil cinayət yerindən qaçmışdır. Qətldə şübhəli bilinən iki nəfər rus saxlanmışdır. Cinayətin səbəbləri məlum deyil»[13].

1880-ci ilin Formulyar siyahısına əsasən, Yelizavetpolda qardaşı ilə bölünməmiş həyəti olan evə malik idi[14].

9 yanvar 1887-ci il 2 saylı protokola əsasən, Yelizavetpol Qubernatoru tərəfindən Layihə təsdiq olunmuşdur: «Yelizavetpol şəhər sakini Saray Müşaviri Hüseyn bəy İsrafilbəyovun bağ evi tikdirmək üçün aldığı Hacıkənd mərz hissəsinin planı»[15].

8 iyul 1889-cu il 97 saylı və 22 aprel 1895-ci il 77 saylı protokola əsasən, Yelizavetpol Qubernatoru tərəfindən Hacıkənd mərzində Kollej Müşaviri Hüseyn bəy İsrafilbəyovun dükan tikdirmək üçün layihələr təsdiq edimişdir[16].

---

[13] Газета «Новая жизнь». 28 декабря 1907 г. № 207.

[14] RDHTA. F. 400. S. 12. İş. 7423. Vv. 12–29.

[15] ARDTA. F. 61 (Елисаветпольское Губернское Правление). S. 1. İş. 1184.

[16] ARDTA. F. 61 (Елисаветпольское Губернское Правление). S. 1. İş. 1183, 1185.

Useyn (Hüseyn) bəy İsrafilbəyov Nərgiz xanım Qaziyeva (? – ?) ilə evlənmişdir.

1880-ci il Formulyar siyahısına əsasən, bu zaman artıq dul imiş. 3 oğlu və 1 qızı var idi; uşaqları müsəlman dininə mənsub idilər, onunla qalırdılar[17].

Oxucuları həmçinin Rusiya Federasiyasının Dövlət Arxivində tapılmış maraqlı sənədlərlə tanış etmək istəyirəm, ehtimal ki, bunlar 1907-ci ildə Useyn (Hüseyn) bəy İsrafilbəyovun öldürülməsinə aydınlıq gətirə bilər.

«Yelizavetpol Polismeysterinin köməkçisi Ryaxinin General-Leytenant Frezeyə yazdığı məktub və ona edilmiş əlavələrin surətindən».

Zati-aliləri.

Bu il oktyabrın 8-də axşam Tiflisdə Quberniya Jandarm İdarəsinin Rəisinə hazırlanan qiyam haqqında əldə etdiyim sənədləri və bu dövlət çevrilişi haqqında iki məruzəni təhvil verdim…

Yelizavetpol Polismeysterinin köməkçisi Ryaxin. İndi belə bir xəbər aldım ki, tatar, keçmiş Polismeyster İsrafilbəyovun yanında son zamanlar gecə vaxtı müsəlmanların toplantısı keçirilir, indiki Polismeyster Bobrovski də iştirak edir. Zati-aliləri, Bobrovskinin bu işdə iştirakı mənim üçün əhəmiyyətsizdir, mənim onun yerinə onsuz da kecməyə niyyətim yoxdur, ancaq bu dəhşətli işdə bütün qəlbi ilə maraqlı olan bir adam kimi, xəbər verməyi özümə borc bilirəm ki, əgər Bobrovski dərhal aradan götürülməsə, xeyli ziyan gətirəcək, ancaq düşünmədən, çünki məsələdən xəbəri yoxdur, yalnız başa düşmədən tatarların təsirinə məruz qaldığına görə belə ola bilər; tatarlar son zamanlar hədlərini o qədər aşmışlar ki, rus milliyyətli adam üçün polisdə yer qalmamışdır. Polismeyster köməkçisi Ryaxin»[18].

«Birinci məktub əlimə düşən kimi əməliyyatlara başlamaq haqqında təcili məsələ qaldırılmışdır, ancaq belə bir sirri rəhbərlik qarşısında aça bilməzdim, çünki yaxşı bilirəm ki, Jandarm İdarəsi Rəisinin köməkçisinin də şahidliyinə görə, Polismeyster, tamamilə tatarların təsiri altındadır, bunlardan İsrafilbəyov, Rəfibəyov, Hacalıbəyov, hansısa Cəlil, Məşədi Musa və digər varlılar bütün hakimiyyəti öz əllərində saxlayırlar, mollanın etirafına görə isə, yerli hakimiyyətə etibar etmək qorxuludur, çünki hər yerdə sui-qəsdçilərin xəfiyyələri var və buna görə də həmin gün, məhz sentyabrın 26-da, hamının məsləhətinə görə, Jandarmlar Başçısının Köməkçisinə sifarişli məktubla məlumat göndərdim. Yelizavetpol Polismeysterinin köməkçisi Ryaxin»[19].

«Rotmistr Protopopov tərəfindən Prixod (məhəllə) mollası Hacı Molla Ata kişi Hacı Molla Xəlil oğlunun istintaq protokolunun surətindən.

---

[17] RDHTA. F. 400. S. 12. İş. 7423. Vv. 12–29.

[18] RFDA. F. 102. ЗД. S. 1900. İş. 103. Cild 35. Vv. 15–15a.

[19] RFDA. F. 102. ЗД. S. 1900. İş. 103. Cild 35. Vv. 57a.–58.

Protokol.

28 Oktyabr 1900-cü il, Yelizavetpol şəhərində mən, Jandarmların Əlahiddə Korpusunun Rotmistri Protopopov Dövlət Mühafizəsi haqqında Qərara əsasən, aşağıda göstəriləni dindirmişəm, o belə bir ifadə vermişdir: Adım Hacı Molla Ata kişi Hacı Molla Xəlil oğludur, Yelizavetpol şəhərində Prixod mollasıyam, 41 yaşım var… Qazının hər yerdə adamları var. Quberniya idarəsinin tərkibi, demək olar ki, bütövlüklə Qazının dostlarından ibarətdir. Poruçik Bobrovski həm Qazının özü, həm də onun qohumlarının çoxu ilə yaxın münasibətdədir; Bobrovski tez-tez Qazı və onun qohumlarının evində nahar və şam yeməklərinə qonaq gedir. Pristavın köməkçisi Abbas bəy Əmircanov gündə bir neçə dəfə Qazının yanında olur, o, Bobrovskinin yaxın adamıdır və onun vasitəsilə Qazı və onun qohumları ilə tanış olmuşdur. Saşa bəy Mirzəyev yalnız adına görə xristiandır, arvadı müsəlmandır və o özü də Qazıya yaxındır. Notarius Mehmandarov və Qazı çox yaxındırlar; Mehmandarov məmurları Qazı ilə tanış etməyə çalışır. Keçmiş polismeyster Hüseyn bəy İsrafilbəyov və onun qardaşı Süleyman Ağa İsrafilbəyov da həmin partiyaya mənsubdurlar, onlar hələ əvvəllər də indiki Qazının atası ilə dost olmuşlar… bundan sonra Mollanın tatarca imzası qoyulmuşdur. Rotmistr Protopopov. Əsli ilə düzdür. Polkovnik Debil»[20].

Qiyamı həyata keçirməkdə kömək edən müsəlmanların siyahısında 23-cü nömrə altında İmamlı küçəsindən Useyn bəy İsrafilbəyov göstərilmişdir[21].

**4/2. Süleyman bəy Ağabəy oğlu İsrafilbəyov** (təxminən 1854-cü ildə anadan olmuş – ? vəfat etmişdir).

Yelizavetpol şəhərinin 1860-cı il Kameral təsvirinin materiallarına əsasən, məlik, ağa, bəy, məmur və müsəlman ruhanilərinin siyahısında böyük qardaşı Useyn bəy İsrafilbəyovun ailəsində göstərilmişdir. 1860-cı ildə tərtib edilmiş təsvirdə Süleyman bəyin 6 yaşı olduğu göstərilir, ehtimal etmək olar ki, o, 1854-cü ildə anadan olmuşdur[22].

1861–1867-ci illərdə Yelizavetpol kişi gimnaziyasında oxumuşdur[23].

1879–1880-ci illərin Qafqaz təqviminin məlumatına əsasən, Süleyman bəy İsrafilbəyov Yelizavetpol şəhər polis idarəsində tərcüməçi vəzifəsində çalışmışdır.

1881–1882-ci və 1887–1892-ci illərin Qafqaz təqviminin məlumatlarına əsasən, Süleyman bəy İsrafilbəyov Yelizavetpol şəhər polis idarəsində şəhər polis idarəsi pristavının köməkçisi vəzifəsini tutmuşdur.

---

[20] RFDA. F. 102. 3Д. S. 1900. İş. 103. Cild 35. Vv. 16; 18–18a.
[21] RFDA. F. 102. 3Д. S. 1900. İş. 103. Cild 35. V. 55.
[22] ARDTA. F. 10. S. 1. İş. 65. V. 711a.
[23] ARDTA. F. 1039. S. 1. İş. 540. V. 23a., İş. 697. V. 84a.

1895–1897-ci illərin Qafqaz təqviminin məlumatına əsasən, Süleyman bəy İsrafilbəyov Nuxa şəhərinin baş polis pristavı vəzifəsini tutmuşdur.

«1913-cü il üçün Yelizavetpol şəhəri sakinlərinin daşınmaz əmlakının təsvirində baş vermiş dəyişikliklər haqqında qeydlər Kitabında» qeyd edilmişdir: «İmamlı küçəsi, məhəllə, 13. Süleyman bəy, Mikayıl bəy və İsrafil bəy İsrafilbəyovlar. Meyvə bağı olan iki evli həyət»[24].

Süleyman bəy İsrafilbəyovun kimlə evlənməsi və neçə uşağı olması haqqında heç bir məlumatımız yoxdur. Bizdə yalnız bir qızı – Nüşafərin xanım Süleymanbəy qızı haqqında məlumat var (aşağıya bax).

**IV nəsil**

**5/3. Cəbrayıl bəy Hüseyn bəy oğlu İsrafilbəyov** (9.05.1871 – ?)

Adı atasının Formulyar siyahısında çəkilir, doğum tarixi 9 may 1871-ci il gös tərilir[25].

1884–1892-ci illərdə Yelizavetpol kişi gimnaziyasında oxumuşdur[26]. «Atasının ərizəsinə əsasən, hərbi xidmətə təyin edildiyinə görə gimnaziyadan çıxmışdır. (7 iyun, 1892-ci il)»[27].

Cəbrayıl bəy Hüseyn bəy oğlu İsrafilbəyovun sonrakı taleyi haqqında ailənin heç bir məlumatı yoxdur.

**6/3. İsrafıl bəy Hüseyn bəy oğlu İsrafilbəyov** (16.06.1872 – 1920?).

Adı atasının Formulyar siyahısında çəkilir, doğum tarixi 16 iyun 1872-ci il gös tərilir[28].

1884–1890-cı illərdə Yelizavetpol kişi gimnaziyasında oxumuşdur. «Yelizavetpol Peşə məktəbinə daxil olmaq üçün atasının ərizəsinə əsasən gimnaziyadan çıxmışdır. (Aprel, 1890-cı il)». «Xəstə olduğuma görə bu ərizəni verməyi böyük oğlum Cəbrayıl bəyə etibar edirəm. Kollej müşaviri Useyn bəy İsrafil Bəyov»[29].

1899–1900-cü illərin Qafqaz təqviminin məlumatlarına əsasən, İsrafil bəy İsrafilbəyov kollej registratoru rütbəsində Yelizavetpol Qəza polis idarəsinin ştatdankənar X sinif məmuru vəzifəsini tutmuşdur; sonra 1901–1903-cü illərin Qafqaz təqviminin məlumatlarına əsasən, İsrafil bəy İsrafilbəyov artıq Quberniya katibi rütbəsində həmin idarənin ştatdankənar IX sinif məmuru vəzifəsini tutmuşdur.

---

[24] ARDTA. F. 419. S. 1. İş. 11. V. 120a.
[25] RDHTA. F. 400. S. 12. İş. 7423. Vv. 12–29.
[26] ARDTA. F. 319. S. 4. İş. 1384. V. 3a.
[27] ARDTA. F. 319. S. 4. İş. 1786б. Vv. 29; 31.
[28] RDHTA. F. 400. S. 12. İş. 7423. Vv. 12–29.
[29] ARDTA. F. 319. S. 4. İş. 1484б. Vv. 70; 72.

1904–1905-ci illərin Qafqaz təqviminin məlumatlarına əsasən, İsrafil bəy İsrafilbəyov kollegiya katibi rütbəsində Yelizavetpol Qəza polis idarəsinin tərcüməçisi olmuşdur.

1906-cı il Qafqaz təqviminin məlumatlarına əsasən, İsrafil bəy İsrafilbəyov kollegiya katibi rütbəsində yenə də Yelizavetpol Qəza polis idarəsinin ştatdankənar IX sinif məmuru vəzifəsini tutmuşdur.

1910–1914-cü illərin Qafqaz təqviminin məlumatlarına əsasən, İsrafil bəy İsrafilbəyov titulyar müşavir rütbəsində (1910-cü ildə), sonra isə kollegiya asessoru (1911–1914-cü illərdə) rütbəsində Yelizavetpol qəzasında Barışdırıcı münsif yanında tərcüməçi olmuşdur.

Ailədə olan məlumatlara görə 1920-ci ildə Gəncə şəhərində XI Qırmızı Orduya qarşı may qiyamında iştirak etdiyinə görə İsrafil bəy İsrafilbəyov qardaşı Mikayıl bəylə (aşağıda bax) birlikdə güllələnmişdir.

Məlumdur ki, İsrafil bəy əmisi qızı Nüşafərin xanımla evlənmişdir (bax: № 9/4). Onların 3 oğlu, 1 qızları olmuşdur.

**7/3. Aliyə xanım Hüseyn bəy qızı** (24.09.1873 – ?).

Adı atasının Formulyar siyahısında çəkilir, doğum tarixi 24 sentyabr 1873-cü il göstərilir[30].

Əri Həsən bəy olmuşdur. Onunla nikahdan 1 qızı olmuşdur.

**8/3**. **Mikayıl bəy Hüseyn bəy oğlu İsrafilbəyov** (6.02.1875 və ya 1878 – 1920?).

Adı atasının Formulyar siyahısında çəkilir, doğum tarixi 6 fevral 1875-ci il göstərilir[31].

Mikayıl bəyin tərcümeyi-halından aydın olur: «…1878-ci ilin fevral ayında anadan olmuşam. Səkkiz yaşım tamam olanda atam məni tatar (Azərbaycan – *Ə.M.*) məktəbinə vermişdi, burada tatar və rus dillərində dərs keçirdilər. Bu məktəbdə əvvəl tatar əlifbası ilə məşğul olurdum, tatar dilində yazıb-oxumağı öyrənəndən sonra mənə rus dilini öyrətməyə başladılar. Bir il sonra atam məni şəhər məktəbinə verdi, burada iki il oxudum, oradan isə imtahan verərək Yelizavetpol gimnaziyasının birinci sinfinə daxil oldum. Üçüncü sinifdə – 1891-ci ildə mənim üçün yeni olan bir dillə – yunan dili və iki yeni fənn – tarix və cəbri öyrənməyə başladım»[32].

«Yelizavetpol Gimnaziyasının şagirdlərinin 1892-ci il üçün tərkibi haqqında ümumi siyahı»dan aydın olur ki, Mikayıl bəy İsrafilbəyovla birlikdə gimnaziyada Heybət bəy Haqverdiyev[33] və Azərbaycanın gələcək görkəmli dövlət və siyasi xadimləri, Azərbaycan Demokratik Res-

---

[30] RDHTA. F. 400. S. 12. İş. 7423. Vv. 12–29.
[31] RDHTA. F. 400. S. 12. İş. 7423. Vv. 12–29.
[32] ARDTA. F. 319. S. 4. İş. 1848. Vv. 66–68a.
[33] ARDTA. F. 319. S. 4. İş. 1812. V. 4.



Mikayıl bəy Hüseyn bəy oğlu İsrafilbəyov (ortada oturan, № 8/3)

publikasının yaradıcıları və rəhbərləri – Fətəli xan Xoyski (1875 – 1920)[34], Xəlil bəy Xasməmmədov (1875 – 1947, İstanbul)[35], Xudadat bəy Rəfibəyli (1877/78 – 1920), Nəsib bəy Yusifbəyli (1881 – 1920)[36], Həsən bəy Ağayev (1875 – 1920)[37], Aslan bəy Səfikürdski (1880 – 1937)[38] də oxuyurdu.

Mikayıl bəyin tərcümeyi-halından: «… mən 11 sentyabr 1892-ci ildə cənab Yelizavetpol qəzasının rəis cənablarına qəza idarəsinə dəftərxana qulluqçusu vəzifəsinə götürülməyim haqqında ərizə verdim. O məni qəbul edib dedi ki, bu ərizəni Quberniya idarəsinə təqdim edəcək. Quberniya İdarəsi məni birinci dərəcə üzrə təsdiq etdi»[39].

«Yelizavetpol gimnaziyasının Pedaqoji Şurasının iclas jurnalı»ndan çıxarış. 27.IX.1893-cü il. İclasda Pedaqoji Şuranın bütün üzvləri iştirak etmişdir. Eşidildi:

3) Dəftərxana qulluqçusu…Mikayıl bəy İsrafilbəyovun 1-ci sinif rütbəsinə imtahana buraxılması haqqında.

Bütün adları çəkilmiş şəxslər 27 sentyabrda fənn komissiyasında təyin olunmuş sınaqdan keçirilmişlər: … Mikayıl bəy İsrafilbəyov 1-ci sinif rütbəsinə. Onların arasında sınaqdan keçmişdir:… Mikayıl bəy İsrafilbəyov – 1-ci sinif rütbəsinə.

Pedaqoji Şura qərara almışdır: … Mikayıl bəy İsrafilbəyov təyin olunmuş sınaq- dan …keçdiyinə görə şəhadətnamə verilsin»[40].

Gəncə Quberniya İdarəsinin Kollej Müşaviri Mikayıl bəy İsrafilbəyovun xidməti haqqında 7 dekabr 1919-cu ildə tərtib edilmiş Formulyar

[34] Azərbaycan Sovet Ensiklopediyası. Cild 10. Bakı, 1987. Səh. 47.
[35] Azərbaycan Sovet Ensiklopediyası. Cild 10. Bakı, 1987. Səh. 60.
[36] Газета «Зеркало». 21 мая 2011 г. № 90. С. 41.
[37] ARDTA. F. 319. S. 4. İş. 1477. V. 1.
[38] *Allahverdiyev V.*, *Mehdiyev Ş.* Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti. 1918–1920. Bakı, 1990. Səh. 55, 75.
[39] ARDTA. F. 319. S. 4. İş. 1848. V. 67.
[40] ARDTA. F. 319. S. 4. İş. 1852.

siyahısına əsasən*: «40 yaşı var, müsəlmandır, ayda… 3200 rubl məvacib alır. Yelizavetpol şəhərinin zadəgan nəslindəndir. Ata-baba mülkü var: Yelizavetpol şəhərində həyəti olan ev və Yelizavetpol qəzasında yerləşən Gülə-Mətində 107 des. sahəsi olan mülkü… Yelizavetpol klassik gimnaziyasında tərbiyə almışdır… birinci sinif rütbəsinə sınaqdan keçmişdir…, bu barədə 1893-cü ilin oktyabr ayında 763 saylı şəhadətnamə verilmişdir»[41].

Yelizavetpol Qəza İdarəsinin 29 yanvar 1893-cü il 4368 saylı Qərarına əsasən, mənşəyinə görə birinci dərəcəli dəftərxana qulluqçusu kimi həmin İdarədə həqiqi xidmətə təyin edilmişdir.

Mülki idarə üzrə 24 yanvar 1896-cı il 4 saylı ali əmrlə xidmət illərinə görə 29 yanvar 1895-ci ildən Kollej registratoru rütbəsi verilmişdir.

Yelizavetpol qubernatorunun 20 iyun 1896-cı il 43 saylı əmri ilə Yelizavetpol Qəza Polis idarəsinin tərcüməçi vəzifəsini icra etməyə təyin olunmuşdur.

Yelizavetpol Qəza Rəisinin 23 may 1896-cı il 1835 saylı göstərişinə əsasən, həmin ilin yayında Hacıkənd mərzində polis bölməsini idarə etmişdir.

Bozedə dəfn olunmuş İmperator III Aleksandrın xatirəsinə Aleksandr lenti üzərində gümüş medalla təltif edilmişdir; medal Yelizavetpol Quberniya İdarəsinin 28 fevral 1897-ci il 2464 saylı göstərişi ilə göndərilmişdir.

1897-ci ildə əhalinin birinci ümumi siyahıya alınması işində xidmətlərinə görə döşündə gəzdirmək üçün üzərində dövlət rəngləri olan lentdə tünd-bürünc medalla təltif edilmişdir, buna görə 26 aprel 1897-ci ildə Daxili İşlər Nazirinin Şəhadətnaməsi verilmişdir.

Mülki idarə üzrə 27 sentyabr 1898-ci il 75 saylı Ali əmrlə xidmət illərinə görə 29 yanvar 1898-ci ildən Quberniya katibi rütbəsi verilmişdir.

Mülki idarə üzrə 14 sentyabr 1901-ci il 74 saylı Ali əmrlə xidmət illərinə görə 29 yanvar 1901-ci ildən Kollej Katibi rütbəsi verilmişdir.

Yelizavetpol Qubernatorunun 1iyul 1902-ci il 122 saylı əmri ilə Yelizavetpol şəhərinin 1-ci hissəsinin Pristav köməkçisi təyin edilmişdir.

Mülki idarə üzrə 29 aprel 1905-ci il tarixli Ali əmrlə xidmət illərinə görə Titulyar müşavir rütbəsi verilmişdir.

Yelizavetpol qubernatorunun 4 yanvar 1905-ci il 2 saylı əmri ilə Yelizavetpol şəhərinin 3-cü hissəsinin Polis pristavı vəzifəsini icra etməyə təyin olunmuşdur.

---

* Müəllif zəruri materialların tapılmasına göstərdikləri əvəzsiz köməyə görə Azərbaycan Respublikası Dövlət Arxivinin direktoru cənab Emin Məmməd oğlu Sərdarova və məlumat-axtarış arxivinin müdiri Melnikova Qalina Yevgenyevnaya minnətdarlığını bildirir.

[41] ARDA. F. 894. S. 2. İş. 36. Vv. 4–11.

Yelizavetpol qubernatorunun 24 dekabr 1905-ci il 210 saylı əmri ilə Yelizavetpol qəzasının 1-ci sahəsinin Polis Pristavı təyin edilmişdir.

Yelizavetpol qubernatorunun 29 sentyabr 1908-ci il 140 saylı əmri ilə müvəqqəti olaraq Yelizavetpol Qəza Rəisinin Baş köməkçisi vəzifəsini yerinə yetirməyə ezam olunmuşdur.

Mülki idarə üzrə 6 dekabr 1908-ci il 82 saylı Ali əmrlə 3-cü dərəcəli Müqəddəs Stanislav ordeni ilə təltif edilmişdir.

Mülki idarə üzrə 23 fevral 1909-cu il 11 saylı Ali əmrlə xidmət illərinə görə 29 yanvar 1909-cu ildən. Kollej asessoru rütbəsi verilmişdir.

Yelizavetpol Qubernatorunun 31 oktyabr 1909-cu il 138 saylı əmri ilə 31 oktyabr 1909-cu ildən 15 yanvar 1910-cu ilə kimi Yelizavetpol Qəzasını idarə etmişdir.

Yelizavetpol Qubernatorunun 21 iyul 1910-cu il 119 saylı əmri ilə Yelizavetpol Qəza Rəisinin Baş Köməkçisi vəzifəsinə təsdiq edilmişdir.

Yelizavetpol Qubernatorunun 30 dekabr 1910-cu il 195 saylı əmri ilə xidmətə fayda naminə Qaryagin Qəza Rəisinin Baş Köməkçisi vəzifəsinə keçirilmişdir[42].

(«18 sentyabr 1910-cu il tarixində Polis Departamentinə göndərilən məlumatlara əsasən, «Cəmi 1600 rubl əmək haqqı alırdı (maaş – 750; stol – 300; kvart. – 250; səfər (razyezd) – 300)»)[43].

Mülki idarə üzrə 27 fevral 1912-ci il 10 saylı Ali əmrlə xidmət illərinə görə 29 yanvar 1911-ci ildən. Saray müşaviri rütbəsi verilmişdir.

21 fevral 1913-cü ildə Nazirlər Sovetinin təsdiq olunmuş Əsasnaməsinə əsasən, 29236 saylı şəhadətnamə ilə Romanovlar sülaləsi hakimiyyətinin 300 illik yubileyi münasibətilə təsis olunmuş açıq rəngli bürünc medal daşımaq hüququ verilmişdir.

«1892-ci ildə nəşr olunmuş ordenlər təsisatının 4-cü bəndi, 459-cu maddəsində göstərilmiş vəzifələrdə doqquz il ardıcıl olaraq səy və vicdanla göstərdiyi xidmətlərə görə fevralın üçüncü günü 1915-ci ildə Lütfkarcasına Üçüncü dərəcəli Müqəddəs Anna ordeni təqdim edilmişdir, bu barədə 17 aprel 1915-ci il 1006 saylı fərman verilmişdir».

Yelizavetpol Qubernatorunun 7 noyabr 1915-ci il 197 saylı əmri ilə xidmət adından ona «Qəza əhalisinin 1-ci azad Kuban polkunu yem fondu, ərzaq ehtiyatı ilə təmin etməkdə göstərdiyi səriştə və qayğıya görə» təşəkkür elan edilmişdir.

Mülki idarə üzrə 26 sentyabr 1916-cı il 80 saylı Ali əmrlə xidmət illərinə görə 29 yanvar 1915-ci ildən. Kollej müşaviri rütbəsi verilmişdir.

Yelizavetpol Qubernatorunun 3 oktyabr 1916-cı il 184 saylı əmri ilə Qazax Qəza Rəisinin Baş köməkçisi vəzifəsinə keçirilmişdir.

Müvəqqəti Hökumətin 5 mart 1917-ci il sərəncamı və Nazirlər Soveti Sədrinin, Daxili İşlər Nazirinin polisin Xalq Milisi ilə əvəz edil-

---

[42] Памятная книга Елисаветпольской губернии на 1914 г. Тифлис. 1914. С. 30.
[43] RFDA. F. 102. Д 1. S. 23. İş. 800. Cild 76. V. 35.

məsi haqqında Quberniya Zemstvo idarələri Sədrlərinə həmin 5 mart tarixində göndərilmiş teleqramında verilən təmimi sərəncamı nəticəsində tutduğu vəzifədən azad edilmişdir.

21 mart 1917-ci il tarixində Yelizavetpol Qəza İcraiyyə Komitəsinin Qətnaməsi ilə Yelizavetpol Qəzasının 1-ci sahəsinin Komissarı vəzifəsinə seçilmiş və Quberniya Komissarının həmin ilin 25 may tarixində 22 saylı əmri ilə təyin olunmuş vəzifəni icra etmək əmr olunmuşdur.

Yelizavetpol Quberniya komissarının 30 oktyabr 1917-ci il 14871 saylı hökmü ilə ona müvəqqəti olaraq Gəncə qəzasını idarə etmək həvalə olunmuşdur. 8 noyabr 1917-ci il 15185 saylı təqdimatla İsrafilbəyovun həmin vəzifəyə təsdiq olunması barədə Xüsusi Zaqafqaziya komitəsinə müraciət edilmiş, ancaq cavab alınmamışdır.

Gəncə Qubernatorunun 11 iyun 1919-cu il 173 saylı əmri ilə öz xahişinə görə Gəncə Qəza Rəisi vəzifəsindən azad edilmiş və 11 iyun 1919-cu ildən müvəqqəti olaraq boş olan Gəncə Quberniya İdarəsinin Müşaviri vəzifəsini icra etməsinə icazə verilmişdir.

Gəncə Qubernatoru Xudadat bəy Rəfibəyovun Daxili İşlər Nazirinin adına yazdığı 7 dekabr 1919-cu il 17969 saylı məktubunda: «Yuxarıda adları çəkilən şəxslərin faydalı və məsuliyyətli işlərini nəzərə alaraq …Mikayıl bəy İsrafilbəyovun Müşavir vəzifəsinə təsdiq olunmasını xahiş edirəm».

31 dekabr 1919-cu il 193 saylı əmrə əsasən, Mikayıl bəy İsrafilbəyov 11 iyun 1919-cu ildən Gəncə Quberniya İdarəsinin Müşaviri vəzifəsinə təyin edilir[44].

«Yelizavetpol qanlı günləri cəmiyyət məhkəməsi qarşısında» (Tiflis, 1906) kitabının müəllifi İ.Q.Alibeqov (milliyyətcə ermənidir – *Ə.M.*) faktları saxtalaşdırmaqla, əlində heç bir əsas olmadan ermənilərdən başqa hamını günahlandıraraq 1905-ci il noyabr hadisələrini belə təsvir edir: «Noyabrın 18-də mən Tiflisdən Yelizavetpola gəldim və səhər saat 9-da artıq şəhərin ermənilər olan hissəsində idim». Müəllif «bütün gördüklərini» təsvir etdikdən sonra sübut etməyə çalışır ki, bu hadisələrdən sonra şəhərdə və qəzada vəzifə tutan ermənilər aşağı vəzifələrə keçirilmiş, əyalətlərə göndərilmiş, tutduqları vəzifələrdən azad edilmişlər, müsəlmanların isə, əksinə, vəzifələri yüksəldilmişdir: «Mikayıl bəy İsrafilbəyov (müsəlman) Yelizavetpol şəhərində pristavdır. Yelizavetpol qırğınından sonra o, 1-ci sahə Yelizavetpol qəza pristavı vəzifəsinə təyin olunmuş, maaşı artırılmışdır»[45].

[44] ARDA. F. 894. S. 2. İş. 36. Vv. 2; 3–3a.; Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. Bakı, 2004. 1-ci cild. Səh. 393; Адрес-календарь Азербайджанской Республики на 1920 год. Баку, 1920. С. 10.

[45] *Алибегов И.Г.* Елисаветпольские кровавые дни пред судом общества. Тифлис, 1906. С. 2, 51.



Dünya xanım Cəmillinskaya
(ərdə: İsrafilbəyova, bax. № 8/3)
nəvəsi Məlahət Əziz qızı Nəzərova ilə
(№ 23/15)

ARDA-də bir maraqlı sənəd tapmışam. Onun mətnini tam göstərirəm: «Telefonoqram. Əlahəzrət, Gəncə Qəza Rəisi İsrafilbəyov cənablarına. Dünən İvanovo cəmiyyətinin starşinasından raport almışam, buna Karvansaral sahə rəisinin göstərişi əlavə edilmişdir ki, bununla həmin rəis Novo-İvanovka və Novo-Saratovka kəndlilərinə təklif edir ki, türk hakimiyyətinə tabe olmasınlar və onlara vergi və ərzaq verməsinlər, çünki bu kəndlər Ararat Respublikasına tabedir. Yuxarıda deyilənləri Sizin diqqətinizə çatdırıram. Poçtla təfərrüatlı. 28 sentyabr 1918-ci il. Səhər saat 7. 5-ci sahənin pristavı Hacı-Əlibəyov. Çardağlı kəndi. Qəbul etmişdir A.Məmmədov»[46].

Yeni tapılmış tarixi sənədlər Sovet dövründə uzun illər boyu «xalq qəhrəmanı» sayılan və «Qatır Məmməd» (Məmmədov Məmməd Əli oğlu, 1887 – 18.09.1919) adlandırılan adamla bağlı məsələlərə də aydınlıq gətirir. O, 20 yaşında adam öldürmək üstündə «qaçaq» olmuşdur[47]. Vaxtilə Gəncəbasarda abidəsi ucaldılmış bu qaçaq rus və erməni bolşevikləri tərəfindən müstəqil milli hökumətlə mübarizə aparmaq üçün maliyyələşdirilir və silahla təmin edilirdi. Bunu Gəncə Qəza Rəisi Məlik-Abbasovun Xudadat bəy Rəfibəyova ünvanlandırdığı raportu sübut edir: «Qatır Məmmədin bandit dəstəsi erməni bolşevikləri ilə birlikdə Boyəhmədlidə əlbir hərəkət edir. Xahiş edirəm, Bulatxanova yaylaqlara kifayət qədər strajnik gətirmək təklif edilsin və elə bu gün ermənilərlə sərhəd rayonlarda Qatır Məmmədin quldur dəstəsi ilə mübarizəyə təlimat almaq üçün pristav Səfikürdski mənim yanıma Boyəhmədliyə gəlsin…»[48]. Uzun müddət Yelizavetpol quberniyasını qorxu altında saxlayan bu quldur dəstəsi ordu (komandir Mahmud bəy Paşayev)

[46] ARDA. F. 949. S. 1. İş. 8. V. 4.
[47] Azərbaycan Sovet Ensiklopediyası. Cild 3. Bakı, 1979. Səh. 88.
[48] *Əlyarlı İ.M., Behbudov T.R.* Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti. (1918–1920-ci illər). Bakı, 1998. Səh. 118–119.



Məcid bəy İsrafilbəyov (№ 10/6), Zərintac xanım İsrafilbəyova (№ 15/8),
Dünya xanım Cəmillinskaya (см. № 8/3), Böyük bəy İsrafilbəyov (№ 11/6),
Bilinməyən qadın, Nüşafərin xanım İsrafilbəyova (№9/4),
Həmid bəy İsrafilbəyov (№ 12/6), dayə. Foto. Hacıkənd, ?

və polisin birgə qüvvəsi ilə ləğv edilmişdir. Ailənin xatirələrinə görə həmin dövrdə Qubernator Müşaviri işləyən Mikayıl bəy İsrafilbəyov də həmçinin bu aksiyada iştirak etmişdir.

25 may 1920-ci ildə Gəncədə 1-ci Azərbaycan diviziyasının üsyanı başlanmışdır. Üsyanın planı diviziya komandiri artilleriya generalı Cavad bəy Şıxlinski və digər ordu zabitləri tərəfindən hazırlanmışdı. Üsyan edənlərin sayı 12 mindən çox idi, yığma (xalq) qoşun döyüşçüləri də onlara qoşulmuşdu. Ancaq XI Qırmızı Ordu, Azərbaycan bolşevikləri və erməni dəstələrinin birləşdirilmiş qüvvələri iyunun 1-də üsyanı yatırmağa nail oldular. Hər iki tərəf böyük itki vermişdi»[49].

Bu hadisələrdən sonra ailənin Mikayıl bəy haqqında heç bir məlumatı yoxdur. Güman ki, o, 1920-ci ildə Gəncədə bolşeviklərə qarşı may üsyanında iştirakına görə qardaşı İsrafil bəylə birlikdə güllələnmişdir.

Mikayıl bəy Məmməd bəy Cəmillinskinin nəvəsi – Dünyaxanım Qambay bəy qızı Cəmillinski (1878 – 1958)[50] ilə evlənmişdi. Şuşa qəzası Cavanşir sahəsi bəylərinin tabeliyində olan xüsusi sahibkarlara məxsus kəndli və sürgün edilmişlərin 1848-ci il üçün Kameral təsvir materiallarında onun adı Cəmilli elatının ağası kimi çəkilir; burada həmin elatın ağa

[49] Газета «Зеркало». 21 мая 2011 г. № 90. С. 2; Gəncə üsyanı // «Azərbaycan» qəzeti. 07.12.1990. № 48 (60). Səh. 5.

[50] Bu tarix qəbir daşı üzərində göstərilmişdir.

(yəni Məmməd bəyin – *Ə.M.*) torpağında əkinçiliklə məşğul olan bac ödəyən əhalisinin siyahısı verilmişdir[51].

Dünya xanım valideynlərini çox erkən itirmiş, yetim qalmış və buna görə də dayısı Cəmil bəy Məmməd bəy oğlu Cəmillinskinin evində tərbiyə almışdır; o isə məşhur şairə Natəvan xanımın (1832 – 1897) – Xurşid Banu Bəyimin (sonuncu Qarabağ xanının qızı) qızı Həcər Bikə xanımla (1869 – ?) evlənmişdir.

Dünya xanımla nikahdan Mikayıl bəy İsrafilbəyovun 2 qızı doğulmuşdur.

**9/4. Nüşafərin xanım Süleyman bəy qızı İsrafilbəyova** (1879 – 1949)[52].

Məlumdur ki, Nüşafərin xanım öz əmisi oğlu İsrafil bəy İsrafilbəyova ərə getmişdir (bax № 6/3), bu nikahdan 3 oğlu və 1 qızı olmuşdur.



Məcid bəy İsrafilbəyov (№ 10/6) yoldaşı və oğlu ilə.
Foto. Türkiyə, ?

**V nəsil**

**10/6. Məcid bəy İsrafil-bəy oğlu Gürlər (İsrafilbəyov)** (1901 – ?).

1911–1918-ci illərdə Yelizavetpol kişi gimnaziyasında təhsil almışdır[53]. Ailənin məlumatlarına görə bolşeviklər tərəfindən 1920-ci ildə Gəncə şəhərində may üsyanı yatırıldıqdan sonra Məcid bəy İsrafilbəyov Türkiyəyə mühacirət etmişdir. Türkiyədə Gürlər soyadını qəbul etmişdir. Türk ordusunda polkovnik olmuşdur.

Firəngiz xanımla (Xədicə) (1907 – 1972) evlənmiş, bu nikahdan 2 oğlu və bir qızı olmuşdur.

[51] ARDTA. F. 37. S. 1. İş. 24. V. 559a.
[52] Bu tarix qəbir daşı üzərində göstərilmişdir.
[53] ARDTA. F. 319. S. 4. İş. 2710д. V. 117.

**11/6. Böyükbəy İsrafil bəy oğlu İsrafilbəyov** (1903 – 1920).

1912–1920-ci illərdə Yelizavetpol kişi gimnaziyasında təhsil almışdır[54]. Ailənin məlumatlarına görə 1920-ci ildə onun gözləri qarşısında atası İsrafil bəy və əmisi Mikayıl bəy güllələnərkən keçinmişdir.

**12/6. Həmid bəy İsrafil bəy oğlu İsrafilbəyov** (1906, Gəncə –1963, Bakı).

Azərbaycan Sənaye İnstitutunu bitirmişdir. Böyük Vətən Müharibəsi iştirakçısıdır. Oktyabr İnqilabı adına Bakı Neft Texnikumunda tədris işləri üzrə direktor müavini vəzifəsində işləmişdir. Riyaziyyat fənnini tədris etmişdir.

Dilrüba xanım Lütfəli bəy qızı Zülqədərova ilə evlənmişdir (1911, Gəncə – 1998, Bakı). Övladları olmamışdır.



Həmid bəy İsrafilbəyov (№ 12/6) yoldaşı Dilrüba xanım Zülqədərova ilə

**13/6. Rövşəntac xanım İsrafil bəy qızı İsrafilbəyova** (1913, Gəncə – 1992, Bakı).

Fərrux Məhəmməd oğlu Hüseynovla (1906 – 1982) ailə qurmuşdur. Bu nikahdan bir qızı olmuşdur.

Rövşəntac xanım 1991-ci ilin iyun ayında İzmir şəhərində (Türkiyə) qardaşı uşaqları (qardaşı Məcid bəy 1920-ci ildən Türkiyədə yaşamışdır) – Fərrux bəy, Turxan bəy və Gülər xanımla görüşmüşdür[55].

**14/7. Dilbər xanım Həsən bəy qızı** (? – ?).

Böyük ağa Qaziyevlə ailə qurmuşdur. Bu nikahdan 2 oğlu olmuşdur.

**15/8. Zərrintac xanım Mikayıll bəy qızı İsrafilbəyova** (1904 – 1991).

---

[54] ARDTA. F. 319. S. 4. İş. 2818. V. 243.
[55] «Zaman» qəzeti. 07.06.1991.



Bilinməyən qadın, Dilrüba xanım Zülqədərova (bax. № 12/6), Rövşəntac xanım İsrafilbəyova (№ 13/6), Dilbər xanım Həsən bəy qızı (№ 14/7)

«Nəslinin tanınmış oğlu, zəngin Mikayıl bəy İsrafilbəyovun... yeganə qızı. İndiyə kimi ailə arxivində köhnə bir şəkil qorunub saxlanmaqdadır – burada gənc Zərrintac xanım, Yelenendorfdan (Xanlar) olan alman dayəsi ilə birlikdə təsvir edilmişdir, o da İsrafilbəyovların evində yaşamışdır. Zərrintac xanım kifayət qədər savadlı olmuşdur, alman və rus dillərini mükəmməl bilmişdir – rus klassikasından ibarət kitabxanası olmuşdur»[56].

İsgəndər xan Sərdari-Nasir Marağa vilayəti başçısının müavini vəzifəsinə təyin olunmuşdu.

---

[9] *Məsud Qulamiyyə*. Tarixi Marağa bə rəvayəti təsvir, Tehran: «Övhədi», 1385 (h.ş.). Səh. 174 (farsca).

[10] *Atif Xeyrullahi*. Marağa dər əsri Qacar. Təbriz: «Ətər», 1388 (h.ş.). Səh. 47 (farsca).

[11] *Məsud Qulamiyyə*. Tarixi Marağa bə rəvayəti təsvir. Tehran, «Övhədi»: 1385 (h.ş.). Səh. 125 (farsca).

İsgəndər xan Marağadan İran Milli məclisinə vəkil seçilmişdi. Bir müddət məclisə başçılıq etmişdi.

İsgəndər xan 1949-cu ildə Tehran şəhərində vəfat edib.

İsgəndər xanın Hüseyn xan, Əliqulu xan, Lütfəli xan, Əbuturab xan adlı oğlanları vardı.

Hüseyn xan İsgəndər xan oğlu Tehran şəhərində dünyaya gəlmişdi. O, ibtidai və orta təhsilini Tehran şəhərində almışdı. Sonra hərb məktəbində oxumuşdu.

İsgəndər xanın ikinci oğlu Əliqulu xan Tehran şəhərində anadan olmuşdu. O, ibtidai və orta təhsilini Tehran şəhərində almışdı. Sonra hərb məktəbində oxumuşdu. İran Kazak diviziyasında xidmət etmişdi. Sərhəng (polkovnik) rütbəsinədək yüksəlmişdi.

Əliqulu xanın Mehdiqulu xan adlı oğlu vardı.

Mehdiqulu xan Əliqulu xan oğlu Məhəmmədbağır xan Etimadüssəltənənin qız nəvəsidir. O, 1901-ci ildə Tehranda doğulmuşdu. Tehranda ibtidai və orta məktəbi bitirdikdən sonra Müşirüddövlə adına hərbi məktəbə daxil olmuşdu. 1910-cu ildə bu məktəbi bitirmişdi. 1911-ci ildə təhsilini davam etdirmək üçün Avropaya göndərilmişdi. Orada Baytarlıq üzrə doktorluq dərəcəsinə yiyələnmişdi.

Mehdiqulu xan bununla yanaşı Sensir şəhərində bir neçə müddət hərbi dövrə keçirmişdi. Tehrana qayıtdıqdan sonra hərbi rütbə alaraq 1941-ci ildə əsil at cinsi yetişdirmə idarəsində rəis müavini vəzifəsində çalışmışdı. O, bir müddət də baş polis müavini vəzifəsində xidmət etdikdən sonra yenidən orduya qayıtdı və general-mayor rütbəsi aldı.

Mehdiqulu xan bir müddət Heyvandarlıq idarəsinin rəisi vəzifəsində çalışmışdı. Sonra İran ordusunun rabitə bölməsinin rəisi olmuşdu. Daha sonra orduda idman sahəsində rəhbər vəzifədə xidmət etmişdi. O, bir müddət də gömrüyün mühafizə dəstəsinin başçısı olmuşdu. 1951-ci ildə isə general-leytnant rütbəsinə layiq görülərək İranın jandarma idarəsinin başçısı vəzifəsinə təyin olunmuşdu. 1952-ci ildə 30 Tir hadisəsi baş verən zaman o, Tehran şəhərinin hərbi komendantı idi (30 Tir 1331-ci h.ş ilində Tehran əhalisi Müsəddiqin ətrafına yığılaraq nümayişə çıxmışdılar). Onun, göstərişi ilə nümayişçilərə atəş əmri verildi və bu hadisədə bir çoxları öldürüldü və yaralandı. Müsəddiq yenidən baş nazir postuna yiyələndikdən sonra onu təqaüdə göndərərək, tutulmasına göstəriş verdi.

Lakin Mehdiqulu xan Ələvi Müqəddəm Müsəddiq hökuməti ilə kəskin surətdə mübarizəyə qalxdı. O, bir qrup təqaüddə olan və gənc ordu zabitləri ilə təşkilat yaradaraq, hökumətə qarşı mübarizə aparmağa başladı. Get-gedə onlar mübarizəni şiddətləndirib, bir qrub Tehranın cənubunda yaşayan əhalini Müsəddiqə qarşı səfərbər etdi. Yəni Ələvi Müqəddəm ürəkdən general-mayor Zahidi ilə hökumətə qarşı müxalifət etməkdə əməkdaşlıq edirdi. Ələvi Müqəddəm bir neçə dəfə hökumət tərəfindən tutulub həbs edildi.

1953-ci ilin Müsəddiq əleyhinə hökumət çevrilişindən sonra Ələvi Müqəddəm öz bir illik gərgin fəaliyyət qarşısında mükafatlandırılaraq ölkənin baş polis idarəsinin rəisi vəzifəsinə yüksəldi. SAVAK (ölkənin təhlükəsizlik orqanı) yaranana qədər bu idarə bütün işlərə nəzarət edirdi və elə bu səbəbdən də Ələvi Müqəddəm ölkənin yüksək rütbəli məmurlarından sayılırdı.

1958-ci ildə Ələvi Müqəddəm general-polkovnik rütbəsinə yüksəldi. O daha da məğrur olaraq, şahdan başqa hər hansı qüdrətli şəxs olursa olsun, onunla mübarizə edirdi. O hətta baş nazirin göstərişinə belə əməl etmirdi. 20-ci dövr Məclis seçkilərində o, baş polis rəisi olaraq güclü saxtakarlıq etdi. Doktor İqbaldövlə istefaya getdikdən, Şərif İmami dövləti iş başına gələndən sonra Ələvi Müqəddəm daxili işlər naziri təyin edildi. Və onun nazir olduğu dövrdə 20-ci dövr Məclis seçkilərində belə saxtakarlığa yol verildi. Bu saxtakarlıq İranda dövlətin əhali arasında etibarını daha da itirməsinə səbəb oldu. Elə bu üzdən də baş nazir Şərif İmami məcburiyyət qarşısında Ələvi Müqəddəmi bu vəzifədən azad etdi.

1961-ci yaz aylarında doktor Əli Əmini Amerikanın Demokrat partiyasının birbaşa himayəsi ilə İranda baş nazir oldu. O, şahın hökumət işlərinə müdaxilə etməməsi və məclisi ləğv etməsi şərti ilə baş nazir vəzifəsi təklifini qəbul etdi. Bu şərtləri hər ikisi qəbul olundu. Əmini ölkədə rüşvətxorluq və korrupsiya ilə mübarizə etmək üçün ədliyyə nazirliyinin işini gücləndirdi. Bir çox yüksək rütbəli məmurlar ki, korrupsiyada ittiham olunurdular vəzifədən azad edildilər. General-polkovnik Mehdiqulu xan Ələvi Müqəddəm də öz vəzifəsindən çıxarılaraq tutuldu. O, bir neçə ay həbsdə saxlanıldığı üçün dözümsüzlük nümayiş etdirərək yalvarmaqa başladı. Və nəhayət məhkəməsiz azadlığa buraxıldı. Şahın göstərişi ilə Xalq Təsərrüfatı nazirliyində müşavir vəzifəsində çalışdı. O, baş polis rəisi olarkən nəqliyyat idarəsini yaratdı.

Mehdiqulu xan Ələvi Müqəddəm 1984-cü ildə 83 yaşında Tehranda vəfat etdi.

İsgəndər xanın üçüncü oğlu Lütfəli xan Marağa şəhərində anadan olmuşdu. Mükəmməl təhsil almışdı.

İsgəndər xanın dördüncü Əbuturab xan Marağa şəhərində anadan olmuşdu. Mükəmməl təhsil almışdı.

Fətulla xanın ikinci oğlu Həsən xan 1891-ci ildə Marağa şəhərində anadan olmuşdu. Mükəmməl təhsil almışdı. Zəfəréddövlə ləqəbini daşıyırdı.

Həsən xan ibtidai və orta təhsilini doğma şəhərlərində almışdı. Sonra hərb məktəbində oxumuşdu. Bu məktəbi bitirəndən sonra Tehran universitetinə qəbul olmuşdu. Burda hüquq və siyasi elmləri öyrənmişdi.

Həsən xan Müqəddəm 1912-ci ildə Hacı Səməd xan Şücaüddövlənin yardım və məsləhəti ilə Avropaya yollanmışdı. Orda hərbi məktəblərdə təlim keçmişdi. I Dünya Müharibəsinin əvvələrində Moskva şəhərinə gəlmişdi. Burda Hərbi Akademiyada oxumuşdu.

Həsən xan Müqəddəm Moskvada oxuyarkən əmisi Hacı Səməd xan Şücaüddövləni dəvət etmiş, bir çox həkimlərə göstərmişdi. Hacı Səməd xan xərçəng xəstəliyindən əziyyət çəkirdi.

Həsən xan Müqəddəm hərbi akademiyanı kapitan rütbəsi ilə tamamlayaraq Tehrana dönmüşdü. İran ordusunda xidmət etməyə başlamışdı. General-leytenant rütbəsinədək yüksəlmişdi.

Həsən xan Müqəddəm bir çox əyalətlərin hərbi hissəsinin komandanı olmuşdu. 1922-ci ildə İsmayıl ağa Simitqonun qiyamının yatırılmasında iştirak etmişdi.

Fətulla xanın üçüncü oğlu Rəhmətulla xan 1921-ci ildə Marağa şəhərində anadan olumuşdu. O, orta məktəbi bitirdikdən sonra Paris şəhərində coğrafiya və jurnalistika fakültəsində ali təhsil almışdı.

Rəhmətulla xan Müqəddəm Marağeyi mədəni şəxsiyyətdən daha çox, siyasi bir şəxsiyyət sayılır. O, birinci İranlı şəxsdir ki, böyük yazıçı Sadiq Hidayətin Parisdə cənazəsi başında hazır olmuşdu. Parisdəki İran səfarətinin göstərişi ilə o, səhər tezdən 1951-ci aprel ayının 10-da görkəmli yazıçının cənazəsi başında bir fotoapartla hazır olur və bu faciəli hadisəni şəkilə çevirir. Rəhmətulla xan hələ Parisdə olarkən orada nəşr olunan jurnallarla əməkdaşlıq edirdi. Onun çəkdiyi şəkillər Sadiq Hidayətin cənazəsindən çəkilən yeganə şəkillərdir. Ola bilsin ki, Fransa polisinin də əlində bu cənazədən fotolar olsun. Lakin indiyədək bu ölüm otağından çəkilən şəkillər yalnız Rəhmətulla Müqəddəmin çəkdiyi fotolardır.

Rəhmətulla xan Müqəddəm İrana qayıtdıqdan sonra müxtəlif idarələrdə fəaliyyət göstərmişdi. O, 20-ci dövr məclis seçkilərində Miyandab şəhərindən nümayəndə seçilmişdi. Məclisdəki kəskin tənqidi çıxış və nitqləri ilə əhalinin marağına səbəb olmuşdu. Hətta Müsəddiq belə onun çıxışından öz razılığını bildirərək təşəkkür etmişdi. Nəhayətdə bu məclis şahın fərmanı ilə ləğv edilmişdi.

Rəhmətulla xan Müqəddəm Marağeyi İran xalqlarının milli azadlıq hərəkatında ön sıralarda mübarizə edən «Nehzəte-Radikali» (Radikal İran Hərəkati) təşkilatının katibi və «Kanune-nevisəndəqane-İran» (İran Yazıçılar Cəmiyyəti) müvəqqəti idarə heyətinin üzvü olmuşdu. Həmçinin «Cəımiyyəte-tərəfdare-azadi və hüquqe-bəşər» (Azadlıq və İnsan haqları müdafiə təşkilatı) İcraiyyə heyətinin üzvü idi. O, İran İslam İnqilabından sonra Şərqi Azərbaycanın valisi və həmin vilayətdən Konstitusiya layihəsinə baxış üçün Ekspertlər məclisinə nümayəndə seçilmişdi.

Rəhmətulla xan Müqəddəm bir ordu zabiti kimi Marağa şəhərində hərbi komendant vəzifəsində də xidmət etmişdi.

O, öz xatirə kitabında Marağa şəhərində həbsdə saxlanılan Azərbaycan Demokrat Firqəsinin üzvləri, xüsusi ilə Pişəvəri dövlətində rabitə naziri olmuş general Kəbiri haqqında öz mülahizələrini yazmışdı.

1978-ci ildə İran Yazıçılar Cəmiyyətinin birinci iclası Mühəndis Rəhmətulla Müqəddəmin iş ofisində keçirilərək, müvəqqəti icraiyyə heyəti seçildi. Bu yığıncaqda 90 nəfər şair, yazıçı, tərcüməçi və tədqiqat-

çıların imzası ilə açıq məktub baş nazir Cəmşid Amuzqara yazılaraq mətbuatda nəşr edilmişdir. Bu məktubda İran konstitusiyasında təsdiq edilmiş qələm və bəyan azadlığı hökumət məmurları tərəfindən qarşısı alınmasına məsələsinə işarə edilmişdir.

1978-ci ilin dekabr ayında Rəhmətulla xan Müqəddəmin vasitəsi ilə Radikal adlı partiya öz mövcudiyyətini elan etdi. Müqəddəm Marağeyi Şah rejimi ilə mübarizədə demək olar ki, öndə gedən şəxsiyyətlərdən olmuşdur. O, 1979-ci sentyabr ayında Jalə meydanında keçirilən mitinqə hökumət tərəfindən basqi olduqda Müqəddəm də bu mitinqdə iştirak etdiyi üçün tutuldu. Onun və iki nəfər başqa dostunun evlərinə polis tərəfindən bomba yerləşdirildi.

Ayətullah Xomeyni Parisdə olarkən Rəhmətulla xan onunla görüşür. Bu görüşdən belə nəticə çıxarır ki, Ruhulla Xomeyni bu inqilabı rəhbərlik etməyə qadir olan bir şəxsiyyətdi.

Rəhmətulla xan Marağei 1980-ci ildə Şərqi Azərbaycanın valisi vəzifəsinə təyin olundu. O, Ayətulla Şəriətmədarinin rəhbərliyi ilə təşkil olan Xalq Müsəlman partiyasıda Müqəddəm Marağeyi də o təşkilatın təsisçilərindən biri oldu. Bu səbəbdən Azərbaycan valiliyindən istefa verir.

O, sonralar konstitusiya layihəsinə baxış üçün Ekspertlər məclisinə seçilən nümayəndələrdən biri oldu.

Bu məclisdə iki nəfər nümayəndədən biri olan Müqəddəm vilayəti fəqih maddəsi ilə müxalifət etdi.

İnqilab məhkəməsinin hökmu ilə Müqəddəm Marağeyinin tutulmasına qərar verildi üçün o ölkəni tərk etməyə məcbur oldu. İnqilab məhkəməsi onun Amerika amili olmaq ittihamı ilə günahkar tanıdı.

Nəhayət 5 il vətəndən uzaqda yaşadıqdan sonra ölkəyə qayıdır və yaşının çox olduğunu nəzərə alaraq siyasi fəaliyyətdən uzaqlaşır.

Rəhmətulla Müqəddəm 1979-ci il inqilabından öncə bir neçə kitab o cümlədən, Tokvilin əsəri olan «Demokrasi dər Amerika» (Amerikada Demokratiya, 1968), «Seyre-Azadi dər Urupa» (Avropada Azadlıq prosesi,1967), «Nosazi-Camiə» (İctimaiyyəti yeniləşdirmək, 1971) «Xətabehaye-Sisron» (Sisron xətabələri,1962) və «Mokatibate-Qobino» (Qobino məktubları, 1971).

2007-ci il 88 yaşında olarkən 950 səhifəlik xatirə kitabı («Salhayi-böhrani-nəsli-ma») Tehranda «Elm» nəşriyyatında çap olunmuşdur. Bu kitab sənədlər baxımından çox dəyərli mənbə sayılır. İran və xüsusilə Azərbaycan tarixini öyrənmək üçün əhəmiyyətli kitab hesab olunur.

* * *

Rzaqulu ağa Cəfərqulu xan oğlu Müqəddəm 1828-ci ildə İ.F. Paskeviçdən Marağanın Rusiyaya birləşdirilməsini istəmişdi.

## HAQVERDİYEVLƏR

Bu soyun ulu babası **Mirzə Əli bəy Kəbirlidir**. Mirzə Əli bəy XVIII yüzilin ikinci yarısında yaşamışdı.

Mirzə Əli bəyin *Haqverdi bəy* adlı oğlu vardı.

**Haqverdi bəy Mirzə Əli bəy oğlu** Kəbirli elinin öz adı ilə adlanan obasında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı. İbrahimxəlil xan Sarıcalı-Cavanşirə xidmət etmişdi. Divanxanada katib vəzifəsində qulluqda idi. Xanın yaxın adamlarından sayılırdı.

Mirzə Haqverdi bəy gözəl xəttat idi.

Mirzə Haqverdi bəy Qarabağın adlı mülkədarlarından sayılırdı. Şuşa şəhərində imarətə, rəiyyətlərə, Kəbirli mahalında Mirzəhaqverdilər adlı obaya, Mərzili, Avşar obalarının bir hissəsinə, Vərəndə mahalında Ağbulaq adlı kəndə yiyələnmişdi.

Onun adı ilə bağlı Kəbirli mahalında «Mirzəhaqverdi kəhrizi» adlı yurd yeri vardı.

Mirzə Haqverdi bəy 1806-cı ildə İbrahimxəlil xanla bərabər güllələboran edildi[1].

Mirzə Haqverdi bəyin törəməsi **Haqverdiyev** soyadını daşıyırlar.

Mirzə Haqverdi bəyin *Məhəmmədkərim bəy, Əli bəy, Məhərrəm bəy, Rüstəm bəy* adlı oğulları vardı.

**Məhəmmədkərim bəy** Mirzə Haqverdi bəy oğlu təxminən 1779-cu ildə Şuşa şəhərində doğulmuşdur. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı. Mehdiqulu xan Sarıcalı-Cavanşirə xidmət etmişdi. Divanxanada katib vəzifəsində qulluqda idi. Xanın yaxın adamlarından sayılırdı.

Mirzə Məhəmmədkərim bəy xoşxət xəttat idi. O, 1846-cı ildə qəza məktəbində şəriət dərsi deyirdi.

Mirzə Məhəmmədkərim bəyin *Əbdürrəhim bəy, Əbdülkərim bəy, Əbdüləzim bəy* adlı oğulları vardı.

**Əbdürrəhim bəy** Mirzə Məhəmmədkərim bəy oğlu təxminən 1809-cu ildə Şuşa şəhərində dünyaya gəlmişdi. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əbdürrəhim bəy qəza idarəsində məmur işləmişdi.

Mirzə Əbdürrəhim bəyin *Əsəd bəy, Əbdülkərim bəy, Cahangir bəy* adlı oğulları vardı.

---

[1] Qarabağnamələr. 2-ci kitab. Bakı: «Yazıçı», 1991.



Əbdürrəhim bəy Haqverdiyev
Bakı, 19 aprel 1933

**Əsəd bəy** Mirzə Əbdürrəhim bəy oğlu təxminən 1831-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. İbtidai təhsilini atasından almışdı. Özəl təsərrüfatını idarə etməklə güzəran keçirirdi.

Əsəd bəy Hüsnücahan xanım Hacı Əhməd bəy qızı Mamayeva ilə ailə qurmuşdu. *Əbdürrəhim bəy* adlı oğlu vardı.

**Əbdürəhim bəy** Əsəd bəy oğlu 17 may 1870-ci ildə Şuşada bəy ailəsində anadan olub. 3 yaşı olanda atası Əsəd bəy vəfat edib. O, əvvəlcə əmisi Əbdülkərimin, sonra isə atalığı Həsənəli bəy Sadıqbəyovun himayəsi altında yaşayıb. Doğma səhərində real məktəbin altinci sinifini bitirib. Orta təhsilini Tiflisdə tamamlayan gənc Əbdürrəhim bəy 1891-ci ildə ali təhsil almaq üçün Peterburqa gedib, Yol Mühəndisləri İnstitutuna qəbul edilib. O, eyni zamanda, azad dinləyici kimi Peterburq Universitetinin Sərq fakültəsində dil və ədəbiyyata dair müzakirələrə qulaq asıb, müsəlman tarixi və mədəniyyəti ilə maraqlanıb. Əbdürəhim bəy Haqverdiyev ədəbi fəaliyyətə Şuşa real məktəbində oxudugu zaman başlamış, M.F.Axundzadənin təsiri ilə «Haci Daşdəmir» adlı kiçik bir pyes yazmışdı. Peterburqda təhsil alarkən onun bədii yaradıcılığa meyl və həvəsi daha da çoxalır. O, burada olarkən «Yeyərsən qaz ətini, görərsən ləzzətini» (1892) dramını və «dağılan tifaq» (1896) faciəsini yazıb. 1899-cu ildə Azərbaycana qayıdan Haqverdiyev bir müddət Bakıda yaşayıb. O, bir tərəfdən müəllimliklə məşğul olub, digər tərəfdən teatrlarda verilən tamasalara rejissorluq edib. Eyni zamanda bədii yaradıcılığını da davam etdirib: «Bəxtsiz cavan» (1900) və «Pəri cadu» (1901) faciələrini yazmaqla milli dramaturgiyanı ideya və poetik-sənətkarlıq baxımından daha da zənginləşdirib. 1906-cı ildə «Həyat» qəzetində hekayələr və “Molla Nəsrəddin” jurnalında gizli imzalarla felyetonlar, məzhəkələr çap etdirib. «Marallarım», «Xortdanın cəhənnəm məktubları», «Şeyx Şaban», «Xəyalat», «Ac həriflər» və sair əsərlərin müəllifidir.

Əbdürəhim bəy Haqverdiyev 1933-cü ildə Bakıda vəfat edib.

Əbdürrəhim bəy Tükəzban xanımla ailə qurmuşdu.



Əbdürrəhim bəy Haqverdiyev əzizləri ilə

Mirzə Əbdürrəhim bəyin ikinci oğlu **Əbdülkərim bəy** təxminən 1833-cü ildə Şuşa şəhərində dünyaya təşrif gətirmişdi. Cavan ölmüş əmisinin şərəfinə adlanmışdı.

Əbdülkərim bəy sonsuz vəfat edib.

Mirzə Əbdürrəhim bəyin üçüncü oğlu **Cahangir bəy** təxminən 1834-cü ildə Şuşa şəhərində anadan olmuşdu.

Cahangir bəyin *Murtuza bəy* adlı oğlu vardı.

**Murtuza bəy** Cahangir bəy oğlu təxminən 1866-cı ildə Şuşa şəhərində doğulmuşdu.

Mirzə Məhəmmədkərim bəyin ikinci oğlu **Əbdülkərim bəy** təxminən 1813-cü ildə Şuşa şəhərində dünyaya boy göstərmişdi. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əbdülkərim bəy Qarabağ qəza məhkəməsində katib vəzifəsində çalışmışdı. Kollec qeydiyatçısı mülki çini vardı.

Mirzə Məhəmmədkərim bəyin üçüncü oğlu **Əbdüləzim bəy** təxminən 1826-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Ibtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əbdüləzim bəy Cavanşir qəzasında murov köməkçisi vəzifəsində çalışmışdı. XII klass, quberniya katibi mülki çinləri vardı.

* * *

Mirzə Haqverdi bəyin ikinci oğlu **Əli bəy** Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əli bəy Şuşa şəhərinin qazısı olmuşdu. Şair idi. Xoştəb şeirlər yazırdı.

Tarixçi və təzkirəçi Mir Möhsün Nəvvab öz ünlü əsəri «Təzkireyi-Nəvvab»da yazırdı: «Mərhum Mirzə Əli Mirzə Haqverdi oğlu Qarabağ vilayətinin əhalisindəndir. Qarabağın Şuşa şəhərində birinci qazı olmuşdur.

Cənab xanlar xanı Mehdiqulu xan İbrahim Xəlil xan Cavanşir oğlunun xanlığı zamanı sağ idi. 1255-ci ildə vəfat etmişdir (miladi 1839/1840-cı il).

Tanınmış alim olub, tibb elmində də məharəti var idi. Deyilənə görə, hərdəm şeir də demişdir. Belə ki, bir gün hazırcavab və məzəli bir şəxslə öz evində oturub söhbət edirdi. Onun Zöhrə adlı bir kiçik qızı var idi, görkəmsiz. Söhbət vaxtı qız qapıdan içəri daxil olur. Bu vaxt onun çirkin sifətini görən Mirzə Əli bədahətən bu fərdi (beyti) söyləmişdir:

*"Əgər o, axıra qədər bu surətdə qalsa,*
*Bizim Zöhrəyə Müştəri tapılmayacaq"*[2].

Mirzə Əli bəyin *Əbülqasim bəy, Haqverdi bəy, Əhməd bəy, Yusif bəy* adlı oğulları vardı.

**Əbülqasim bəy** Mirzə Əli bəy oğlu təxminən 1803-cü ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əbülqasim bəy Şuşa şəhərinin qazısı olmuşdu.

Mirzə Əbülqasim bəyin *Salah bəy, Əli bəy, Məhəmməd bəy* adlı oğulları vardı.

**Salah bəy** Mirzə Əbülqasim bəy oğlu təxminən 1837-ci ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əbülqasim bəyin ikinci oğlu **Əli bəy** təxminən 1843-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əbülqasim bəyin üçüncü oğlu **Məhəmməd bəy** təxminən 1853-cü ildə Şuşa şəhərində dünyaya göz açmışdı. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

---

[2] *M.M.Nəvvab*. Təzkireyi-Nəvvab. Bakı, 1998.

Mirzə Məhəmməd bəy Şuşa şəhərinin dini işləri ilə ilgilənmişdi. Uzun müddət Gövhərağa məscidinin axundu olmuşdu.

Mirzə Əli bəyin ikinci oğlu **Haqverdi bəy** təxminən 1805-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı. Mirzə Haqverdi bəy Şuşa şəhərinin qazısı olmuşdu. Şair idi. Səfa təxəllüsü ilə incətəbli şeirlər yazırdı.

Tarixçi və təzkirəçi Mir Möhsün Nəvvab öz ünlü əsəri «Təzkireyi-Nəvvab»da yazırdı: «Mərhum Mirzə Əlinin oğludur ki, sabiqdə Şuşa qazisi idi. Mirzə Haqverdi ziyadə dəqiq və zərif bir vücud idi və əşarü kəlamından belə anlaşır ki, Şeyx Əttar və Şəms Təbrizi kimi böyük və fazil ədiblərin asari-cəlilələrindən feyzü kamalat əxz edib, onların tutduğu təriqü məsləkdə müdavimət edib şer deyərmiş və əşarının çoxusu fars dilində yazılıbdır»[3].

Mirzə Əli bəyin üçüncü oğlu **Əhməd bəy** təxminən 1807-ci ildə Şuşa şəhərində doğulmuşdu. Ibtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əhməd bəyin *Rzaqulu bəy, Əbdülkərim bəy, Əli bəy, İbrahim bəy* adlı oğulları, *Gövhər xanım, Bilqeyis xanım* adlı qızları vardı.

**Rzaqulu bəy** Mirzə Əhməd bəy oğlu təxminən 1833-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. şəhərində doğulmuşdu. Ibtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əhməd bəyin ikinci oğlu **Əbdülkərim bəy** təxminən 1845-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Ibtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əbdülkərim bəy sonra Şuşa qəza məktəbində təhsilini davam etdirmişdi. Məktəbi bitirdikdən sonra Bakı qəzasında ədliyyə işçisi, mirovoy posrednik, ədliyə pristavı vəzifələrində çalışmışdı.

Mirzə Əhməd bəyin üçüncü oğlu **Əli bəy** təxminən 1847-ci ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi. Ibtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əhməd bəyin dördüncü oğlu **İbrahim bəy** təxminən 1850-ci ildə Şuşa şəhərində dünyanı tanımışdı. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

İbrahim bəy 1920-ci ildə vəfat edib.

---

[3] *M.M.Nəvvab*. Təzkireyi-Nəvvab. Bakı, 1998.

Mirzə Əhməd bəyin qızı **Gövhər xanım** Şuşa şəhərində anadan olmuşdu. Gövhər xanım Mirzə Kərim bəy Məşədi Həsən oğlu Hacıyevlə ailə qurmuşdu. *Məhəmmədhəsən bəy, Məhəmməd bəy* adlı oğlanları, *Sara xanım, Rəxşəndə xanım, Məhbubə xanım, Həcər xanım, Əziz xanım, Qönçə xanım, Sultan xanım, Kübra xanım* adlı qizları vardı.

Mirzə Əhməd bəyin qızı **Bilqeyis xanım** Şuşa şəhərində anadan olmuşdu. Bilqeyis xanım Həsənəli bəy Vəlibəyovla ailə qurmuşdu. *Mahmud bəy* adlı oğlu, *Saray xanım, Sayalı xanım, Tərlan xanım, Alagöz xanım* adlı qızları vardı.

Mirzə Əli bəyin beşinci oğlu **Yusif bəy** təxminən 1820-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ibtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

* * *

Mirzə Haqverdi bəyin üçüncü oğlu **Məhərrəm bəy** Şuşa şəhərində şəhərində doğulmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı. Mehdiqulu xan Sarıcalı-Cavanşirə xidmət etmişdi. Divanxanada katib vəzifəsində qulluqda idi. Xanın yaxın adamlarından sayılırdı.

Mirzə Məhərrəm bəyin *Həsən bəy* adlı oğlu vardı.

**Həsən bəy** Mirzə Məhərrəm bəy oğlu təxminən 1818-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Həsən bəyin *Əliş bəy* adlı oğlu vardı.

**Əliş bəy** Mirzə Həsən bəy oğlu təxminən 1855-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. İbtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Əliş bəyin *Səlim bəy, Cəmil bəy* adlı oğulları vardı.

**Səlim bəy** Mirzə Əliş bəy oğlu təxminən 1875-ci ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi.

Mirzə Əliş bəyin ikinci oğlu **Cəmil bəy** 1882-ci ildə Şuşa şəhərində dünyanı tanımışdı.

Cəmil bəy 18 mart 1938-ci ildə repressiyaya uğramışdı.

* * *

Mirzə Haqverdi bəyin dördüncü oğlu **Rüstəm bəy** Şuşa şəhərində şəhərində anadan olmuşdu. Ibtidai təhsilini atasından almışdı. Sonra mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə adlanırdı.

Mirzə Rüstəm bəyin *Nəsir bəy* adlı oğlu vardı.

**Nəsir bəy** Mirzə Rüstəm bəy oğlu Şuşa şəhərində doğulmuşdu.

## *ŞƏCƏRƏ SÖHBƏTLƏRİ*

**Ə.Ş.Tahirzadə**

# MƏHƏMMƏDƏMİN RƏSULZADƏNİN SOYAĞACI HAQQINDA


Məhəmmədəmin Rəsulzadə. Bakı, 8 fevral 1914. (Şəkil ilk dəfə çap edilir).

İlk müstəqil Azərbaycan dövlətini qurumuş Azərbaycan Milli Şurasının sədri, Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanında (Parlamanında) aparıcı qüvvə olan Müsavat və bitərəflər fraksiyasının başçısı, Azərbaycanın istiqlal savaşını son nəfəsinədək mətinliklə aparmış Ulu Öndər, böyük dövlət xadimi və azman siyasətçi, görkəmli alim və əvəzolunmaz jurnalist Məhəmmədəmin Rəsulzadə haqqında çoxlu əsərlər yazılsa da, təəssüf ki, onun dəqiq soyağacını yaratmağa indiyədək ciddi təşəbbüs göstərilməyib. Doğrudur, bəzi kitab və məqalələrdə onun bir sıra qohumlarının adları çəkilib, ancaq Rəsulzadənin əcdadlarını müəyyənləşdirmək istiqamətində heç bir sistemli araşdırma ilə qarşılaşmırıq. Bu boşluğu doldurmaq üçün arxivlərimizdə araşdırmalar apardıq. Əldə etdiyimiz nəticələr əsasında qurduğumuz şəcərənin tamlığını iddia edə bilməsək də hazırladığımız materialın doğruluğuna tam əminik.

Soyların tarixinin aydınlaşdırılmasında ən etibarlı qaynaqların başında çar hökumətinin vergi yığmaq məqsədiylə tərtib etdirdiyi əyal dəftərlərinin (rusca ona «kameralnoye opisaniye» deyilir) durduğu bütün genealoqların qəbul etdiyi gerçəklikdir. Bu üzdən biz də ilk növbədə işə əyal dəftərlərini incələməkdən başladıq. Azərbaycan Respublikası Dövlət Tarix Arxivində (ARDTA) saxlanılan bu dəftərlərdən Rəsulzadənin özündən öncəki üç nəslini müəyyənləşdirə bildik.

“1832-ci ildə kollej qeydiyyatçısı Xotyanovskinin tərtib etdiyi Bakı əyalətinin əyal dəftəri”ndə[1] Novxana kəndi ailələri siyahısında 140-cı sırada bu adları oxuyuruq:

---
[1] ARDTA. F. 24. S. 1. İş 369. Vv. 138a–139.



140. Магомедъ Таги, Кербалай Али Экпера 30.
Братья его: 1й Магомедъ-Касимъ 20
2й Магомедъ Расулъ 12.
3й Али-Экперъ 6. 4.

1832-ci ilin əyal dəftərindən.

Məhəmmədtağı Kərbəlayı Əliəkbər oğlu 30 yaş [təx. 1802-də doğulub].

Onun qardaşları:

1) Məhəmmədqasım 20 yaş [təx. 1812-də doğulub];
2) Məhəmmədrəsul 12 yaş [təx. 1820-də doğulub];
3) Əliəkbər 6 yaş [təx. 1826-da doğulub].

Bunlar əkinçilərdir. İldə 2 manat 50 qəpik vergi ödəyirlər.

Sənəddə adı keçən ***Kərbəlayı Əliəkbər*** (bəzi qaynaqlarda ***Əkbər*** də adlandırılıb) soyun bizə bəlli ilk kişisidir. ***Məhəmmədtağı, Məhəmmədqasım, Məhəmmədrəsul*** və ***Əliəkbər*** onun oğullarıdır. 6 yaşlı Əliəkbərin, atasının adını daşımasının səbəbi, bizcə, budur ki, atası vəfat edərkən (təxminən 1819/20-ci ildə) o, ana boynunda olub, o üzdən də doğulunca ona atasının adı verilib. Ancaq sonrakı əyal dəftərlərində biz bu Əliəkbərin izini itirir, yerinə Məhəmmədrəsulun oğlu Əliəkbərlə (Məhəmmədəmin Rəsulzadənin atası) qarşılaşırıq. Dəftərlərdə adı ***Ağa*** kimi getmiş, hətta ölümünədək sənədlərdə bu cür ikili adla xatırlanan şəxsin sağ əmisinin adını daşıması, Azərbaycan adət-ənənələrinə uyğun olaraq, mümkün deyil; deməli, Kərbəlayı Əliəkbərin oğlu Əliəkbər 6 yaşından sonra ölüb və qardaşının adını yaşatmaq istəyən Məhəmmədrəsul yeni doğulmuş oğluna onun adını qoyub.

Tanış olduğumuz növbəti əyal dəftəri birincidən 31 il sonra – 1863-cü ildə tərtib edilib. «Bakı qəzası Maştağa nahiyəsi Novxana kəndinin əyal dəftəri» adlı bu sənəddə[2] 1832-ci il əyal dəftərindəki 4 qardaşdan yalnız 2-sinin övladları ilə tanış oluruq. Böyük qardaş Məhəmmədtağının adı bu siyahıya düşməyib; deməli, o, 1863-cü ilədək yaşamayıb və oğlu da olmadığına görə siyahıda xatırlanmayıb (qadınların adı müsəlman əyal dəftərlərinə salınmazdı). Kiçik qardaş Əliəkbər isə, artıq dediyimiz kimi, daha öncədən vəfat edib.

Bu əyal dəftərinin 442-ci vərəqində 39-cu (26-cı) yerdə qeyd olunmuş ***Məşədi Məhəmmədqasım Əliəkbər oğlu***'nun 54 yaşı olduğu göstərilib (bu hesabla o, təxminən 1809-cu ildə doğulmuş olur). 1832-ci ildə 20 yaşı olan Məhəmmədqasımın 31 ildən sonra (1863-də) 51 yaşı

[2] ARDTA. F. 10. S. 1. İş 131. Vv. 428–542.


شهادت نامه

۱۸۹۲

Hacı Molla Əliəkbərə verilmiş şəhadətnamə. 1892.

olmalı idi, halbuki burada 3 yaş çox göstərilib. Deməli, əyal dəftərlərindəki başqa yaşları da tam dəqiq saymaq olmaz – onlar gözəyarı müəyyənləşdirilib.

Məşədi Məhəmmədqasımın oğul övladları bunlardır:

| | |
|---|---|
| Məhəmmədrza | 26 yaş [təx. 1837-də doğulub]; |
| Hüseyn | 19 yaş [təx. 1844-də doğulub]; |

Məhəmmədhəsən 13 yaş [təx. 1850-də doğulub].

Təəssüf ki, bu oğulların törəmələrini əyal dəftərlərindən tapmaq mümkün deyil. Əldə başqa yazılı və şifahi bəlgə və bilgilər isə yoxdur.

Sözügedən əyal dəftərinin 531-ci vərəqində 307-ci (17-ci) yerdə qeyd olunmuş ***Hacı Molla Məhəmmədrəsul Kərbəlayı Əliəkbər oğlu***'nun adı qarşısında 44 rəqəmi yazılıb. Deməli, Hacının 44 yaşı var və təxminən 1819-cu ildə doğulub. Burada onun iki oğlu Ağa və Əbdüləzizin adları çəkilir, Ağanın 15, Əbdüləzizin 12 yaşı olduğu göstərilib; başqa sözlə, Ağa təxminən 1848-ci, Əbdüləziz isə təxminən 1851-ci ildə dünyaya gəliblər.

Bu ailənin adı qarşısına 5 ildən sonra – 1868-ci ildə belə bir qeyd artırılıb: «Bu ailə molla təyin edildiyinə görə Xəzinə Odasının sərəncamına əsasən vergiödəyənlər təbəqəsindən çıxarılıb. № 165/1868, maddə 2»[3].

Burada xüsusi vurğulanmalı məqam odur ki, adı çəkilən ***Ağa*** həm də 3-cü ***Əliəkbər***'dir – sonralar Bakı Ruhani Məclisinin üzvü olmuş, Məhəmmədəmin Rəsulzadənin atası ***Axund Hacı Əliəkbər***.

Bu gün əlimizdə Axund Hacı Əliəkbərlə bağlı bir neçə bəlgə var. Bunlar həm Hacının öz tərcümeyi-halına işıq saldığına, həm də Rəsulzadənin şəcərəsində yer almış insanlarla bağlı bəzi məqamlara aydınlıq gətirdiyinə görə tam mətnləri ilə oxucuları tanış etməyi faydalı sayırıq.

ARTA-dəki bir işdə[4] 3 bəlgə saxlanılır. «Bakı şəhəri Hacı Pirverdi prixodunun mollası Hacı Molla Əliəkbər Hacı Molla Məhəmmədrəsul oğlunun ərizəsinə binaən müşarileyhi axundluq dərəcəsinə imtahan etmək barəsində» adlı bu işdəki həmin bəlgələr Hacı Əliəkbərin axund dərəcəsi almaq üçün Tiflisdə imtahan vermək istəməsiylə bağlı bir yerə toplanıb.

İlk sənəd[5] türkcədir və Hacının siyasi baxımdan etibarlılığı haqqındadır:

*Verilir bu şəhadətnamə Bakı uyezdinin[6] Novxanı qəryəsinin[7] kədxuda və selski sudyaları[8] tərəfindən ol xüsusda ki, məzbur qəryənin camaatından Bakı şəhərinin sakini* ***Axund Hacı Molla Əliəkbər Hacı Molla Məhəmmədrəsul oğlu*** *şəxsdir rəiyyətzadə və təvəllüd tapıbdır atası* ***Hacı Molla Məhəmmədrəsul Kərbəlayı Əliəkbər oğlu***'*nun mənkuheyi-*

---

[3] ARDTA. F. 10. S. 1. İş 131. V. 531.
[4] ARDTA. F. 290. S. 1. İş 1113.
[5] ARDTA. F. 290. S. 1. İş 1113. V. 3.
[6] Qəzasının.
[7] Kəndinin.
[8] Kənd hakimləri.



2

شهادتنامه

**СВИДѢТЕЛЬСТВО.**

ویریلور بو شهادتنامه زاقافقاسنگ شیعه مذهب
مسلمانلارینگ ادارهٔ روحانیه‌سندن اولخصوصده که
باکو غوبرنیرسنینگ واویزدینک
نوخانی قریه‌سنک ساکنی
حاجی ملا علی اکبر (ملا آقا)
حاجی ملا محمد رسول اغلی
تولد ایدوبدر اوز صلبی آتاسی
حاجی ملا محمد رسول کربلای اکبر
اغلنک شرعی منکوحه‌سی خان پری
علیقلی قیزیندن و بو حالده تخمینا
قرخ بش سننده در و تولد
ایتمک ییلی و آیی و کونی معلوم دکلدر
فلهذا ادارهٔ روحانیه بو شهادتنامه‌نی امضا
ایدوب پادشاهلق مهریله ممهور ایتدی یازلدی
فورال آینک ۳ مجی کوننده ۱۸۹۲ مجی ایلده
تفلیس شهرینده نمره ۲۳۱
بوشهادتنامه‌دن اوتوز کپیک مارقه اداره‌یه
یتشوبدور صدر اداره امورات روحانیه شیخ-
الاسلام زاقافقاس

Дано сіе изъ Закавказскаго Шіитскаго Духовнаго Правленія въ томъ, что житель сел. Новханы, Бакинскаго уѣзда и губерніи Гаджи Молла Алекперъ (онъ же Молла Ага) Гаджи Молла Магомедъ Расулъ оглы родился отъ законнаго брака отца своего съ Ханъ Пери Али кули кызы и ему Гаджи Молла Алекперу въ настоящее время приблизительно, отъ роду сорокъ пять лѣтъ, годъ, мѣсяцъ и число его рожденія въ точности неизвѣстны. въ чемъ Духовное Правленіе подписью и приложеніемъ казенной печати удостовѣряетъ Февраля 3 дня 1892 года городъ Тифлисъ № 231. Гербовымъ сборомъ оплочено

Предсѣдатель Духовнаго Правленія, Закавказскій Шейхъ-уль Исламъ Ахундъ М. Т. Таировъ

Члены: Ахундъ Шахбазаде
Ахундъ Мовлазаде

Секретарь

03/09/2007

Hacı Molla Əliəkbərin (Molla Ağanın) doğum
şəhadətnaməsi. 3.2.1892.

*-şər'iyyəsi*[9] ***Xanpəri Əliqulu qızı****'ndan və heç vəqt podsud və islist təhtinə*[10] *düşməyibdir və əlavə, Hacı Molla Əliəkbər məzkur* ***Hacı Molla Ağa*** *adıyla daxı adlanır.*

*Bu şəhadətnamənin istehkamından ötrü onu məmhur edirik*[11] *tarix 25 yanvar səneyi 1892.*

*Kərbəlayı Niyaz vələdi-Məşədi Qoca – sudya*

*Hacı vələdi-Vəli – sudya*

*Kərbəlayı Ağaməli vələdi-Məşədi Məhəmmədəli*

*Kədxuda Cəfərqulu vələdi-Kərbəlayı Məhəmmədvəli*

*Yuxarıda adları sadalanan şəxslər savadsız olduğuna görə mən Molla İbrahim vələdi-Molla Şıxməhəmməd Bakulı onların yerinə qol çəkdim*[12].

Sənədə Bakı qəzası Novxana kənd məhkəməsinin və Bakı qəzası Novxana kəndi kəndxudasının möhürləri basılıb. Sənədə yapışdırılmış gerbli markanın altında rusca 4 fevral 1892-ci il tarixi yazılıb.

İkinci türkcə bəlgə[13] Hacı Əliəkbərin doğum şəhadətnaməsidir:

*Verilir bu şəhadətnamə Zaqafqasın Şiəməzhəb Müsəlmanlarının İdareyi-Ruhaniyyəsindən ol xüsusda ki, Bakı quberniyasının və uyezdinin Novxanı qəryəsinin sakini* ***Hacı Molla Əliəkbər (Molla Ağa) Hacı Molla Məhəmmədrəsul oğlu*** *təvəllüd edibdir öz sülbi atası* ***Hacı Molla Məhəmmədrəsul Kərbəlayı Əkbər oğlu****'nun şər'i mənkuhəsi* ***Xanpəri Əliqulu qızı****'ndan və bu halda təxminən qırx beş sinnindədir*[14] *və təvəllüd etmək ili və ayı və günü məlum deyildir.*

*Filhəzə İdareyi-Ruhaniyyə bu şəhadətnaməni imza edib padşahlıq möhürüylə məmhur etdi. Yazıldı fevral ayının 3-mcü günündə 1892-mci ildə Tiflis şəhərində. Nömrə 231.*

*Bu şəhadətnamədən ötrü gerbovaya marka idarəyə yetişibdir.*

*Sədri-İdareyi-Ümurati-Ruhaniyyə, şeyxülislam (Axund Mirzə Həsən Tahirovun qolu)*

*Üzvhayi-İdareyi-Ruhaniyyə*

*(Axund Mustafa Talıbzadənin qolu)*

*(Axund Hacı Məhəmmədhəsən Mövlazadənin qolu.)*

3-cü bəlgə[15] Ruhani İdarəsinə yazılmış farsca ərizədir. Aşağıda onun ana dilimizə çevirməsini veririk:

*«[18]92-ci il fevral ayının 4-də.*

*№ 910*

---

9 Şəriətlə nikahda olan arvadı.
10 Mühakimə və istintaq altına.
11 Möhürləyirik.
12 Bu cümlə farsca yazılıb.
13 ARDTA. F. 290. S. 1. İş 1113. V. 2.
14 Yaşındadır.
15 ARDTA. F. 290. S. 1. İş 1113. V. 1.

*Zaqafqaziya Şiəməzhəb Ruhani İdarəsinə*
*Bakı şəhəri Hacı Pirverdi məscidinin mollası Axund Hacı Molla Əliəkbər Hacı Molla Məhəmmədrəsulzadədən*

*ƏRİZƏ*

*Ərz edirəm ki, Ruhani İdarəsi hüzurunda duagu xahiş edirəm ki, özüm üçün axundluq ləqəbindən[16] ötrü imtahan verəm. Buna görə Novxana kəndi kəndxudasının tərtib etdiyi bir nəsəbnamə tuğrasını[17], Bakı qəzasının rəisinin 30 noyabrda verdiyi bəndənin xoşxasiyyət olması haqqında 5 saylı şəhadətnamə tuğrasını, təvəllüdüm haqqında Ruhani İdarəsinin fevral ayının 3-də iltifat buyurduğu 231 saylı şəhadətnamə tuğrasını icazənamədən ötrü bir ədəd marka ilə birgə İdareyi-aliyyə hüzuruna təqdim edərək kəmali-ehtiramla təvəqqe edirəm ki, Ruhani İdarəsi həqiri imtahanda yoxlasın, hərgah buraxılsam Ruhani İdarəsinin hüzurunda imtahanda bacarıqlı olacağam. Umudvaram ki, duagunu məyus etməyərək attestat tuğrasını iltifat buyuracaqsınız ki, məyus və məhrum olmayım.*

*1892-ci il fevral ayının 3-də.*

*Mən, Bakı şəhəri Hacı Pirverdi məscidinin mollası Axund Hacı Molla Əliəkbər Hacı Molla Məhəmmədrəsulzadə qol çəkdim».*

Bu sənədin arxasındaca rusca aşağıdakı məzmunda qeyd aparılıb:

**«C-b Tiflis valisinə, 5 fevral [1892-ci il], № 257.**

**Tiflis Valilik Şiə Məclisinə, № 261.**

4 fevral 1892-ci il. Zaqafqaziya Şiə Ruhani İdarəsi axund dərəcəsi almaq üçün imtahana buraxılmasını xahiş edən Bakı şəh. Pirverdi məscidinin mollası ***Hacı Molla Əliəkbər Hacı Molla Məhəmmədrəsul oğlu***'nun təqdim etdiyi bu ərizəyə və sənədlərə baxaraq və təqdim edilmiş sənədlərin ruhani dərəcəsi almaq istəyən şəxslərin imtahan verməsi qaydası haqqındakı təlimatın 3-cü §-ının tələblərinə uyğunluğunu təsdiqləyərək MÜƏYYƏN ETDİ: adı çəkilən Hacı Molla Əliəkbər xahiş etdiyi imtahana buraxılsın, bundan ötrü imtahan günü Ruhani İdarəsinin iştirakı ilə bu fevral ayının 8-inə təyin edilməklə c-b Tiflis valisindən həmin günə öz nümayəndəsini göndərməsi xahiş edilsin, iştirak üçün Tiflis Valilik Şiə Məclisinin heyəti dəvət edilsin.

Sədr, Zaqafqaziya şeyxül-islamı: Axund M[irzə] H[əsən] Tahirov

Üzvlər: [Axund Yusif] Talıbzadə

Axund Məhəmmədhəsən Mövlazadə

Katib: (qol oxunmur)»[18].

Hacı Əliəkbərin sonralar Bakı qəzası Ruhani İdarəsinin üzvü seçilməsi ona 1892-ci ildə axundluq attestatı verilməsini təsdiqləyir.

---

[16] Dərəcəsi.

[17] Sənədi.

[18] ARDTA. F. 290. S. 1. İş 1113. V. 1a.



Axund Hacı Molla Əliəkbərin Zaqafqaziya Ruhani İdarəsinə ərizəsi. 3.2.1892.

Bütün burayadək yazılanlardan Məhəmmədəmin Rəsulzadəyədək olan üç nəsil az-çox aydınlaşır. Bundan sonrakı nəsilləri isə Rəsulzadənin qohumlarından olan mərhum Aydın Hüseynzadənin «İstiqlal şairi Ümmügülsüm» (Bakı: «Çaşıoğlu», 2005) kitabına üstünlük verməklə bir sıra başqa qaynaqlardan dəqiqləşdirdik.

Əyal dəftərlərindən göründüyü kimi, Axund Hacı Molla Əliəkbər (Hacı Ağa) və Əbdüləziz qardaş olublar.

**Axund Hacı Molla Əliəkbər** (təx. 1847/1848 – 1926) iki dəfə evlənib. İlk yoldaşı ***Zinyət xanım Zal qızı***’ndan qızı ***Şəhrəbanı*** və oğlu ***Məhəmmədəmin*** (31.1.1884, Novxana / Bakı – 6.3.1955, Ankara) dünyaya gəlib. Zinyət xanım gənc yaşlarındaykən balalarını yetim qoyub. Hacının, ikinci yoldaşı ***Maral xanım***’dan (təx. 1867 – 1937) övladı olmayıb, ancaq



Ərizənin arxasındakı rusca qeydlər.

70 yaşında dünyasını dəyişmiş bu xeyirxah insan sonralar ərinin və qaynı Əbdüləzizin yiyəsiz qalmış nəvələrinə baxıb.

Şəhrəbanının ailəsi haqqında bilgimiz yoxdur. Məhəmmədəmin əmisi Kərbəlayı Molla Əbdüləzizin qızı ***Ümmülbanu*** (? – 1939) ilə ailə qurub və ondan 5 övladı olub: ***Lətifə*** (1912 –1943), ***Rəsul*** (1914 – 6.03.1938), ***Xalidə*** (1916 – 1943) və ***Azər*** (1920 – 9.07.1993) (bir övladları körpə ikən ölüb).

M.Rəsulzadə xaricə getdikdən sonra onun ailəsi hədsiz təqiblərə məruz qalıb. 6 noyabr 1937-də yoldaşı ***Ümmülbanu xanım***, analığı ***Maral xanım***, qızı ***Xalidə*** və oğlu ***Azər*** Qazaxıstana sürgün ediliblər. Maral xanım 1937-də, Ümmülbanu xanım 1939-da sürgündə dünyalarını dəyişiblər. Xalidə xanım 1943-də gizlicə Bakıya gəlib və üç ay sonra itkin düşüb.

Lətifə xanım kökcə Lahıc kəndindən olan Damad bəydə ərdəydi. ***Firuzə***, ***Eşvə*** (1933 –1943) və ***Sona*** (3 yaşında ölüb) adlı qızları olub. Bunların da başı olmazın müsibətlər çəkib. 1941-ci ildə Lətifə xanım iki qızı ilə sürgünə göndərilib və 1943-də 10 yaşlı qızı Eşvə ilə birgə aclıqdan və soyuqdan ölüb. Onun əri Damad da 1941-də həbs edilib, başına nə gəldiyi indiyədək bəlli deyil.

İlk oğlu Rəsul ailəsiylə birgə Qasım İsmayılov[19] küçəsindəki 129-cu evdə yaşayıb. O, 1926-cı ildə oxumağa başlayıb və 1933-də Bakıda 9 saylı orta məktəbi bitirib. Həmin il Maliyyə-İqtisad Texnikumuna girib və oranı 1936-da bitirib. Keçmiş maliyyə komissarı (naziri) Nəsir Tağıyev və həmin komissarlığın kadr bölümünün müdiri Abbas Sadıqovun tövsiyəsi ilə Biləsuvar Rayon Maliyyə Şöbəsinə yerli büdcə üzrə müfəttiş təyin edilib və orada işləməyə başlayıb. 1937-nin martında onu Xızı Rayon Maliyyə Şöbəsinə eyni vəzifəyə dəyişdiriblər. Noyabrda ailəsi sürgün edilib. 7 dekabrda onun həbs olunması üçün sənədlər hazırlanıb, ancaq nədənsə, bu həbs yalnız 15 yanvar 1938-ci ildə gerçəkləşdirilib. Tutuqlanmaya əsas: «Məhəmmədəmin Rəsulzadənin oğludur» və «əksinqilabi iş aparıb». Cəmisi iki dəfə dindirilib. Hər şey «sübut olunub» və Azərb. SSR XDİK Üçlüyünün qərarı ilə 1 mart 1838-ci il qərarı ilə 6 mart 1938-də 24 yaşında güllələnib, əmlakı da müsadirə edilib, yalnız 27 oktyabr 1989-cu ildə bəraət alıb[20].

İstintaq sənədlərindən aydın olur ki, təqib olunan Rəsulzadələr ailəsinə Bakı şəhərində rayon milis idarəsinin rəisi *Rzaqulu Əşrəfov* (1934-cü ilədək), Məhəmmədəmin bəyin bacanağı olan yazıçı *Seyid Hüseyn*, həkim *İsmayıl Balakişiyev* daim maddi və mənəvi yardım göstəriblər, həkim Balakişiyev onları həmişə pulsuz müalicə edib. Novxana kəndində isə ailəyə *Hacı Baloğlan* və *İsgəndər Hacı Nağı oğlu* böyük maddi köməklik göstərib, onları unla təmin ediblər[21]. (Əslində unla təmin etmək o illərdə ən ciddi yardım idi).

Məhəmmədəmin bəyin kiçik oğlu Azər bəy rəssamdı. O, sürgün yerindən vətənə dönməyib və ömrünün sonunadək Karaqandada yaşayıb. Azər bəyin cənazəsi Novxanaya gətirilərək burada babasının yanında dəfn edilib. O, Rəsulzadənin, ata yurdunda dəfn edilən yeganə varisidir.

---

[19] İndiki Zərgərpalan.

[20] Onun haqqında bax: Rəsulov Rəsul Məhəmmədəmin oğlunun ittihamı üzrə 2266 saylı iş. AP MTN Arxivi. PR–41424.

[21] AP MTN Arxivi. PR–41424. Vv. 14–15.

Azər bəyin oğlu, Azərbaycan Siyasi Repressiya Qurbanları Assosiasiyasının prezidenti ***Rəis bəy*** (1948) də tanınmış rəssamdır.

Məhəmmədəmin Rəsulzadənin ikinci həyat yoldaşı ***Leyla (Vanda) xanım***'dan (? – 5.1962) övladı olmayıb.

Hacı Molla Məhəmmədrəsulun oğlu, Axund Hacı Əliəkbərin qardaşı ***Kərbəlayı Molla Əbdüləziz*** (1851 – 1932) ***Ümleyla xanım***'la (? – 1917) ailə qurub. Üç övladları olub: ***Ümmülbanu*** (? – 1939), ***Məhəmmədəli*** (1882 – 1982) və ***Ümgülsüm*** (1900 – 1944).

*Ümmülbanu* Məhəmmədəmin Rəsulzadənin həyat yoldaşı idi.

Məhəmmədəli Raziyyə xanımla (? – 1979) evlənmişdi. ***Musa*** (? – 1942), ***Aydın*** (? – 1988) və ***Gündüz*** adlı üç oğulları olub.

Məhəmmədəli gənc yaşlarından siyasətlə maraqlanıb. O, Məhəmmədəminin ən yaxın silahdaşlarındandı. Müsavat Partiyasının qurucularındandır. 1919-da Azərbaycan Cümhuriyyəti Parlamanına üzv seçilmişdi. O da Türkiyəyə mühacirət edib. Orada da evlənib, ancaq uşaqları olmayıb.

Məhəmmədəli Rəsulzadə mühacirətə getdikdən sonra yoldaşı Raziyə xanımı uşaqları Musa, Gündüz və Aydınla birgə həbs edərək, sonra da Məhəmmədəminin ailəsinə qoşaraq Qazaxıstana sürgünə yollayıblar.

Kərbəlayı Molla Əbdüləzizin qızı ***Ümmügülsüm***[22] (1900–1944) məşhur yazıçı Seyid Hüseyn Sadıqzadəyə[23] (1887 – 6.1.1938) ərə gedib. 4 övladları olub: ***Oqtay*** (1921), ***Cığatay*** (1923 – 1947), ***Toğrul*** (1926 – 1995) və ***Qumral*** (1930 – 2010).

Ümmügülsüm məşhur şairə idi. Azərbaycanın istiqlalı mövzusunda yazırdı. 1937-də onun əri Seyid Hüseyn, 1938-də isə özü həbs edilib. Seyid Hüseyn güllələnib, Ümmügülsüm isə 8 il həbs alaraq sürgünə göndərilib, uşaqları başsız qalıb. Cığatay xəstələnərək 24 yaşında ölüb.[24] Seyid Hüseynin bacısı qızı Səyyarə xanım uşaqları öz himayəsinə götürüb və onlara doğma ana kimi baxıb. Bu qayğı sayəsində Oqtay Azərbaycanın xalq rəssamı, Əməkdar incəsənət xadimi, rəssam Toğrul da Əməkdar incəsənət xadimi olub. Qumral həyatını məşhur ziyalı Əlipaşa Səbur Hüseynzadənin oğlu, alim və yazıçı Aydın Hüseynzadə ilə bağlayıb.

1945-də sürgündən dönən Ümmügülsümü kommunistlər Bakıda yaşamağa qoymayıblar. Şamaxıya gedib və burada bir neçə ay yaşayaraq dünyadan köçüb.

Bu, Rəsulzadə soyunun indiyədək bəlli olan ən kamil tarixçəsidir.

---

[22] *Aydın Hüseynzadə*. İstiqlal şairi Ümmügülsüm. Bakı: «Çaşıoğlu», 2005.

[23] Haqqında bax: *Aydın Hüseynzadə*. Seyid Hüseynin pedaqoji fəaliyyəti və maarifçilik görüşləri. Bakı: «Maarif», 1991; *Qumral Sadıqzadə*. Son mənzili Xəzər oldu… (Tarixi-publisistik roman). Bakı: «Gənclik», 1991, II hissə, Bakı: «Boz oguz», 1998.

[24] Bacısı Qumral Sadıqzadə onun haqqında «Mənim nakam qardaşım» adlı sənədli romanını yazıb (Bakı: «Çaşıoğlu», 2002).

**Ə.Ş.Tahirzadə**

## AŞUROVLAR
## (Soyun tarixinə ötəri baxış)

Bakının və ümumən Azərbaycanın tarixində önəmli rol oynamış Aşurovların bizə bəlli kökü XVII yüzilin sonları – XVIII yüzilin başlanğıcına gedib çıxır. Soyad daşıyıcılarının ağızdan-ağıza dolaşan, ancaq doğruluğu şəxsən məndə şübhə doğurmayan[1] bilgilər əsasında hazırladığı soykötüyünə (nəsil şəcərəsinə) görə, bu soy **Aşur** adlı Bakı sakinindən başlanır. Həmin soykötüyündə adları keçən Aşur və oğlu **Ocaqqulu**'nun, Ocaqqulunun oğlu **Zamanqulu**'nun nəçi olduqları haqqında kimsə heç nə bilmir. Ancaq deyilənlərə görə, onların ən uzaq əcdadları belə bakılıdır və haradansa bura gəlmələri haqqında heç nə eşidilməyib.

Soyu bizə tanıdan ilk rəsmi sənəd Bakı şəhər əhalisinin 1832-ci ilə aid əyal dəftəridir[2] (rusca ona «kameralnoye opisaniye» deyilir). Çar hökuməti yenicə işğal etdiyi Azərbaycanda vergi toplamaq məqsədiylə əhalini ilk dəfə siyahıya aldıqdan sonra tərtib etdiyi, hamının ailəlikcə adbaad (qadınlardan başqa) qeydə götürüldüyü bu qalın dəftərlər indi ən güvənilən tarixi qaynaqlardandır. 1832-ci ilə aid əyal dəftərinin 165-ci vərəqində 104-cü nömrənin qarşısında yazılıb:

**Aşur Zamanqulu oğlu, 50.**

Oğulları: **1) Qasım, 25, 2) Qurban, 9**.

Adların qarşısındakı rəqəmlər kişilərin yaşını göstərir. Deməli, Aşur Zamanqulu oğlunun 50 yaşı var. 1832-dən 50 çıxdıqda **II Aşur**'un doğulduğu 1782-ci il alınır. Tarixçilər hər nəslin orta yaşını 25 il götürməklə bir əsrdə 4 nəslin dəyişdiyini qəbul edir. Bu hesabla Aşur Zamanqulu oğlundan qabaqkı 3 nəfərin orta yaşını 75 il saysaq və 1782-dən bu 75-i çıxsaq 1707 edər. Deməli, nəslin özülünü qoymuş I Aşur XVII yüzilin sonları – XVIII yüzilin lap başlanğıcında doğulub.

Əyal dəftərindəki rəqəmlərə söykəndikdə II Aşurun oğulları Qasım'ın təxminən 1807-də, Qurban'ın təxminən 1823-də anadan olduğu aydınlaşır.

1832-ci il əyal dəftərində kimin nə işlə məşğul olduğu və dövlət xəzinəsinə nə qədər vergi ödədiyi də dəqiq göstərilib. Aşur Zamanqulu oğlu arabaçıdır və ildə 5 manat vergi ödəyir[3].

Aradan 17 il keçdikdən sonra ruslar Azərbaycanda, o sıradan Bakıda əhalini yenə siyahıya alıblar. 1849-cu ilə aid dəftərində[4] II Aşur'un və

---

[1] *Aşurov Valeri Ağacavad oğlu*'nun (1950) tərtib etdiyi bu soykötüyü sənədlərə əsaslanmasa da orada başqa şəxslər haqqında verilmiş bilgilər sənədlərlə tam uzlaşır.

[2] ARDTA. F. 24. S. 1. İş 370.

[3] ARDTA. F. 24. S. 1. İş 370. V. 165.

onun böyük oğlu Qasım'ın adları yoxdur; deməli, artıq onlar Haqqın rəhmətinə qovuşublar. Bu dəftərdə 1175-ci nömrə altında iki nəfər göstərilib:

**Qurban Aşur oğlu, 30,**
**Cabbar Qasım oğlu, 20.**

Doğum tarixlərinə gəlincə, 1849-da Qurbanın 30 yaşı varsa 1819-da doğulmalıdır, halbuki öncəki əyal dəftərinə görə 1823-də anadan olub. (Aradakı «vur-tut» 4 illik fərq ozamankı hesablamaları nəzərə aldıqda çox da böyük deyil). Cabbar Qasım oğlunun doğumu isə 1829-a düşür.

17 ildə Aşur Zamanqulu oğlunun övladları artıq arabaçılığın daşını ataraq ticarətlə məşğul olmağa başlayıblar və əyal dəftərində də adları qarşısında «ticarətçi» yazılıb[5]. Doğrudur, bu gün əlimizdə onların ticarətinin həmin dönəmdə artış-enişini göstərən bəlgələr yoxdur, ancaq aradan onca il keçdikdən sonra onların Bakının hörmətli adamlarına çevrilməsi bu ticarətin yüksələn xətlə, özü də, sürətlə getdiyini təsdiqləyir.

Bakı şəhərinin 1860-cı ilə dair əyal dəftəri[6] artıq bugünkü Aşurovların nəsilcə və iqtisadiyyatca durumunun aydın cizgilərini verir (düz mötərizə içərisindəki doğum tarixlərini mən artırmışam):[7]

**1593. Hacı Qurban Aşur oğlu 40** [təx. 1820]
Oğulları: **Aslan 7** [təx. 1853]
**Malik 5** [təx. 1855]
**(Əli)isgəndər 2** [təx. 1858]
**1594. Cabbar Qasım oğlu 30** [təx. 1830]
Oğlu: **Hacıbaba** [təx. 1859]
Qardaşı: **Səməd 25** [təx. 1835]

II Aşurun oğlu Qurbanın artıq hacı olması onun ticarətinin yetərincə inkişaf etməsinin göstəricisidir, çünki o dönəmdə həccə getmək maddi baxımdan hər kişinin işi deyildi. Ancaq onun qardaşı Qasımın oğlanları Cabbar və Səmədin adları qarşısında dini ləqəbin yoxluğu onların hələ ağır ziyarətlərə getmək gücündə olmadığından soraq verir.

1873/1874-cü illərə aid növbəti əyal dəftəri[8] XIX yüzilin son rübündə Aşurovların soykötüyünü, şəcərəsini dəqiqləşdirmək baxımından daha önəmlidir. İki cilddən ibarət əyal dəftərinin ikinci cildində biz həm Hacı Qurbanın, həm də Məşədi Cabbar və Məşədi Səməd Qasım oğullarının varisləriylə tanış oluruq.

***

[4] ARDTA. F. 10. S. 1. İş 24.
[5] ARDTA. F. 10. S. 1. İş 24. V. 183.
[6] ARDTA. F. 10. S. 1. İş 80.
[7] ARDTA. F. 10. S. 1. İş 80. V. 397.
[8] ARDTA. F. 43. S. 2. İş 7214. Cild 2.

## HACI QURBAN (təx. 1823 – 1876-dan sonra) VƏ ÖVLADLARI

1873/1874-cü illərə aid əyal dəftəri Hacı Qurbanın ailəsi haqqında ən son və geniş bilgi verir. Onun oğullarının bitkin siyahısı buradadır. 2504-cü nömrədə oxuyuruq:

**Hacı Qurban Aşur oğlu 50** [təx. 1823]
Oğulları: **Aslan 22** [təx. 1851]
**Malik 18** [təx. 1855]
**(Əli)isgəndər 14** [təx. 1859]
**Əbdürrəhman 5** təx. 1868][9]

Ailə üzvlərinin ümumi sayı 9 nəfərdir (5 kişi, 4 qadın). Müsəlmandırlar, ticarətlə məşğuldurlar. Hacı Qurban 1876-cı ildən ailəsiylə Bakı şəhərinin 1-ci gildiya tacirləri siyahısına salınıb. O, Azərbaycanın bu ada layiq görülən ilk müsəlman tacirlərindəndi.

1-ci gildiya tacirlərin önəmli hüquqları vardı. Onlar dövlətin daxilində olduğu kimi, xaricində də həm topdan, həm də pərakəndə satışla məşğul ola, zavod və fabriklər, dəniz və çay gəmiləri ala, mundir geyə bilərdilər və bədən cəzasından azaddılar. Bundan başqa, onlar bank işiylə məşğul ola, sığorta kontorları saxlaya, istənilən məbləğdə özəl sazişlər bağlaya bilərdilər. Onların uşaqları dövlət idarələrində işə götürülürdü.

1-ci gildiya tacirlər imperator sarayına təşrif buyura, şəhər başçısı, palata iclasçısı, bank direktoru vəzifələrini tuta bilərdilər.

«Azərbaycan tarixi» kitabında yazılır: «Azərbaycan burjuaziyası Xəzər gəmi sahibləri içərisində mühüm yer tuturdu. Azərbaycanlı kapitalistlər: Hüseynovlar, Dadaşovlar, M.S.Manafov, H.Z.Tağıyev, Q.K.Aşurov[10], Rəsulovlar onların ən iriləri sırasında idilər. Ötən yüzilliyin sonunda bütün Xəzər ticarət donanmasındakı gəmilərin 44,4 faizi və bütün donanmanın yükgötürmə imkanlarının 42,1 faizi onlara məxsus idi»[11].

Əyal dəftərlərində qadınların adı, əsasən, yazılmır, çünki müsəlmanlar buna pis baxırlar. Bu üzdən də biz ailədəki 4 qadının kimlər (anası, yoldaşı, bacıları, yoxsa qızları?) olduğunu müəyyənləşdirə bilmirik.

---

[9] ARDTA. F. 43. S. 2. İş 7214. Cild 2. Vv. 496a–497.

[10] Hacı Qurbanın adı rusca qaynaqdan («Г[аджи] К[урбан] Ашуров»dan) götürülərək yanlış tərcümə edilib.

[11] Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı: «Elm», 2007; *Гусейнова Д.С.* Развитие морского транспорта, формирование кадров рабочих-моряков Азербайджана и их революционные выступления (90-е годы XIX в. – 1907). Автореферат канд. дисс. Баку, 1975. С. 21.

Siyahı nə qədər dəqiq görünsə də burada bir dolaşıq məsələ var. İş burasındadır ki, II Nikolayın 1903-cü il fərmanında (bu sənəd haqqında bir qədər sonra geniş danışılacaq) Hacı Aslanın qardaşları arasında **Malik'**in adı yoxdur, ancaq **Əliheydər'**in adı çəkilir. 1874–1903-cü illər arasında Malikin öldüyünü və Hacı Aslanın Əliheydər adlı sonbeşik qardaşının doğulduğunu düşünmək inandırıcı görünmür. Məncə, Malikin ikinci və gerçək adı Əliheydərdir, elə buna görə də çarın fərmanında «Malik» yerinə «Əliheydər» yazılıb. Yeri gəlmişkən, ağsaqqal Azər Məlikov da bu fikrimlə ortaqdır.



Əliisgəndər Aşurov –
Bakı Dumasının üzvü

İndi də Hacı Qurbanın oğulları haqqında.

**Hacı Aslan**'dan ayrıca, daha geniş danışacağıma görə onu sonraya saxlayıram.

1873/1874-cü illərə aid əyal dəftərindən təx. 1855-də doğulduğunu öyrəndiyimiz **Malik/Əliheydər Hacı Qurban oğlu** özündən sonra iki oğul qoyub gedib. Onun törəmələrinin, demək olar ki, hamısı bu gün ulu babalarını «Ağamalik» adlandırır və «Əliheydər» adından xəbərsizdir.

V.A.Aşurovun tərtib etdiyi soykötüyünə görə, Əliheydərin (sənəddə: «Ağamalik»in) oğlu **Əlihəsən** 1949-da dünyasını dəyişib və övladı qalmayıb. Əliheydərin nəsli onun ikinci oğlu **Kərbəlayı Əlihüseyn**'lə (1880–1934) davam edib.

Kərbəlayı Əlihüseyn əmisi Hacı Aslanın qızı **Hörmət xanım Aşurova** (1898 – 20.2.1952) ilə ailə qurub. Onların 3 oğlu olub.

**1) Ağamalik** (13.4.1922 – 10.10.1989). Onun ilk həyat yoldaşı Tuğra Mirzəyeva (1926 – 2001) qızı Hörmət'in (1956) anasıdır. İkinci xanımı Adilə Cəfərova'dan (1926 – 1993) isə 2 qızı olub: Afət (1959) və Zinyət (1961 – 1992).

**2) Ağarza** (15.10.1924 – 11.12.1987) inşaatçı mühəndisdi. Son zamanlar Bakı şampan zavodunun tikinti üzrə direktor müavini olub. Nurşərab Quluyeva (1926 – 2006) ilə ailə qurub. Övladları: İsmət (1952), **Aslan** (1955), İffət (1958), Əlihüseyn (1960), Ağa (1963).

**3) Ağacavad** (9.9.1927 – 5.1.1992) mebelçiydi. R.K.Juravlyova (1925 – 1996) ilə ailə qurub. Övladları: **Valeri** (1950), Əliağa (1954), Tamilla (1960).

Adı 1873/1874-cü illərə aid əyal dəftərində «İsgəndər» kimi verilmiş, ancaq bütün dövlət sənədlərində «Əliisgəndər» kimi yazılmış **Əliisgəndər Hacı Qurban oğlu Aşurov** (təx. 1859 – 1907-dən sonra) böyük qardaşı Hacı Aslandan sonra nəslin görkəmli nümayəndəsidir.

Ə.Aşurov həm ticarətdə, həm də siyasətdə səriştəli bir şəxs sayılırdı. Bunu onun ömür yoluyla qısa tanışlıq da təsdiqləyir.

Tanınmış Moskva tarixçisi, prof. Salavat İshakov AR Dövlət Arxivində görkəmli diplomat Ramiz Abutalıbov'un fondunda saxlanan sənədlər arasındakı bir məktubu Ağa Aşurova aid edərək «Ə.b.Topçubaşı. Şəxsi arxivlərdən sənədlər. 1903–1934-cü illər» kitabında nəşr etdirib[12]. Bu rusca məktub 16 dekabr 1903-də Əlimərdan bəy Topçubaşova yazılıb və imza «A.Aşurov» göstərilib. Bu imzanı «Ağa Aşurov»dan başqa «Aslan Aşurov», «Əliisgəndər Aşurov», «Əliabbas Aşurov» kimi də açıqlamaq olar, ancaq iş burasındadır ki: 1) məktub yazılanda Ağa Aşurov hələ orta məktəbin 5-ci sinfində oxuyurdu və bu məktubu onun yazması inandırıcı deyil; 2) Aslan Aşurov 1903-də artıq hacıydı və müəllif o olsaydı bu titulunu hökmən göstərərdi; 3) Əliabbas Aşurovun da Əlimərdan bəy Topçubaşova məktub yazması ehtimalı çox zəifdir. Bəs onda «A.Aşurov» kimdir? Məncə, məktubu yazan Hacı Aslan Aşurovun kiçik qardaşı Əliisgəndər Aşurovdur.

Məktubun məzmunundan müəllifin savadlı və elsevər bir şəxs olduğu, eyni zamanda «Xidmət» yoldaşlığında çalışdığı üzə çıxır. Bu yoldaşlıq bəlkə də Aşurov qardaşlarının ortaq qurduğu bir şirkətdi və ona Əliisgəndər Aşurov başçılıq edirdi. Bunu söyləməyə əsasımız da var: 9 fevral 1907-ci ildə yazılmış bir ərizənin sonunda Ə.Aşurov öz imzasını belə göstərib: «Bakıda "Aşurov qardaşları" ticarət evinin müdiri Əliisgəndər Aşurov»[13]. Tivarət evi müdirinin eyni qardaşların yoldaşlığını da dolandırması tam qanunauyğundur.

Aşurovlar soyunun doğma şəhərin idarə edilməsində mühüm xidmətləri olmuş 5 nümayəndəsindən biri də Əliisgəndər Aşurovdur. O, 1903–1906-cı illərdə Bakı Şəhər Dumasının üzvü olub.

Görkəmli araşdırıcı, mərhum Mövsüm Əliyev Ağa Aşurovun siyasi fəaliyyətə 1906-cı ildə Ümumrusiya müsəlmanları III qurultayında (16–21 avqust 1906, Nijni-Novqorod) iştirak etməklə başladığını yazıb[14] və

---

[12] А.М.Топчибаши: документы из личных архивов. 1903–1934 гг. / Сост., предисл. и прим. С.М.Исхаков. Москва: Социально-политическая мысль. 2012. С. 37.

[13] ARDTA. F. 389. S. 3. İş 2571. V. 25.

[14] *Mövsüm Əliyev*. Ağa Aşurov // «Odlar yurdu». Aprel 1990. № 7.

ondan sonrakı bütün müəlliflər heç bir dəqiqləşdirmə aparmadan bu fikri təkrarlayıblar[15]. Ancaq sənədlər həmin firkin yanlışlığını göstərir.

Müsəlmanların III qurultayının iştirakçısı Ağa Aşurov yox, onun əmisi Əliisgəndər Aşurov olub[16].

1905–1907-ci illərdə Rusiyada müsəlmanların siyasi hərəkatının zirvəsi Ümumusiya müsəlmanlarının III qurultayı oldu.

Adı keçən qurultay «müsəlman xalq partiyası proqramını» müzakirə etməyi özəl komissiyaya tapşırdı. Həmin özəl komissiyaya Əlimərdan bəy Topçubaşov, Alimcan Barudi, Hadi Maqsudi, Sədri Maqsudi, Şahmərdan Koşçequlov, Cahangir Bayburin, Şah-Heydər Sırtlanov, Cəmaləddin Xuramşin, Musa Bigi və başqaları kimi Rusiyanın ictimai-siyasi həyatında ad çıxarmış görkəmli şəxslərlə yanaşı, **Əliisgəndər Aşurov** da daxildi. Bütün Rusiya müsəlmanları içərisindən Ə.Aşurovun partiya proqramını hazırlamaq kimi məsul bir siyasi işə cəlb edilməsi həm onun savadından, həm də Rusiya müsəlmanları arasında yüksək nüfuzundan xəbər verir.

Hacı Qurbanın kiçik oğlu **Əbdürrəhman Aşurov**'un (təx. 1868 – ?) taleyi haqqında əlimizdə heç bir tutarqa yoxdur. Arxivlərdə onunla bağlı axtarışlarımız da nəticəsiz qaldı. Ola bilsin ki, o, ictimai həyatda heç bir iz buraxmadan gənc yaşlarında dünyasını dəyişib.

***

## QASIM AŞUR OĞLUNUN ÖVLADLARI

Bakı şəhər əhalisinin 1873/1874-cü illərə aid əyal dəftərində Hacı Qurbanın qardaşı Qasımın oğulları Məşədi Cabbar və Məşədi Səməd'in ailəsi haqqında ən sonuncu dəqiq bilgi verilib. Orada bunlar yazılıb:

**2511. Məşədi Cabbar Qasım oğlu 45** [təx. 1828]

Oğlu: **Hacıbaba 12** [təx. 1861][17]

Məşədi Cabbar ticarətçidir, 1877-ci ildən Bakı şəhərinin 2-ci gildiya tacirləri siyahısına salınıb. (Göründüyü kimi, burada «ailəsiylə» sözü yoxdur; deməli, 2-ci gildiya tacirlik yalnız onun özünə verilib).

**2512. Məşədi Səməd Qasım oğlu 40** [təx. 1833]

Səmədin arvadı: **Xədicə xanım** [təx. 1850][18]

---

[15] Məsələn, prof. S.İshakov da Ağa Aşurovu III Ümumrusiya müsəlmanlar qurultayının iştirakçısı adlandırıb; bax: А.М.Топчибаши: документы из личных архивов. 1903–1934 гг. / Сост., предисл. и прим. С.М.Исхаков. Москва: «Социально-политическая мысль». 2012. С. 37.

[16] Bax: *Dr. Necip Hablemitoğlu.* Çarlık Rusyasında Türk Kongreleri (1905–1917). Ankara: «Ankara Üniversitesi Basımevi», 1997. Səh. 216, 220.

[17] ARDTA. F. 43. S. 2. İş 7214. Cild 2. Vv. 498a–499.

Oğulları: **Əbdüləli** [təx. 1870]
**Hacıəli** [təx.1880]
Qızları: **Cavahir** 1869
**Həcər** 1873
**Zeynəb** 1882
**Tubu** 1884

Məşədi Səmədin oğlu, 2 yaşlı (1871-ci il doğumlu) **Əbdüləsəd**'in adı bu ümumi siyahıda deyil, həmin xanada başqa yerdə verilib. Qadınların adının və ailə üzvlərinin doğum illərinin göstərilməsi kimi gözlənilməz qeydləriylə seçilən bu siyahıdakı adamların taleyi, nə yazıq ki, tarixin qaranlıq dumanlarında qeyb olub. Onların sonrakı yaşamı haqqında heç nə bilmirik.

**Hacı Cabbar Qasım oğlu Aşurov (təx. 1828 – təx. 1903)**.

Əyal dəftərlərində adı «Məşədi Cabbar» kimi keçən Cabbar Qasım oğlu Bakı Şəhər Duması üzvlərinin 1886-cı ildəki siyahısında «Hacı Cabbar» kimi göstərilib[19]. Bakı şəhərində ictimai özünüidarə tarixini öyrənmək baxımından da maraq doğurduğuna və indiyədək heç bir tarixi əsərdə nəşr olunmadığına görə həmin siyahını aşağıda veririk, ancaq öncə qısa bir xatırlatmaya ehtiyac var.

Arxiv sənədləri adda-budda olduğuna görə Hacı Cabbarın Duma üzvlüyünün nə qədər çəkdiyi haqqında əlimizdə dəqiq bilgi yoxdur, ancaq onun bu görəvdə təxminən 10 il çalışdığını güman edə bilərik. 1895-dəki Duma üzvləri arasında Aşurovlardan yalnız Kərbəlayı Aslanı görürük[20].

Bakı Dumasının 30 iyun və 7 iyul 1887-ci il tarixli iclaslarında iştirak edəcək üzvlərin siyahısında Hacı Cabbarın adı qarşısında rusca və farsca «bağdadır» yazılıb[21]. Bu, onun bağının olduğunu göstərir; deməli, maddi durumu artıq yetərincə yaxşıymış.

Azərbaycan Respublikası Tarix Arxivində Hacı Cabbar Aşurovla bağlı bir sənəd də qorunur. Bakı Şəhər İdarəsinə 11 aprel 1888-də yazdığı ərizədə o, şəhərin 3-cü hissəsində yerləşən evinin həyətində daşdan tikiləcək yer evinin, talvar (saray) və ayaqyolunun planını təsdiqləməyi xahiş edir[22]. Yeri gəlmişkən, bu, onun adını oxuduğumuz ən sonuncu sənəddir. Vəfat tarixi bəlirsizdir, ancaq bunun 1903-cü ilə düşdüyünü güman edə bilərik.

Arxivlərdən Hacı Cabbarın oğlu **Hacıbaba Aşurov** (təx. 1861 – 1910-dan sonra) haqqında da bəlgələr əldə edə bildik. Bu sənədlər H.Aşurovun toplum həyatında nə qədər fəal olduğunu təsdiqləyir.

---

[18] Düz mötərizəsiz doğum tarixləri sənədin özündədir.
[19] Кавказский календарь на 1887 год. Тифлис, 1866. С. 41.
[20] Bax: Кавказский календарь на 1895 год. Тифлис, 1894. С. 131.
[21] ARDTA. F. 389. S. 1. İş 13. Vv. 91a, 95a.
[22] ARDTA. F. 389. S. 3. İş 1079.

Bakı şəhərinin idarə edilməsində müstəsna rolu olmuş Aşurovların tarixində 1904-cü il xüsusilə yaddaqalandır – həmin il onlardan üç nəfər eyni zamanda Bakı Şəhər Dumasının üzvü olub: Hacı Aslan Aşurov, Əlii-sgəndər Aşurov və Hacıbaba Aşurov[23].

Əlbəttə, Duma üzvü olması Hacıbaba Aşurovun bu dönəmdə Bakı əhalisi arasında yüksək nüfuz qazandığını göstərir. Onun Bakının sayılıb-seçilən kişilərindən biri olmasını bu fakt da təsdiqləyir ki, Qafqaz sərdarı (canişini) İ.İ.Vorontsov-Daşkov 10 sentyabr 1905-də Bakıya gələrək ermənilərlə müsəlmanları barışdırmaq istədiyi zaman tərəflər arasında danışıqlar aparmaqçün yaradılmış sülh məclisinə Bakının ən hörmətli şəxsləriylə birlikdə Hacıbaba Aşurov da seçilmiş[24] və danışıqlarda fəal iştirak etmişdi.

«Kaspi» qəzeti xəbər verir ki, 16 sentyabr 1905-də Hacıbaba Aşurov tanışı Məşədi Meydamla Bondarnı küçədən[25] öz evinə getmək istəyərkən yaxındakı çəkməçi dükanından erməni Yegişer Mnasakanyan onların üstünə cumub, behbudla Məşədi Meydamı yaralaya bilib. Bu vaxt onlara odlu silahdan atəş açılıb[26]. Bu qəsdin H.Aşurovun sülh danışıqlarındakı mövqeyi ilə bağlı olub-olmadığı bilinmir.

Görkəmli yazıçı Manaf Süleymanov məşhur «Eşitdiklərim, oxuduqlarım, gördüklərim» kitabında yazır: «Bakı böyüyür, inkişaf edirdi. 1906-cı ildə ağ neft fanarlarını elektrik çıraqları ilə əvəz edirlər. Hacıbaba Aşurov Kaspi (leytenant Şmidt) küçəsində[27] elektrik stansiyası tikdirib, küçələrə dirəklər basdırmaq üçün bələdiyyə idarəsi ilə müqavilə bağlayır»[28].

Hacıbaba Aşurov çox bacarıqlı, işyarıdan adamdı. Buna görə də o, 1907-də Duma deputatı kimi eyni zamanda iki önəmli quruma – Bakı Şəhər İdarəsinin torpaq şöbəsində qiymətləndirmə komissiyasına[29] və Mixaylov xəstəxanasında Təsərrüfat Komitəsinə üzv seçilmişdi[30].

1909-cu ildə Duma üzvləri arasında adının çəkilməməsi (orada Aşurovlardan yalnız Hacı Aslan qalmışdı) onun həmin illədək 5 il deputat olduğunu güman etməyə əsas verir.

Hacıbaba Aşurovun adını son dəfə oxuduğumuz bəlgə «Kaspi» qəzetindəki bir yazıdır. Əlibaxış Əhmədov adlı bir Bakı sakini redaksiyaya məktub yazır, oğurlanmış pullarının məbləğini dəqiqləşdirərək bildi-

---

[23] Кавказский календарь на 1905 г. Тифлис, 1904. С. 188.
[24] Bakı xəbərləri // «Həyat» qəzeti. 11 sentyabr 1905. № 63. Səh. 1.
[25] İndiki Şəmsi Bədəlbəyli küçəsi.
[26] «Каспий». 18.09.1905. № 181.
[27] İndiki Rəşid Behbudov küçəsi.
[28] *Manaf Süleymanov*. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı: «Azərnəşr», 1987. Səh. 21.
[29] Кавказский календарь на 1908 г. Тифлис, 1907. С. 108.
[30] Yenə orada. Səh. 109.



Hacı Aslan Aşurov

rir ki, mənzilimdən Şəmsi Əsədullayev'in vekseliylə 10.000 manat, Hacıbaba Aşurov'un vekseliylə 1.000 manat və Həsən Mirzəyev'in vekseliylə 200 manat oğurlanıb[31]. Xatırlatmaq yerinə düşər ki, 1910-cu ildə min manat böyük məbləğdi.

1910-cu ildə «Kaspi» qəzetində Peterburqda məscid tikintisinə yardım göstərən Azərbaycan dövlətlilərinin siyahısı verilib[32]. Bu siyahıda adı keçən Ağakazım Aşurov'un Aşurovların şəcərəsindəki yerini müəyyənləşdirə bilmirik, çünki onun haqqında əlimizdə başqa heç bir bəlgə yoxdur. Bu fakt göstərir ki, təqdim etdiyimiz şəcərə hələ tam deyil və ona əlavələr edilə bilər.

***

## HACI ASLAN AŞUROV (təx. 1853 – 1909)

Hacı Aslan Aşurovun adına ilk dəfə Bakı şəhərinin 1860-cı ilə aid əyal dəftərində rast gəlirik. Burada Hacı Qurban Aşur oğlu'nun ailə üzvləri içərisində onun 7 yaşlı böyük oğlu Aslan da qeyd olunub[33]. Bu hesabla Aslanın doğum tarixi 1853-ə düşür. Ancaq 1873/1874-cü ilə aid əyal dəftərində onun 22 yaşı olduğu göstərilib[34], belədə o, təxminən 1852-də doğulmuş olur. İlk bilginin daha doğru olacağını düşünərək doğum ili kimi 1853-ü götürürük.

Düzdür, ölüm tarixi haqqında da əlimizdə bəlgə yoxdur, ancaq Hacı Aslanın 1909-da dünyasını dəyişməsi daha inandırıcıdır. Bunu deməyə bir neçə ciddi tutarqamız var.

Hacı Aslan sənədlərdə 1886-cı ildən sadəcə «Aslan Aşurov»[35], 1888-ci ildən «Kərbəlayı Aslan Aşurov»[36], 1902-ci ildən «Hacı Aslan Aşurov»[37] kimi qeyd olunub.

Atası Hacı Qurban Aşur oğluna 1876-dan ailəlikcə 1-ci gildiya tacir imtiyazı verildiyinə görə Aslan Aşurov da, təbii ki, həmin ildən eyni

---

31 «Каспий». 6.07.1910. № 150.
32 «Каспий». 4.02.1910. № 27.
33 ARDTA. F. 10. S. 1. İş 80. V. 397.
34 ARDTA. F. 43. S. 2. İş 7214. Cild 2. V. 496a.
35 Кавказский календарь на 1887 г. Тифлис, 1886. С. 41.
36 Кавказский календарь на 1889 г. Тифлис, 1888. С. 137.
37 Кавказский календарь на 1905 г. Тифлис, 1904. С. 188–189.

tacirlik dərəcəsini daşıyırdı. Maddi imkanının genişliyi onun ailə qurmasında və sonrakı bütün işlərində rol oynayıb.

Hacı Aslanın övladları onun iki həyat yoldaşından doğulub. Birinci yoldaşı **Səadət xanım Hacı Dadaş qızı** öz qohumuydu. Ondan iki oğlu olub: **Əliabbas** və **Ağa**.

**Əliabbas**'ın (təx. 1880 – təx. 1934) ailəsindən tam məlumatsızıq. Özü haqqındasa bəzi diqqətədəyər bilgilər var.

Nəsillikcə fəxri vətəndaş, sahibkar Əliabbas Aşurov 1907-ci ildən sonra «Nəşri-maarif» cəmiyyətinin üzvü olub[38].

Ağa Aşurova Xarkov Texnologiya İnstitutu üçün arayış lazım olduqda onu 4 oktyabr 1910-da böyük qardaşı Əliabbas alaraq Xarkova göndərib[39].

Bakı Şəhər Duması 21 iyun 1916 tarixli iclasında şəhərin rayonları üzrə Ərzaq Himayəçilikləri üzvlərini seçib. Onlardan biri də 8-ci rayonda Karantinni küçədə[40] 32-ci evdə yaşayan Əliabbas Aşurovdur[41].

Ağa Aşurov isə hələ Almaniyada oxuyarkən orada alman qızı Anna'yla ailə qurmuşdu. Ərini ürəkdən sevən Anna onun istəyiylə müsəlman olaraq Anaxanım adını qəbul edib, öləndə də müsəlman qəbiristanlığında basdırılıb.

Ağa Aşurovun Anaxanımdan bir qızı və bir oğlu olub: **İzzət xanım** və **Süleyman**. Bu övladlar haqqında bilgi yox dərəcəsindədir, çünki onlar ata-analarıyla birgə Rostovda yaşayıblar və vətənlə əlaqələri çox zəif olub. İzzət Aşurova Rostovda həkimmiş. 1969-da oradan qohumu Ağarzaya məktub yazıb. Təəssüf ki, bakılı qohumlarda onunla bağlı heç bir sənəd qalmayıb. Süleyman və ailəsi haqqında da əldə heç nə yoxdur. Bilinən yalnız budur ki, vaxtilə tacirlik edib.

Azər Məlikovun sözlərinə görə, Hacı Aslanın ikinci arvadı Kirmanşah vilayəti valisinin qızı **Məşədi xanım**'dır. Həmin Məşədi xanımın qardaşı Əbdürrəhim Rzayev Bakıda yaşayıb. O, tacirmiş. 1941-də onu Şimali Qazaxıstana sürgün ediblər və 1942/43-də orada dünyasını dəyişib.

Hacı Aslanın Məşədi xanım'dan 5 qızı və 1 oğlu olub:

**1) Rübabə xanım; 2) Məşədi Suğra xanım (1891 – 1973); 3) Hörmət xanım; 4) Ağabacı xanım; 5) Kübra xanım (1902 – 1995); 6) Aslan.**

**1. Rübabə xanım** Bakı milyonçusu **Nəcəf Əmiraslanov**'un həyat yoldaşıydı. 4 övladları olub: Böyükxanım xanım – uzun illər Azərbaycan Tarixi Muzeyində və başqa muzeylərdə xəzinə müdiri olub; Nəsir; Qəmər xanım; Qüdrət xanım xalq artisti Möhsün Sənani'nin yoldaşıdır.

---

38 *Nüşabə Məmmədova*. «Nəşri-maarif» cəmiyyətinin yaranması və fəaliyyəti. Bakı: «Elm», 2005. Səh. 158.

39 XVDA. F. 770. S. 2. İş 82. V. 4.

40 İndiki Həzi Aslanov küçəsi.

41 Известия Бакинской Городской Думы. 1916. № 6–7. С. 7.



Kubra xanım Hacı Aslan qızı
(1902-1995)

**2. Məşədi Suğra xanım** (1891 – 1973) İçərişəhərli «Toyuqyeyənlər»dən sahibkar **Əliheydər Hacı Ağadadaş Zeynalov**'la (1876 – 1951) ailə qurub. Bu övladları olub:

1) İsmayıl (1904 – 1939). O, Leyla Əlipaşa qızı ilə evlənib. İki oğlu olub: İbrahim (heykəltaraş), Fuad.

2) İsrafil. İkinci dünya savaşında itkin düşüb. Subaydı.

3) Mikayıl (1918 – 1970). O, qardaşı İsmayılın dul arvadı Leyla xanımla evlənib, ondan oğlu Faiq və qızı Elmira doğulub.

4) Cəbrayıl (sürücü işləyib). Üç uşağı olub: Ayaz, Nailə, Aynur.

5) Ədilə xanım Zeynalova (1919 – 1999) – Azərbaycanın əməkdar həkimi, respublikanın baş ginekoloqu, tibb elmləri namizədi, Əzizbəyov adına doğum evində şöbə müdiri. Bir sıra məsul vəzifələrdə çalışmış Nazim Tarıverdiyev'in yoldaşıdır. N.Tarıverdiyev Güney Azərbaycanın tanınmış inqilabçısı Heydər xan Əmioğlu'nun (1880 – 1921) oğludur. İki oğlu olub: Akif, Kamran.

6) Zinyət xanım Əlizadə (1922 – 1998) – əməkdar elm xadimi, dilçi professor. Şərqşünas professor Mübariz Əlizadə (1911 – 1994) ilə ailə qurmuşdu. Övladları: Nüşabə (1943), Zərdüşt (1946), Araz (1951) və Lalə (1958).

7) Xədicə xanım (1924 – 2004) – onkoloq. Əri Məmməd Əliyev hüquq sistemində çalışıb, prokuror, hakim vəzifələrində işləyib. Üç oğlu olub: Natiq, Oqtay, Namiq.

8) Xanım xanım – orta məktəb müəllimi. Əri Musa Musayev mühəndisdi. İki oğlu olub: Ceyhun, Şahin.

**3. Hörmət xanım Aşurova** (1898 – 20.2.1952). Hacı Aslanın qardaşı Hacı Malik'in (Əliheydər'in) oğlu **Kərbəlayı Əlihüseyn Aşurov**'da (1880 – 1934) ərdəydi. Üç oğulları olub: Ağamalik (1922 – 1989), Ağarza (1924 – 1987), Ağacavad (1927 – 1992). (Bunların törəmələri haqqında bilgi almaq üçün 1-ci bölümdəki «Hacı Qurban və övladları» başlığına baxılsın).

**4. Ağabacı xanım**. Maştağalı məşhur ictimai xadim, Bakı Şəhər Dumasının üzvü **İbrahimpaşa Hüseynov**'da ərdəydi. Deyilənə görə,

İbrahimpaşa çox qoçaq, «qabağından yeməyən» adam olub; Bakı qubernatoruna şillə vuraraq Güney Azərbaycana qaçıb, Bakıya neçə ildən sonra qayıdıb. Onların 3 qızı və 2 oğlu dünyaya gəlib: Bəyimxanım xanım; Tələt; Zərifə xanım; Rauf; Firəngiz xanım.

**5. Kübra xanım** (1902 – 1995). **Məşədi Teymur Kəblə Həsənəli oğlu Məlikov**'da (1893 – 1971) ərdəydi. Məşədi Teymur Məlikov İçərişəhərdə, keçmiş Tverskoy (indiki Mirzə Mansur Mansurov) küçəsi 29-da – bu gün oğlu Azər Məlikov'un yaşadığı ikiqatlı ata-baba mülkündə doğulub. Onun babası Hacı Məlikməhəmməd və atası Kəblə Həsənəli çağının tanınmış tacirlərindən olublar. Onlar Azərbaycandakı ilk 2-ci gildiya tacirlərdəndir. Məşədi Teymur da ticarətlə məşğul olub.

Kübra xanımla Məşədi Teymurun aşağıdakı övladları olub: Cavahir xanım (1924 – 2010); Leyla xanım (1925); Sima xanım (1928 – 2007); Azər (1931); Rəhilə xanım (1935 – 1965); Səbirə xanım (1937); Kənan (1941 – 1945).

**6. Aslan**. Baksovetdə işləyib. Ali təhsilli olub. Təxminən 1932/33-də subaykən dünyasını dəyişib.

Bunlar Hacı Aslan Aşurovun ailəsi haqqında ən yığcam bilgidir.

***

Hacı Qurban 1876-cı ildən 1-ci gildiya rütbəsi daşıyırdı. O, atasının ölümündən sonra onun ticarətini daha da inkişaf etdirərək irəlilədib, qardaşlarıyla əl-ələ verərək «Aşurov qardaşları» Ticarət Evi'ni yaradıb, Bakıda gəmiçiliyin və gəmi təmirinin yüksəlişinə öz ciddi töhfəsini verib.

Hacı Aslanın mal-mülkü çox olub. Onun Bakıda imarətlərinin, neft mədənlərinin, dükanlarının, hamamlarının, dəyirmanlarının, Pirşağıda bağının, Saratovda da torpaqlarının və dəyirmanlarının olduğu deyilir. Bakı şəhərinin ikinci hissəsindəki Dar küçədə[42] zirzəmili ikiqatlı daş evini (1886)[43] və şəhərin gündoğan hissəsindəki Telefon küçəsində[44] dükanları olan ikiqatlı daş evini (1887)[45] memar Qafar İsmayılov layihələndirib.

Hacı Aslan Aşurovun Bakıda bir neçə hamamı olub. Onlardan birini – 1912-ci ildə tikilmiş və bu gün Bakının Yasamal rayonunda Sübhi Salayev küçəsi, 37-də yerləşən «Hacı Aslan hamamı»nı AR Mədəniyyət və Turizm Nazirliyi tarixi mədəniyyət abidəsi kimi qoruyub saxlamaqdadır (inventar nömrəsi: 3558).

Hacı Aslan Aşurov və onun ailə üzvləri Azərbaycan tarixinə başlıca olaraq gəmi sahibləri kimi düşüb. Onların gəmiçilik fəaliyyəti baçlıca olaraq neft məhsullarını daşımağa yönəlmişdi.

---

[42] Əski Poçt, indiki Süleyman Tağızadə küçəsi.
[43] ARDTA. F. 389. S. 3. İş 640.
[44] İndiki 28 May küçəsi.
[45] ARDTA. F. 389. S. 3. İş 874.

Hacı Aslanın və «Aşurov qardaşları» Ticarət Evinin «Nənə», «Aslan», «Lazar», «İsgəndəriyyə» adlı şxunaları (çoxyelkənli, iki dorlu gəmi), «Trud» («Əmək») adlı barkası olduğu sənədlərlə təsdiqlənib.

Hacı Aslan Aşurov və qardaşlarının Azərbaycan gəmiçiliyi tarixindəki ən böyük xidmətlərindən biri Bakı əhalisinin Bayılda sovetlər dönəmində «Paris kommunası» adına gəmi təmiri zavodu kimi tanıdığı ərazidə gəmi təmirindən ötrü ilk qurğuların, tərsanənin və iskələnin özülünü qoyan sahibkarlardan biri olmalarıdır.

Çar II Nikolay Aşurovlara Rusiya imperiyasının fəxri vətəndaşı fəxri adı verilməsi haqqında fərman verib. Aşurovların tarixi baxımdan mühüm önəm daşıdığına görə sənədi olduğu kimi öz tərcüməmdə təqdim edirəm.

«Tanrının mərhəmətiylə
Biz, İkinci Nikolay,
Bütün Rusiyanın İmperatoru və Təkağası,
Polşanın Çarı, Finlandiyanın Böyük Knyazı
və sair və sair və sair.

10 Aprel 1832-ci il Manifesti ilə fəxri vətəndaşlar zümrəsi müəyyənləşdirilib, orada onların hüquqları göstərilib. Bizim sadiq təbəəmiz, Bakılı ikinci gildiya tacir **Aslan Hacı Qurban oğlu Aşurov** təqdim etdiyi sənədlərlə nəsillikcə fəxri vətəndaşlıq hüququ olduğunu təsdiqlədiyinə görə həmin Aslan Hacı Qurban oğlu Aşurovu qardaşları **Əliisgəndər, Əbdürrəhman** və **Əliheydər Hacı Qurban oğlu Aşurovlar**'la birgə fəxri vətəndaşlar zümrəsinə yüksəldərək Mərhəmətimizlə buyururuq ki, onlar və onların törəmələri Manifestin həmin zümrəyə verdiyi bütün hüquq və üstünlüklərdən yararlansınlar. Bunun təsdiqi olaraq Biz Hökumət Senatına bu Fərmanı imzalamağı və Bizim dövlət möhürümüzlə möhkəmlətməyi buyurduq.

Sankt-Peterburqda 15 yanvar 1903-cü ildə verilib»[46].

Aşurovlar nəslinin Azərbaycanda çar dönəmində demokratiyanın ilk cücərtilərindən olan xalq özünüidarəsi sistemində müstəsna xidməti var. Bakının məşhur soyadları içərisində yalnız Aşurovlar Bakı Şəhər Dumasında 5 nəfər deputatla təmsil olunmağı bacarıblar! Bakının idarə edilməsində 1886-cı ildən 1918-ci ilədək – düz 32 il fasiləsiz çalışmış Aşur Zamanqulu oğlu nəslinin Dumadakı təmsilçiləri bunlardır:

**1) Hacı Aslan Hacı Qurban oğlu Aşurov (1886 – 1910);**
**2) Hacı Cabbar Qasım oğlu Aşurov (1886 – 1890);**
**3) Əliisgəndər Hacı Qurban oğlu Aşurov (1903 – 1907);**
**4) Hacıbaba Hacı Cabbar oğlu Aşurov (1904 – 1908);**
**5) Ağa Hacı Aslan oğlu Aşurov (1911 – 1918).**

[46] XVDA. F. 770. S. 2. İş 82. V. 11.

Aşurovların tarixində 1904-cü il xüsusilə unudulmazdır – həmin il onlardan eyni zamanda üç nəfər (Hacı Aslan Aşurov, Əliisgəndər Aşurov, Hacıbaba Aşurov) Duma kürsüsündə əyləşib! Bu şərəfli tarixin ən şərəfli yekunu, sözsüz ki, Ağa Aşurovun ilk müstəqil Azərbaycan Cümhuriyyətinin Parlamentində millət vəkili və hökumətində nazir kimi iştirakı, Azərbaycan dövlətçiliyinin ilk təməl daşlarının qoyulmasındakı misilsiz xidmətidir.

Aşurovlar soyunun Bakı Şəhər Dumasındakı ilk nümayəndələri Hacı Aslan və Hacı Cabbar Aşurovlardır. Bu iki əmioğlunun, özəlliklə Hacı Aslanın həm Dumada, həm də ümumən şəhər əhalisi arasında böyük nüfuzu vardı.

1894 və 1897-ci illərdəki seçkilərdə Aşurovlardan Dumaya yalnız Kərbəlayı Aslan Aşurov düşüb[47].

Dumaya 1901–1904-cü illər üçün keçirilən 7-ci seçkidə Hacı Aslan və onun kiçik qardaşı Əliisgəndər Bakı Şəhər Dumasında Aşurovları təmsil ediblər.

1904-də keçirilən 8-ci seçkidə (1904–1907-ci illərçün) əlamətdar hadisələr baş verdi. Bakı Dumasının tarixində ilk dəfə olaraq Aşurovlardan üç nəfər: Hacı Aslan, Əliisgəndər və Hacıbaba deputat mandatı qazandı.

1907-ci ildə Bakı Şəhər Dumasına növbəti seçkidə Hacı Aslan və Hacıbaba Aşurovlar yenidən Duma üzvü oldular.

1905-də Bakıda yerli əhalinin ermənilərə müqavimətini təşkil etmiş ən başlıca şəxslərdən biri Hacı Aslan Aşurovdu. Buna görə də ermənilər onu evinə bomba qoymaqla cismən məhv etmək istəmişdilər.

1905-ci il inqilabının sonucu olaraq Bakıda Müsəlman Xeyriyyə Cəmiyyəti yaranarkən onun özül daşını qoyanlardan biri Hacı Aslan Aşurovdur. Məhəmmədəmin Rəsulzadə (31.1.1884 – 6.3.1955) Xeyriyyə Cəmiyyətinin 10 illiyi münasibətilə «Açıq söz» qəzetinin 15 noyabr 1915 tarixli 35-ci sayında Hacı Aslan Aşurovu da hörmətlə anır.

XIX yüzil Azərbaycan ədəbiyyat və mədəniyyətində mühüm yer tutan Mirmöhsün Nəvvab (1833 – 1919) Hacı Aslan Aşurovun şəninə qəzəl janrında tərifli şeir (mədhnamə) yazıb. Qəzəldə onun qardaşları Əliheydər və Əliisgəndər'in də adlarını çəkməsi Nəvvabın bu ailəyə şəxsən bələd oldugunu göstərir. Hacı Aslanı «dinimizin hamisi», «səxavət mənbəyi» adlandıraraq ona ən qızğın alxışlar yağdırmasından aydınlaşır ki, müəllif Hacı Aslanın millət və din uğrunda fədakarlıqlarıyla, bu yolda gördüyü işlərlə yaxından tanışdır.

Hacı Aslan dünyasını dəyişdikdən sonra xalq üç gün onunla vidalaşıb. Onun dəfnində minlərcə insan iştirak edib. Ancaq bakılılar arasında o zaman geniş yayılmış ənənəyə əsasən, Hacı Aslan sərdabədə əmanət

[47] Вах: Кавказский календарь на 1895 г. Тифлис, 1894. С. 131.

basdırılıb. Sonralar onun oğlu Əliabbas atasının cənazəsini oradan götürərək Kərbəlaya aparıb və orada dəfn edib.

***

## AĞA AŞUROV (25.6.1886 – 1936)

Ağa Aşurovun dəqiq doğum tarixi şeyxülislamın verdiyi aşağıdakı şəhadətnamədədir:

«Zaqafqaziya Şiə Ruhani İdarəsindən ona görə verilib ki, Bakı şəhərinin sakini **Ağa Kərbəlayı Aslan oğlu Aşurov** öz atası **Kərbəlayı Aslan Hacı Qurban oğlu Aşurov**'un qanuni arvadı **Səadət xanım Hacı Dadaş qızı**'ndan miladi tarixin min səkkiz yüz səksən altıncı (1886) ilinə düşən hicri min üç yüz üçüncü ildə doğulub. Onun doğum ayı və günü bilinmir. Ruhani İdarəsi bunu qol çəkməklə və Xəzinə möhürünü basmaqla təsdiqləyir.

9 noyabr 1898-ci il**.** Tiflis şəhəri, № 2152…»[48].



Ağa Aşurov

Göründüyü kimi, burada doğum ayı və günü yoxdur, ancaq Ağa Aşurovun özü 25 iyun 1886-da doğulduğunu yazıb.

A.Aşurov 5–6 il evlərində molladan təhsil almış, Quranı əzbərləmiş, ana dilindən başqa fars və ərəb dillərinə də bələd olmuşdu. Ancaq orta təhsilini Bakıdakı real məktəbdə almışdı.

Orta təhsilini bitirdikdən sonra A.Aşurov ali təhsil almaq üçün Almaniyaya gedib. Darmştadt Böyükhersoq Ali Texniki Məktəbindən 30 may 1910 tarixində elektrotexnika ixtisası üzrə «diplomlu mühəndis» dərəcəli diplom alıb.

1910-cu ildə Almaniyadan vətənə dönən A.Aşurov Rusiya diplomu da almaq məcburiyyətində qalmışdı. Ona Xarkovda verilmiş diplomda oxuyuruq:

[48] XVDA. F. 770. S. 2. İş 82. V. 12.

«İmperator III Aleksandr adına Xarkov Texnologiya İnstitutu bununla elan edir ki, nəsil-likcə fəxri vətəndaş-lardan, 24 yaşlı, Məhəmmədiyyə dinli **Ağa Kərbə-layı**[49] **Aslan oğlu Aşurov** 1911-ci ildə mexanika bölməsi üzrə elmlərin tam kursunu fərqlənmə ilə bitirərkən İmta-han Komissiyasında sınağa çəkilib və Komissiya 24 may 1911-ci ildə ona texnoloq mühəndis adı verib, ona görə də Dövlət qulluğunda ştatlı texnik vəzifəsinə başlay-arkən onun X dərəcəli çində təsdiqlənmək hüququ var və ümumən Ru-siya İmperiyası qanunlarının texnoloq mühəndisə verdiyi bütün hüquq və üstünlüklərdən yararlana bilər. Bunun təsdiqi olaraq qol çəkilmiş və İnsti-tut möhürü basılmış bu diplom verilib.


Mühəndis Ağa Aşurov qızı İzzət xanımla

Xarkov, 17 iyun 1911-ci il, № 3175»[50].

1911-də ana yurduna – Bakıya dönən A.Aşurov «ali təhsilini qurta-randan sonra "Elektrik işığı" firmasında mühəndislik etmiş və orada mart 1917-nci ilə qədər olaraq Bakı şəhərinin "Elektrik işığı" nəzarətini də-röhdə etmişdir»[51]. Deməli, o, «Elektrik işığı» firmasının baş mühəndisi olub.

Aşurovlar soyunun sonuncu – 5-ci Duma üzvü Ağa Aşurovdur. Maraqlıdır ki, o, deputat seçilərkən hələ tələbəydi və Xarkovda oxuyur-du. 1911-ci ilin 31 martında Bakı Şəhər Dumasına keçirilən seçkidə Ağa Aşurov bu soyun Dumada yeganə üzvü olub.

1912–1913-cü illərdə A.Aşurov Şəhər İdarəsinin icra komissiyala-rından ikisinə seçilib: 1) Bakı-Şollar su kəmərinin çəkilişi üzrə komissiya

[49] Ağa Aşurovun doğum şəhadətnaməsində atasının adı bu cür yazıldığına görə diplomda da o cür verilib, halbuki Aslan Hacı Qurban oğlu 1902-dən hacıydı.

[50] XVDA. F. 770. S. 2. İş 82. V. 7.

[51] ARDA. F. 895. S. 1. İş 211. V. 23.


Ağa Aşurov həyat yoldaşı Anaxanımla

üzvlüyünə namizəd (5.2.1913)[52]; 2) elektrik komissiyasının üzvü (14.3.1912)[53].

1917-ci ilin oktyabrında Bakı Müsəlman İctimai və Siyasi Təşkilatları Komitəsindən Dumaya seçilən 15 nəfərdən biri də mühəndis, Bakı Şəhər İdarəsinin üzvü Ağa Aşurovdu. Şaumyanın başçılıq etdiyi Bakı Soveti hökuməti 20 aprel 1918-də özünün son rəqibi olan Dumanı da ləğv edərək Bakıda hakimi-mütləqə çevrildi. Dumanın fəaliyyəti bir də Azərbaycan Cümhuriyyətinin paytaxtı Bakıya köçürüləndən sonra bərpa edildi.

Bakı Şəhər Dumasının üzvü olduğu dönəmdə Ağa Aşurov bir şox ictimai işlərdə də yaxından iştirak edib. Onların içərisində özü yalnız bunları göstərib: «1912-nci ildən bəri müddətində Bakı "Nəşri-maarif" cəmiyyəti rəisi vəzifəsini görsədir, şimdi də Bakı fəxri sülh hakimi vəzifəsini»[54].

«Nəşri-maarif» cəmiyyəti 10 noyabr 1906-da Bakı Şəhər Dumasının yeni zalında təntənəli şəkildə açılıb. Ağa Aşurov 1912-dən bu cəmiyyətə sədr müavini, sonralar sədr seçilib. Dumadakı işlərinin gərginliyinə baxmayaraq o, cəmiyyətin də işlərinin bütün ağırlığını öz çiyinlərinə götürüb. «Kaspi» qəzetinin 1917-nin oktyabrında yazdığına görə, A.Aşurov «Nəşri-maarif»in sədrliyindən istefa vermək istəsə da «yığıncaq Aşurovun qəti bəyanatına baxmayaraq, onun məhsuldar əməyini nəzərə alaraq istefasını qəbul etmədi»[55]. Beləliklə, «Nəşri-maarif» cəmiyyətinin sonunadək Ağa Aşurov ona başçılıq edib.

1918-in mayında Azərbaycan öz müstəqilliyini elan etdikdən və dövlət orqanları iyunda Gəncəyə köçdükdən sonra baş nazir Fətəli xan Xoyski (1875 – 1920) özünün 2-ci kabinetində (16.06.1918 – 07.12.1918) iki nazirliyi: Ticarət və Sənaye Nəzarətini[56] və Ərzaq Nəzarətini Bakı

---

[52] Известия Бакинской Городской Думы, 1914. № 2. С. 177.
[53] Известия Бакинской Городской Думы, 1914. № 2. С. 181.
[54] ARDA. F. 895. S. 1. İş 211. V. 23.
[55] «Каспий». 17(30).09.1917. № 207.
[56] O dönəmdə nazirliyə «nəzarət» deyilirdi.



Ağa Aşurov Parlament iclasında

Şəhər Dumasında illərcə birgə çalışdığı və dövlətçilik təcrübəsinə arxayın olduğu Ağa Aşurova etibar etmişdi.

Burada Osmanlı – Azərbaycan münasibətləri tarixinə işıq salacaq və indiyədək heç yerdə basılmamış çox dəyərli bir bəlgəni arxivlərimizdən götürərək ilk dəfə oxuculara təqdim edəcəyəm. Bu, ticarət və sənaye naziri Ağa Aşurovun da imzaladığı Osmanlı – Azərbaycan müqaviləsidir. Doğma Türk dilimizdə yazılmış bu sənədi əski əlifbadan çağdaş əlifbamıza çevirərək nöqtə-vergülünə toxunmadan bütünlüklə verirəm:

«Nömrə 8

1. Azərbaycan hökuməti hökuməti-Osmaniyyənin dəmiryollar və mərakibi-bəhriyyəsi və sair ehtiyacatı üçün lazım olan neft və bu mayenin hər növ müstəhsəlatını Bakı petrol mənbələrindən təmin və əta etməyi təəhhüd edir.

2. Birinci maddənin tarixi-tətbiqi Bakı və ətrafındakı petrol mənbələrinin Azərbaycan hökuməti təhti-təsərrüfünə keçəcəyi gündən etibarən bəda edəcəkdir[57].

3. Neft və hər növ müstəhsəlatın fiyatı və şəraiti-fiyyəsi dövləti-əliyyeyi-Osmaniyyə ilə Azərbaycan dövləti arasında [1]334/4 həziran[58] tarixində Batumda əqd olunan müahidə mövcibincə məhfuz bir komisyon tərəfindən təyin olacaqdır.

[57] Başlayacaqdır.
[58] 4 iyun 1918-ci il.

4. Azərbaycan hökuməti tərəfindən hökuməti-Osmaniyyəyə birinci maddə mövcibincə əta olunacaq məhruqatın bir hissə məhsubən əsgəri dəmir yollar və limanlar müdiriyyəti-ümumiyyəsi Osmanlı orada nəqdiyyəsi olaraq beş yüz bin Osmanlı lirəsini sürəti-mümküniyyətlə Dərsəadətdən cəlb və avans olaraq Azərbaycan dövlətinə tədiyyə eləməyi təəhhüd edir.

5. İşbu müqavilənamə [1]334/14 temmuz[59] tarixində Gəncədə nüsxəteyn[60] olaraq tənzim edilmiş və bir tərəfdən dövləti-əliyyeyi-Osmaniyyə əsgəri dəmir yollar və limanlar müdiri-ümumisi İsmayıl Həqqi paşa və digər tərəfdən Azərbaycan dövləti ticarət və sənaye naziri Ağa Aşurov tərəfindən imza edilmişdir.

İsmayıl Həqqi Ağa Aşurov»[61].

Azərbaycan Cümhuriyyəti hökumətinin 6 təşrini-əvvəl (oktyabr) 1918 tarixli iclasında Heyəti-vükəla rəisi (baş nazir) Fətəli xan Xoyski Ağa Aşurova poçt və teleqraf naziri kürsüsünü tapşırdı.

A.Aşurov 15 oktyabr 1918-də 57 saylı əmriylə Zeynal bəy Əlizadə'ni nazir yanında özəl tapşırıqlar üzrə məmur təyin edib[62]. Bu, Azərbaycan Cümhuriyyətinin ilk poçt markalarının, orden və medallarının eskizlərini verən və sonra Cümhuriyyət hökumətinin İtaliyaya ali təhsil almağa göndərdiyi həmin Zeynal bəydir. Beləliklə, Azərbaycanın ilk poçt markaları A.Aşurovun nazirliyi dönəmundə hazırlanıb.

1 dekabr 1918-də Bakı şəhəri müsəlman əhalisi nümayəndələrinin Azərbaycan Parlamentinə seçkiləri üçün Bakı Şəhər Duması müsəlman deputatlarının keşirdiyi iclasda Ağa Aşurov məbus (deputat) seçilib[63]. Azərbaycan Məclisi-Məbusanı 16 dekabr 1918 tarixli iclasında onu deputat kimi təsdiqləyib. O, Parlamentin ən fəal üzvlərindən biri olub, bütün dövlət əhəmiyyətli məsələlərin müzakirəsinə qatılaraq öz fikrini bildirib və çoxlu təkliflər verib, Cümhuriyyətimizin müstəqilliyinə qarşı çıxan Əliheydər Qarayevlərə qarşı savaş açıb.

Parlamanın 23 oktyabr 1919-cu il tarixli 87-ci iclasında Parlamanda heç bir partiya və fraksiyaya qoşulmadan bitərəf fəaliyyət göstərən 7 deputat (Fətəli xan Xoyski, Ağa Aşurov, Mirzə Əsədullayev, Əsədullah Əhmədov, Baxış bəy Rüstəmbəyov, Ağa bəy Səfərəliyev və Yusif Əhmədov) «Müsavat» fraksiyasına qoşulmağı qərara alaraq «Müsavat və bitərəflər» fraksiyası yaradıblar[64].

---

[59] 14 iyul 1918-ci il.
[60] İki nüsxə.
[61] ARDA. F. 970. S. 1. İş 10. V. 59.
[62] Yenə orada. V. 19a.
[63] ARDA. F. 895. S. 1. İş 204. V. 42.
[64] ARDA. F. 895. S. 1. İş 99. V. 3a.

Parlamentin 27 aprel 1920-ci ildəki 145-ci – son iclasında hakimiyyəti bolşeviklərə vermək haqqında məsələ səsə qoyulan zaman Ağa Aşurov bu təklifin əleyhinə çıxan yeganə deputat olub.

1920-ci ildən sonrakı həyatı Rostov şəhərində keçib.

Bunlar Aşurovlar soyu haqqında bir məqalədə verə biləcəyimiz ən qısa bilgidir.

# *ŞƏCƏRƏ OÇERKLƏRİ*

**O.Z.Məmmədov (Baharlı)**

## MİRZƏ VƏLİ BƏY VƏ ONUN NƏSLİNİN TANINMIŞ ÖVLADLARI

Azərbaycanın qədim türk tayfalarından sayılan baharlılar dünyanın hər tərəfinə yayılmış, öz adları ilə ərazilər yaratmışlar. Müasir dövrdə Azərbaycandan başqa Türkiyədə, Türkmənistanda, İranda Baharlı adlanan ərazilər vardır. Bu gün baharlıların türbələri Hindistana gələn on minlərlə turistin ziyarət etdikləri məkanlar sırasındadırlar. Baharlıların Hindistanda tikdirdikləri məscidlər hər zaman dünya müsəlmanlarının ibadət yerləri sayılmışdır. Baharlılar müxtəlif tarixi dövrlərdə görkəmli şəxsiyyətlər yetirmiş, dövlət, elm, mədəniyyət xadimləri ilə tanınmışlar. Onlar Azərbaycan, ümumiyyətlə, Şərq tarixində dərin iz qoymuşlar. Qaraqoyunlu, Qütbşahlar kimi qüdrətli dövlətlərin qurucuları baharlılardır.

XVIII əsrdə Qarabağda yaşamış Baharlı tayfasının görkəmli nümayəndələrindən biri Mirzə Vəli bəy Baharlıdır. Atam – AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədov Mirzə Vəli bəy Baharlının nəslinin tanınmış övladlarından biridir. Mirzə Vəli bəy Baharlı və onun nəsil şəcərəsi haqqında əksər məlumatlar vaxtilə atamla apardığım söhbətlərə istinadən qələmə alınmışdır. Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan müxtəlif illərdə Şuşada, Baharlı kəndində aparılmış bəylərin siyahıya alınması sənədlərindən, eləcə də ayrı-ayrı salnamələrdə baharlılara aid yazılmış tarixi hadisələrdən və faktlardan da istifadə olunmuşdur.

Mirzə Vəli bəy Baharlının XV əsrdə yaşamış ulu babası Əlişəkər bəy Baharlı yaxın qohumu Qaraqoyunlu hökmdarı Cahanşahın hakimiyyəti dövründə uzun illər Həmədan hakimi olmuşdur[1].

Mirzə Vəli bəyin sələflərindən sayılan I Şah İsmayılın zamanında Bəlxin valisi olmuş Əmir Məhəmməd bəy Baharlı, I Şah Təhmasibin və onun oğlu II İsmayılın yaxın tərəfdarı Xan Vəzir bəy Baharlı, Böyük Moğollar Dövlətinin hökmdarı Əkbər şahın atabəyi olub, ölkəni 4 il müstəqil idarə etmiş, eyni zamanda incə ruhlu şair Bayram xan Baharlı, dövlət xadimi olmaqla yanaşı türk, fars, hind dillərində şeirlər yazmış oğlu Mirzə Əbdürrəhim xan, şair, xəttat, musiqişünas Həsən bəy Şəkəroğlu (Müqimi) Əlişəkər bəy Baharlının layiqli övladlarındandırlar[2].

---

[1] Qızılbaşlar tarixi / Tərcümə və şərhlər M.Ə.Məhəmmədinindir. Bakı, 1993. Səh. 22.

[2] Qızılbaşlar tarixi / Tərcümə və şərhlər M.Ə.Məhəmmədinindir. Bakı, 1993. Səh. 23; *Məhəmmədəli Tərbiyət*. Danişməndani-Azərbaycan / Tərcümə edənlər:

Mirzə Vəli bəyin atasının adı Bayramxan bəydir. Bayramxan bəy Abdulla xan oğlu Baharlı Qarabağ xanlığının qurucusu Pənahəli xanın zamanında xanlığın hörmətli insanlarından sayılmışdır. Atası kimi Mirzə Vəli bəy Baharlı da Pənahəli xanın və İbrahimxəlil xanın hakimiyyətləri illərində nüfuz sahibi olub xanlığın ictimai-siyasi, mədəni həyatında yaxından iştirak etmişdir[3].



Məhəmmədəli bəy Məşədi Əsədulla bəy oğlu Vəlizadə «Məxfi» (1821–1892).
*Şəkil AMEA Əlyazmalar İnstitutundan götürülmüşdür*

Mirzə Vəli bəy Baharlının həyatı və yaradıcılığı haqqında təəssüf ki, əlimizdə kifayət qədər məlumat yoxdur. Qarabağın tarixinə aid yazılan salnamələrdə onun həyatı və diplomatik fəaliyyəti haqqında müxtəsər də olsa məlumat verilmişdir. Mirzə Vəli bəy Baharlının Süleyman bəy adlı kiçik qardaşı da olmuşdur.

Bir sıra tarixi faktları müqayisə edərkən belə ehtimal etmək olar ki, Mirzə Vəli bəy Baharlı təqribən 1725-ci ildə anadan olmuşdur. Qeyri-adi istedada malik Mirzə Vəli bəy mükəmməl mədrəsə təhsili almış, ərəb, fars dillərini bilmişdir. Şəriət elmlərinin gözəl bilicisi olan Mirzə Vəli bəy Baharlı eyni zamanda incə ruhlu şair kimi də tanınmışdır. Rəvayətə görə, Molla Pənah Vaqif saraya Mirzə Vəli bəy Baharlının təklifi ilə dəvət edilmişdir[4].

Gənclik illərində Mirzə Vəli bəy Baharlı Qarabağ xanlığının qurucusu Pənahəli xanın sarayında xidmət etmişdir. O, Pənahəli xanın etibar etdiyi, güvəndiyi saray əyanlarından idi. Pənahəli xan Kərim xan Zəndin dəvəti ilə Şiraza gedərkən özü ilə apardığı yaxın adamlari sırasında Mirzə Vəli bəy Baharlı da var idi. Sonralar Mirzə Vəli bəy Baharlı Pənahəli xanın yerinə taxta çıxmış oğlu İbrahimxəlil xanın etibarını qazanmış saray

---

İsmayıl Şəms, Qafar Kəndli. Bakı, 1987. Səh. 388; *Faruk Sumer*. Kara-Koyunlular (Başlanğıcdan Cihan-Şaha kadar). Cild I. Ankara, 1984. Səh. 26.

[3] *Orxan Zakiroğlu (Baharlı)*. Mirzə Vəli bəy Baharlı // «Qarabağ» qəzeti. 28 dekadr 2012-ci il. Səh. 14.

[4] *Orxan Zakiroğlu (Baharlı)*. Mirzə Vəli bəy Baharlı // «Qarabağ» qəzeti. 28 dekadr 2012-ci il. Səh. 14.



Əliş bəy Məşədi Ələsgər bəy oğlu Vəliyev (1876–1963).
*Şəkil Əliş bəyin nəvəsi Teymur bəy Baharlıya məxsusdur. Şəkil 1905-ci ildə Şuşada çəkilmişdir*

əyanlarından biri olmuşdur. Mirzə Vəli bəy Baharlı İbrahimxəlil xanın inandığı, arxalandığı, təcrübəli dövlət adamlarından sayılırdı. Xanlığın bütün məsələlərinin həllində onun verdiyi ağıllı məsləhətlər də əsas rol oynayırdı. Məhz bu istedadına, etibarına görə Mirzə Vəli bəy Baharlı Qarabağ xanlığının vəziri rütbəsinə qədər yüksəlmişdir[5].

İbrahimxəlil xanın vəziri kimi o, bir sıra diplomatik danışıqlarda Qarabağ xanlığını layiqincə təmsil etmişdir.

İbrahimxəlil xan Ağa Məhəmməd şah Qacarla dostluq münasibətləri yaratmaq məqsədilə Mirzə Vəli bəy Baharlını əmisi oğlu Əbdüssəməd bəylə birlikdə İrana elçi göndərdi. Elçilər bir müddət Tehranda yaşamalı oldular. Bir sıra siyasi məsələlərin həll edilməsində yaxından iştirak etdilər. Lakin çox keçmir ki, Rusiyaya meylli olmaqda günahlandırılan İbrahimxəlil xanla Ağa Məhəmməd şah Qacar arasında münasibətlər pozulur. Ağa Məhəmməd şah Qacar İbrahimxəlil xanı cəzalandırmaq üçün diplomatiya qaydalarının şərtlərini pozaraq Qarabağ xanlığının ağıllı dövlət adamı Mirzə Vəli bəy Baharlını və onunla gələn saray əyanlarının həbs edilməsi haqqında əmr vermişdir[6]. Qarabağa aid salnamə müəlliflərinin yazdığına görə, Əbdüssəməd bəy Qarabağa qaçmağa təşəbbüs etsə də yolda qətlə yetirilmişdir. Həmin müəlliflərin qələmə aldıqları salnamələrdə bildirilir ki, Qarabağ xanlığında İbrahimxəlil xana yaxın dörd şəxs olmuşdur. Mirzə Vəli bəy Baharlı, Əbdüssəməd bəy, Molla Pənah Vaqif, qardaşı oğlu Batmanqılınc Məhəmməd bəy İbrahimxəlil xanın məsləhətləşdiyi, etibar etdiyi dövlət adamları idilər[7]. İbrahimxəlil xan xanlığın

---

5 *Orxan Zakiroğlu (Baharlı).* Mirzə Vəli bəy Baharlı // «Qarabağ» qəzeti. 28 dekadr 2012-ci il. Səh. 14.

6 *Rzaqulu bəy Mirzə Camal bəy oğlu.* Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri / Ön söz, farscadan tərcümə və şərhlər N.Axundov // «Qarabağnamələr». II kitab. Bakı, 1991. Səh. 220.

7 *Məhəmmədəli bəy Vəlizadə.* Əhvalati-Qarabağ / Ön söz və transliterasiya edəni Nazim Axundov // «Qarabağnamələr». II kitab. Bakı, 1991. Səh. 287.

bütün məsələlərinin həll edilməsində onlarla məsləhətləşirmiş. İbrahimxəlil xan vəziri, etibar etdiyi yaxın məsləhətçisi Mirzə Vəli bəy Baharlını azad etməyə çalışsa da Ağa Məhəmməd şah Qacarla apardığı danışıqlar nəticəsiz olur. Qarabağ xanlığının güclənməsini istəməyən Ağa Məhəmməd şah Qacar xanlığın təcrübəli dövlət xadimi sayılan Mirzə Vəli bəy Baharlını İbrahimxəlil xana qaytarmamışdır. 1795-ci ildə Ağa Məhəmməd şah Qacar Mirzə Vəli bəy Baharlının qətlə yetirilməsi ilə bağlı fərman vermişdir. Ağa Məhəmməd şah Qacarın Mirzə Vəli bəy Baharlı haqqında çıxartdığı ölüm fərmanı xüsusi bir qəddarlıq idi. Mirzə Vəli bəy Baharlı Tehranda döyüş topunun lüləsinin ağzına bağlanılaraq işgəncə ilə öldürülmüşdür[8].

Mirzə Vəli bəy Baharlının Ağa Məhəmməd şah Qacar tərəfindən Tehranda qətlə yetirilməsindən sonra onun nəvələri babalarının adını yaşatmaq üçün Vəlibəyov Vəliyev, Vəlizadə, Vəlili soyadlarını daşımışlar.

Mirzə Vəli bəy Baharlının Mirzə Haşım bəy, İbrahim bəy, İmamverdi bəy, Həsənəli bəy adlı 4 oğlu olmuşdur. «Əhvalati-Qarabağ» (transliterasiya edəni Nazim Axundov) əsərindən məlum olur ki, Mirzə Vəli bəy Baharlının qətlindən sonra Mirzə Haşım bəy və İbrahim bəy Baharlı İbrahimxəlil xanın sarayında xidmət etmişlər. Mirzə Haşım bəyə qeyri-adi istedadına görə Zərrinqələm adını vermişlər.

XX əsrin 30-cu illərdə böhtana salınaraq bir müddət həbsxana həyatı yaşamış Səttar bəy Məhəmməd bəy oğlu Vəliyev, coğrafiya elmləri doktoru, professor Xosrov Ələsgər bəy oğlu Vəliyev, coğrafiya elmləri doktoru, professor Zahid Səttar bəy oğlu Məmmədov, tanınmış yazıçı-jurnalist Məhəmməd Baharlı Mirzə Haşım bəyin nəslinin layiqli nümayəndələrindəndirlər.

Tanınmış nasir, publisist Məhəmməd Baharlı Mirzə Vəli bəyin övladlarındandır. Məhəmməd Baharlının yaradıcılığında elmi-pedaqoji, publisistik və nəsr əsərləri, həmçinin şeirləri başlıca yer tutur. Mətbuatda yüzlərlə yumoristik hekayəsi dərc olunmuşdur. Onun yumoristik hekayələrinin mövzusu gündəlik həyatımızdan və məişətimizdən, adət-ənənələrimizdən götürülmüşdür.

Məhəmməd Baharlının müxtəlif illərdə nəşr olunmuş pedaqoji mövzuda əsərləri, elmi-publisistik yazıları, nəsr əsərləri, şeirləri bu gün də öz aktuallığını, dəyərini saxlamaqdadır.

Onun yaradıcılığında xüsusi yer tutan əsərlərindən biri də «Azərbaycan tarixi: BAHARLILAR» (Bakı, 2010) adlı kitabıdır. Bu əsərində müəllif Baharlı tayfasının Azərbaycan tarixindəki rolunu araşdırır, onların fəaliyyətlərinə münasibətini bildirilir.

---

[8] *Rzaqulu bəy Mirzə Camal bəy oğlu.* Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri / Ön söz, farscadan tərcümə və şərhlər N.Axundov // «Qarabağnamələr». II kitab. Bakı, 1991. Səh. 220.



Respublikanın əməkdar müəllimi
Vəli Abdulla bəy oğlu Vəlizadə
(1911–1983).
*Şəkil Vəli Vəlizadənin şəxsi arxivindən*

Məhəmməd Baharlının indiyə kimi ondan yuxarı kitabı işıq üzü görmüşdür.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan 1823-cü ilə aid arxiv sənədlərində İbrahim bəyin, qardaşları Hacı Həsənəli bəyin, İmamverdi bəyin, əmisi Süleyman bəyin adına rast gəlinir, ictimai həyatdakı mövqelərindən söhbət açılır. Mirzə Vəli bəyin ikinci övladı İbrahim bəy Baharlı Çar Rusiyası dövründə də hörmətli şəxslərdən sayılırmış. O, ilk təhsilini atasından almış, mükəmməl mədrəsə təhsili görmüşdür. İbrahim bəy bir sıra tarixi faktlara əsasən təxminən 1836-cı ildə vəfat etmişdir. Onun övladları sonrakı illərdə Şuşa qəzasının I Baharlı (indiki Ağdamın I Baharlı kəndi) kəndində yaşamışlar.

Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan əhalinin siyahıya alınması sənədlərinə görə XIX əsrin 40–60-cı illərində Baharlı kəndinin Mirzə İsmayıl bəy (1798 – 1863), Rzaqulu bəy, Məmmədqulu bəy (1817 – ?) adlı üç adlısanlı bəyi olmuşdur. Qardaş olmuş bu üç bəy Mirzə Vəli bəy Baharlının nəvələri, İbrahim bəyin oğlanlarıdırlar.

Mirzə İsmayıl bəy Vəliyev (Baharlı) təxminən 1798-ci ildə anadan olmuşdur. İlk təhsilini atasından almışdır. Fars, rus dillərini mükəmməl bilirmiş. Babası Mirzə Vəli bəy Baharlı kimi zəmanəsinin tanınmış şairi idi. Çar ordusunun zabiti olmuş Mirzə İsmayıl bəy Vəliyev (Baharlı) Qarabağın nüfuzlu, qoçaq, mərd insanlarından sayılırmış. Məhz bu nüfuzu sayəsində o bir çox xalq qəhrəmanlarını, günahsız insanları azğınlaşmış rus və erməni xainlərinin əlindən xilas etmişdir. Mirzə İsmayıl bəyin Abbasqulu bəy, İbrahim bəy, Fərəc bəy, Mahmud bəy, Adıgözəl bəy, Balaca bəy adlı altı oğlu olmuşdur. Mirzə İsmayıl bəyin bu övladları ilk təhsillərini atalarından almış, zəmanəsinin savadlı, hörmətli insanları olmuşlar.

Abbasqulu bəyin Rəhim bəy, Əziz bəy, İbrahim bəyin Əmrah bəy, Mahmud bəyin Isgəndər bəy, Adıgözəl bəyin Nəcəfqulu bəy, İsmayıl bəy, Salatın xanım, Səlbi xanım, Balaca bəyin Rza bəy adlı övladları olmuşdur.

Rza bəy Mirzə İsmayıl bəyin nəvəsi, Balaca bəyin oğludur. Qarabağda zəmanəsinin hörmətli, qoçaq, qeyrətli insanlarından sayılmışdır. Tayfa düşmənçiliyi nəticəsində gənc yaşlarında öldürülmüşdür. Onun Bəyim adlı bir qızı olmuşdur.

Mirzə İsmayıl bəyin nəticəsi Cabbar bəy XX əsrin əvvəllərində Qarabağın ictimai-mədəni həyatında aparıcı rol oynamışdır. O, ata tərəfdən Adıgözəl bəyin nəvəsidir. Ulu babası Mirzə Vəli bəy Baharlının adının şərəfinə Vəlibəyov soyadını daşımış Cabbar bəy İsmayıl bəy oğlu 1893-cü ildə Şuşa qəzasının I Baharlı (indiki Ağdamın I Baharlı kəndi) kəndində anadan olmuşdur. Cabbar bəy ilk təhsilini ruhani məktəbində alaraq ərəb və fars dillərini, şəriət elmlərini öyrənmiş, sonralar zəmanəsinin açıq fikirli adamı olan dayısı Məşədi Məhəmməd Qasım oğlunun təklifi ilə Şuşa realnı məktəbini bitirmişdir. I Baharlı kəndində böyük torpaq sahibi olan 20 yaşlı Cabbar bəy təhsilini başa vurduqdan sonra evində məktəb açaraq 1913-cü ildə yeni tipli məktəbin əsasını qoymuşdur. Burada o, şagirdlərə ərəb və rus dillərini, tarix, riyaziyyat, Azərbaycan ədəbiyyatını tədris etmiş, ehtiyacı olan yoxsulları dərs ləvazimatı ilə təmin etmişdir. Cabbar bəyin gözəl əl qabiliyyəti olduğu üçün Qarabağda rəssam kimi də tanınmışdır. Cabbar bəy Vəlibəyovun yaratdığı məktəbdə sonralar Azərbaycanın müxtəlif sahələrində mütəxəssis kimi fəaliyyət göstərən insanlar təhsil almışlar. Cabbar bəy Vəlibəyovun şagirdlərindən biri də mərhum şərqşünas alim Sulduz Rüstəmov olmuşdur. Sulduz müəllim hər zaman öz müəlliminin adını ehtiramla yad etmişdir.

Cabbar bəy Vəlibəyov faciəli bir həyat yaşamışdır. O, bəy, ziyalı, dindar olduğu üçün Azərbaycan tarixinin qara səhifələrindən sayılan 1937-ci il repressiyasından xilas ola bilməmiş, Sibirə sürgün edilmişdir. Cabbar bəy 17 noyabr 1941-ci ildə Sibirdə dünyasını dəyişmişdir. Anadan olmasının 100, yaratdığı məktəbin 80 illiyi 1993-cü ildə qeyd edilmiş, bu münasibətilə I Baharlı kənd tam orta məktəbinə Cabbar bəy Vəlibəyovun (Baharlı) adı verilmişdir.

Azərbaycan, o cümlədən Şərq fəlsəfəsi tarixinin əvəzolunmaz tədqiqatçısı, AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədov (Baharlı) (1936 – 2003) Cabbar bəyin oğludur.

Körpə ikən atası Cabbar Vəlibəyov repressiyanın qurbanı olduğu üçün Zakir Məmmədov anası Hüsnü xanım Məmmədbəylinin himayəsində böyümüş, siyasi təqiblərdən qorunmaq məqsədilə orta məktəb illərində anasının soyadına keçirilmişdir.

Zakir Məmmədov Ağdam 1 saylı orta məktəbində oxumuş, qabiliyyəti, istedadı ilə xüsusi seçilmişdir. Orta məktəb illərində bədii yaradıcılıqla məşğul olmuş, rayon qəzetlərində şeirləri dərc edilmişdir. Onun «Yoldaşlıq köməyi» adlı bir mənzum pyesi 1955-ci ildə Ağdam pionerlər evində özfəaliyyət kollektivi tərəfindən tamaşaya qoyulmuşdur. Bir ildən sonra həmin əsər Bərdə pionerlər evində özfəaliyyət kollektivi tərəfindən oynanılmışdır. Zakir Məmmədovun gözəl əl qabiliyyəti olduğu üçün sulu



Zakir Məmməd (1936–2003)

boya ilə çəkdiyi «Gənc miçurinçilər» tablosu 1956-cı ildə Azərbaycan gənclərinin «Əmək və xoşbəxtlik uğrunda» birinci Respublika festivalının sərgisində nümayiş etdirilmişdir.

Zakir Məmmədov orta məktəbi medalla bitirdikdən sonra, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin yeni açılan ərəb filologiyası şöbəsində təhsil almışdır. Universitetdə təhsil aldığı illərdə də onun mütəmadi şəkildə universitet qəzetlərində şeirləri və ərəb dilindən tərcümələri dərc edilmişdir. O, ərəb ölkələrində tərcüməçi işləmiş ilk iki ərəbşünasdan biridir. Qeyd etmək lazımdır ki, Zakir Məmmədov (Baharlı) 1962–1963 illərdə Misir Ərəb Respublikasının Asuan bəndində çalışmış ilk azərbaycanlı tərcüməçidir.

Zakir Məmmədovun tədqiqatlarına qədər hesab edirdilər ki, «Bəhmənyar istisna olmaqla orta əsrlərdə Azərbaycanda "xalis", peşəkar filosoflar yaşamamışlar». Bu yanlış müddəanı Zakir Məmmədov elmi şəkildə, mənbələrə əsaslanaraq təkzib etdi. Başqa sözlə, zəngin fəlsəfi irsimizin varlığını üzə çıxarmış və araşdırmışdır. Zakir Məmmədov 40 ilə yaxın müddətdə elmi axtarışlar apararaq, Azərbaycan filosoflarının və mütəfəkkirlərinin ərəb və fars dillərində dünyanın müxtəlif ölkələrində cap olunmuş, habelə əlyazması şəklində saxlanılan zəngin irsini üzə çıxarmışdır.

Zakir Məmmədov sübuta yetirmişdir ki, orta əsrlərdə müsəlman Şərqində, o cümlədən Azərbaycanda dini fəlsəfi təlimlərlə yanaşı, elmi-fəlsəfi təlimlər də olmuş, elmi-fəlsəfi təlimlər Şərq peripatetizmindən, sufizmin panteist istiqamətindən və işraqilikdən ibarətdir.

Zakir Məmmədov müəyyən etmişdir ki, Şərq peripatetizmini türk filosofu Əbunəsr Farabi (873 – 950), digər ikisini – sufizmin panteist sistemini Azərbaycan filosoflarından Eynəlqüzat Miyanəci (1099 – 1131) və işıq və qaranlıq prinsipinə əsaslanan işraqilik təlimini Şihabəddin Yəhya Sührəvərdi (1154 – 1191) yaratmışlar.

Zakir Məmmədov (Baharlı) 30-dan çox elmi kitabın (çap edilmiş və edilməmiş), 300-ə yaxın elmi məqalənin müəllifidir.

Zakir Məmmədov (Baharlı) 2 mart 2003-cü ildə Bakıda vəfat etmişdir.

Rzaqulu bəy İbrahim bəyin ortancıl oğludur. Rzaqulu bəyin Məşədi Rüstəm bəy, Məşədi Ələsgər bəy, Qəhrəman bəy adlı övladları dini təhsil almış, Baharlı tayfasının sayılıb-seçilən insanları olmuşlar. Məşədi Rüstəm bəyin Qulu bəy, Hüseyn bəy, Qara bəy, Məşədi Ələsgər bəyin Əliş bəy adlı ovladları var imiş.

Əliş bəy Məşədi Ələsgər bəy oğlu Vəliyev Baharlı tayfasının qeyrətli, qoçaq övladlarından olub uzun illər öz silahdaşları ilə Şuşada vəhşiliklər törədən ermənilərə qarşı döyüşlərdə iştirak etmişdir. O, Sovet hakimiyyətinə qarşı döyüşdüyü üçün 13 il Qazaxstanda sürgün həyatı yaşamışdır. Əliş bəyin Bakıda neft mədənləri olmuşdur.

İbrahim bəyin kiçik oğlu Məmmədqulu bəyin Kəlbəli bəy və Həsən bəy adlı iki oğlu olmuş, onlar da sələfləri kimi Qarabağın sayılıb-seçilən, hörmətli insanları olmuşlar. Həsən bəy gənc yaşlarında vəfat etmişdir. Kəlbəli bəyin Fərzəli bəy, Həsən bəy adlı oğlanları olmuşdur.

Həsənəli bəy Mirzə Vəli bəy Baharlının dördüncü oğludur. Arxiv sənədlərinə görə, o, təxminən 1788-ci ildə Şuşada anadan olmuşdur. Atası Mirzə Vəli bəy Tehranda qətlə yetiriləndə onun yeddi yaşı var imiş. Həsənəli bəyin mükəmməl mədrəsə təhsili var idi. Məşhədi və Məkkəni ziyarət etmişdir. Həsənəli bəy Şərəbanı xanımla ailə həyatı qurmuş, Əsədulla bəy, Qasım bəy, Məhəmmədhəsən bəy adlı 3 oğlu var idi.

Əsədulla bəy Həsənəli bəyin böyük övladıdır. Arxiv sənədlərinə görə o, təxminən 1807-ci ildə Şuşada doğulmuşdur. Əsədulla bəy mədrəsə təhsili almış, Məşhəd ziyarətində olmuşdur. Qarabağın varlı, nüfuzlu tacirlərindən biri idi. Əsədulla bəy Əzəd xanımla evlənmiş, Məhəmmədəli bəy, Hüseynəli bəy, Ələkbər bəy, Abdulla bəy, Abbas bəy, Əli bəy adlı altı oğlu, Gövhər xanım, Anaxanım xanım adlı iki qızı var imiş. Əsədulla bəyin oğlanları Şuşa qəza məktəbində təhsil almış, rus dilini mükəmməl bilmişlər. Bu insanlar sonralar Qarabağın sayılıb-seçilən insanları olmuş, Şuşanın ictimai həyatında aparıcı rol oynamışlar.

Böyük övladı Məhəmmədəli bəy ilk təhsilini Şuşa qəza məktəbində almış, ərəb, fars, rus dillərini mükəmməl bilmişdir. Şuşa, İrəvan və Şamaxı dövlət idarəsində xidmət etmişdir. Titulyar müşavir rütbəsini daşımışdır. Çar Rusiyası zamanında bu doqquzuncu dərəcəli mülki rütbə idi. Məhəmmədəli bəy Vəlizadə Xurşid Banu Natəvanın rəhbərliyi ilə onun sarayında poeziya həvəskarlarını öz ətrafında toplayan «Məclisi-üns» adlanan ədəbi məclisin fəal üzvü olmuş, «Məxfi» təxəllüsü ilə Azərbaycan və fars dillərində klassik üslubda şeirlər yazmışdır. Məhəmmədəli bəy Vəlizadənin yaradıcılığında «Əhvalati-Qarabağ» əsəri xüsusi yer tutur.

Məşədi Əsədulla bəyin dördüncü oğlu Abdulla bəyin əsl adı Abış bəydir. Lakin Qarabağda aparılmış bəylərin və əhalinin siyahıya alınması sənədlərində o, Abdulla bəy kimi qeydə alınmışdır. Onun müasiri Mirzə Xosrov Axundov öz xatirələrində Abdulla bəyi əsl adı ilə Abış bəy kimi xatırlamışdır.

Abdulla bəy Vəlizadə 1841-ci ildə Şuşada doğulmuş, fars və rus dillərini bilmişdir. Təhsilini Şuşada alan Abdulla bəy Mir Möhsün Nəvvabın təşkil etdiyi «Məclisi-fəramuşan»ın fəal üzvü olmuş, klassik üslubda şeirlər yazmışdır. Abdulla bəy Vəlizadə «Məclisi-fəramuşan»nın üzvü olarkən bir neçə şairlə dostluq etmiş, onlarla şeirləşmişdir.

Abdulla bəy Vəlizadə təxminən 1912-ci ildə Şuşa şəhərində vəfat etmişdir.

Uzun illər texniki peşə təhsilli sistemində müxtəlif rəhbər vəzifələrdə çalışmış Azərbaycanın tanınmış ziyalısı, respublikanın əməkdar müəllimi Vəli Vəlizadə Abdulla bəyin oğludur.

Hacı Həsənəli bəyin ortancıl oğlu Qasım bəy təxminən 1814-cü ildə Şuşada anadan olmuşdur. O, ilk təhsilini atasından almış, xüsusi mədrəsə təhsili görmüşdür, Qarabağın hörmətli bəylərindən sayılan Qasım bəy deyilənə görə fars, rus dillərini bilirmiş. Onun həyat yoldaşı Səkinə xanımdan Sadıq bəy, Bağır bəy, Mahmud bəy adlı üç oğlu, Fatma xanım, Bədir xanım adlı iki qızı olmuşdur.

Qasım bəyin övladları zəmanəsinin savadlı oxumuş insanları olmuşlar. Arxiv sənədlərində onun övladlarının şəxsi mülkləri haqqında məlumat verilmişdir. Qasım bəyin böyük oğlu Sadıq bəy Şuşada varlı tacir kimi tanınmışdır.

Hacı Həsənəli bəyin üçüncü oğlunun adı Mirzə Məhəmmədhəsən bəydir. Arxiv sənədlərinə görə o, təxminən 1822-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini mollaxanada almışdır. Mirzə Məhəmmədhəsən bəy Vəliyev Şuşa qəza məktəbində təhsil almışdır. Sələfləri kimi o da qeyri-adi istedad sahibi olmuş, ərəb, fars, rus dillərini mükəmməl bilmişdir. Uzun illər quberniya katibi vəzifəsində çalışmışdır.

Məhəmmədəli bəy Vəlizadənin (Baharlı) «Əhvalati-Qarabağ» (transliterasiya edəni Nazim Axundov) əsərində yazılmışdır ki, Mirzə Məhəmmədhəsən bəy Vəliyev Şirvan seyidlərinin şəcərələrini ərəb dilindən rus dilinə tərcümə etdiyi üçün çar hökuməti tərəfindən medalla mükafatlandırılmışdır.

Mirzə Məhəmmədhəsən bəy Vəliyev təqribən 60 il ömür sürmüşdür. Həyatının sonuna kimi quberniya katibi vəzifəsində işləmişdir. Bir sıra tarixi faktları müqayisə edərkən belə qənaətə gəlmək mümkündür ki Mirzə Məhəmmədhəsən bəy Vəliyev təqribən 1882/83 illərdə Şuşa şəhərində vəfat etmişdir.

Mirzə Məhəmmədhəsən bəyin Nəcəfqulu bəy, Məmmədtağı bəy, Əbülfət bəy adlı oğlanları olmuşdur.

Azərbaycan teatrının inkişafında Nəcəfqulu bəy Vəliyev (1858 – 1936) və Əbülfət bəy Vəli (1874 – 1918) qardaşları xüsusi xidmətlər göstərmişlər. Onların teatr fəaliyyətləri o dövrün mətbuat səhifələrində işıqlandırılmışdır.

Arxiv sənədlərinə görə, Nəcəfqulu bəy Vəliyev təxminən 1858-ci ildə doğulmuşdur. O, ilk təhsilini Şuşada dini məktəbdə almış, ikiillik Quba məktəbini bitirmişdir. O, rus, fars dillərini mükəmməl bildiyi üçün uzun illər Bakı quberniya idarəsində tərcüməçi işləmişdir. Azərbaycan Respublikası Dövlət Tarixi Arxivində saxlanılan 1886-cı il Şuşa şəhərində yaşamış bəylərin siyahıya alınması sənədinə görə o, Bakı quberniyası katibi vəzifəsində çalışmışdır. Nəcəfqulu bəy də atası kimi hər zaman çarizm dövründə hökumət yanında hörmətli şəxslərdən sayılmışdır.

Nəcəfqulu bəy Vəliyev Mir Möhsün Nəvvabın Şuşada təşkil etdiyi «Məclisi-fəramuşan»ın fəal üzvü olmuş, «Şeyda» təxəllüsü ilə klassik üslubda şeirlər yazmışdır.

Nəcəfqulu bəy Vəliyev eyni zamanda Azərbaycanın teatr tarixində həvəskar aktyor kimi tanınır. Nəcəfqulu bəy Vəliyev teatr truppalarında iştirak etmiş, bir-birindən maraqlı obrazlar yaratmışdır. Onun adı Həbib bəy Mahmudbəyov, Cahangir Zeynalov kimi görkəmli teatr xadimləri ilə bir sırada dayanır.

Nəcəfqulu bəy Vəliyev görkəmli Azərbaycan ziyalısı Həsən bəy Zərdabinin bacısı qızı İmarət xanımla ailə qurmuşdur. Onların Züleyxa xanım, Səltənət xanım, Məhəmmədhəsən bəy, Cavad bəy adlı dörd övladı olmuşdur. Züleyxa xanım, Cavad bəy gənc yaşlarında vəfat etmişlər. Səltənət xanım uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Nəcəfqulu bəyin üçüncü övladı Məhəmmədhəsən bəy Vəlili (Baharlı) görkəmli dövlət və elm xadimi idi.

Məhəmmədhəsən bəy Vəlili (Baharlı) yaradıcılığında «Azərbaycan» adlı əsəri xüsusi yer tutur. 1921-ci ildə rusca və azərbaycanca Bakıda nəşr edilmiş «Azərbaycan» kitabı ona coğrafiyaçı, etnoqraf və iqtisadçı kimi şöhrət qazandırmışdır. «Azərbaycan» kitabı işıq üzü görəndə müəllifin 24 yaşı var idi. Məhəmmədhəsən bəy Vəlilinin (Baharlı) iki dildə yazdığı «Azərbaycan» kitabının Vasif Quliyev tərəfindən ruscadan azərbaycancaya tərcüməsi və Ağanəcəf Həmidov, Əbülfəz Rəhimli tərəfindən ərəb əlifbasından kirill əlifbasına çevrilmiş mətni 1993-cü ildə Bakıda yenidən nəşr edilmişdir.

Məhəmmədhəsən bəy Vəlilinin (Baharlı) bu əsərində Azərbaycanın maddi və mənəvi sərvətləri, inkişaf perspektivləri haqqında elmi fikirlər irəli sürülür. «Azərbaycan» kitabında ictimai-siyasi məsələlər də mühüm yer tutur. Məhəmmədhəsən Vəlili (Baharlı) müəyyən mövzularla əlaqədar bu aspektə xüsusi fikir vermiş, ölkədə sosial həyat tərzinin siyasətdən irəli gələn hallarını açıqlamış, onların spesifik xüsusiyyətlərini, mahiyyətini göstərmişdir. Məhəmmədhəsən bəy Vəlilinin (Baharlı) zərdüştilik haqqında fikirləri də maraqlıdır. Bəzi tədqiqatçılara görə

zərdüştilik təlimi İran ərazisində, xüsusilə maldarlıqla məşğul olan dağ əhalisi arasında meydana gəlmişdir. Məhəmmədhəsən Vəlili (Baharlı) isə zərdüştilik təlimini ilk növbədə işıqla əlaqələndirmiş, bu dünyagörüşünün məhz Azərbaycan mühiti üçün səciyyəvi olmasını göstərmişdir. O, zərdüştiliyin tarixinin 4 min ildən çox olduğunu qeyd etmişdir.

Görkəmli Azərbaycanşünas alimin yaradıcılığı müasirləri olan Əlabbas Müznib, Yusif Vəzir Çəmənzəminli, Rəmzi Yüzbaşov tərəfindən yüksək qiymətləndirilmişdir. Onun həyat və yaradıcılığı müxtəlif illərdə Rəmzi Yüzbaşov, Zakir Məmmədov, Vasif Quliyev, Ədalət Tahirzadə, Sofiq Hüseynov, Ənvər Çingizoğlu və bu sətrlərin müəllifi tərəfindən tədqiq edilmişdir.

Onun rus dilində nəşr olunmuş «Azərbaycan» kitabı haqqında ilk rəy 1921-ci ildə «Azərbaycan xəbərləri» qəzetində dərc edilmişdir. Əlabbas Müznibə müəllifi olduğu «Azərbaycan intibahatı» adlı bu məqaləni AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədov (Baharlı) aşkara çıxararaq, ilk dəfə 1996-cı ildə dil üslubu cəhətdən kiçik təhsilatla ərəb əlifbasından kirill əlifbasına çevirmişdir.

Əli Abbas Müznib «Azərbaycan intibahatı» adlı rəyində əsəri bölmələr üzrə təhlilini verəndən sonra fikrini belə tamamlamışdır: «Kitab hər bir azərbaycanlının oxuyub faydalanmasına həqiqətən layiqdir. Xüsusən Azərbaycan türklərinin əsəri oxuması müqəddəs vətəndaşlıq vəzifəsidir».

Əli Abbas Müznibin «Azərbaycan intibahatı» adlı məqaləsindən aydın olur ki, Məhəmmədhəsən bəy Vəlili (Baharlı) eyni zamanda Azərbaycan və rus dillərində yazmış olduğu «Azərbaycan tarixi» adlı kitabın da müəllifidir. Məqalə müəllifi Məhəmmədhəsən bəy Vəlilinin (Baharlı) «Azərbaycan tarixi» kitabı haqqında yazmışdır: «Məhəmmədhəsən (Baharlı) arkadaşımızın "Azərbaycan tarixi" təcili bir surətdə çap edilməlidir. Bunu mədəniyyət, elm və bütün azərbaycanlılar bəkləyir».

Lakin təəssüflər olsun ki, Əli Abbas Müznibin çap olunmasını məsləhət bildiyi Məhəmmədhəsən bəy Vəlilinin (Baharlı) «Azərbaycan tarixi» əsəri bu günümüzə qədər gəlib çatmamış, müəmmalı şəkildə yoxa çıxmışdır.

Yusif Vəzir Çəmənzəminli 1921 ildə Türkiyədə olarkən «Azərbaycan» kitabı ilə tanışlıqdan sonra fikrini belə ifadə etmişdir: «Bakıda yeni basılan "Azərbaycan" ünvanlı kitabı aldım. "Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat" dan ibarət bu əsər qiymətli cavanlarımızdan Məhəmmədhəsən bəy Vəlili (Baharlı) tərəfindən yazılıb. Azərbaycana dair, ələlxüsus milli sərvətimiz haqqında ətraflı məlumat verən bu dəyərli əsəri hər bir azəriyə oxumaq və evində bulundurmağı tövsiyə edirəm». Yusif Vəzir Çəmənzəminlinin «Azərbaycan» kitabı haqqında qiymətli fikirlərini Maarif Teymurov ərəb əlifbasından transliterasiya etmişdir.

Tanınmış coğrafiyaşünas alim Rəmzi Yüzbaşov «Azərbaycan coğrafiya terminləri» (1966) kitabında, «İlk Azərbaycanşünas alim» mə-

qaləsində («Elm və həyat» jurnalı, № 7, 1975) Məhəmmədhəsən bəy Vəlilinin yaradıcılığını yüksək qiymətləndirmişdir. Azərbaycanşünas alimin irsinin təbliğ edilməsində Rəmzi Yüzbaşov misilsiz xidmət göstərmişdir.

Son illər Məhəmmədhəsən bəy Vəlilinin (Baharlı) həyatına aid qiymətli tədqiqat işləri professor Ədalət Tahirzadə tərəfindən aparılmışdır. Kiyev Dövlət Tarixi Arxivində saxlanılan bir neçə tarixi sənədlər Ədalət Tahirzadə tərəfindən aşkar edilərək tədqiqata cəlb edilmişdir.

Məhəmmədhəsən bəy Vəlili (Baharlı) siyasi fəaliyyətinə görə bir neçə dəfə həbsxana həyatı yaşamalı olmuşdur. Azərbaycanın görkəmli dövlət və elm xadimi Məhəmmədhəsən bəy Vəlili (Baharlı) sonuncu dəfə 1937-ci ildə həbs edilmiş, həmin ilin iyulun 26-dan 27-nə keçən gecə güllələnmişdir.

Məhəmmədhəsən bəy Vəlilinin (Baharlı) anadan olmasının 100 illiyi ilk dəfə AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədovun təşəbbüsü ilə keçirilmişdir. Yubiley tədbiri 25 may 1998-ci ildə AMEA-nın Bəhmənyar adına Fəlsəfə və Hüquq İnstitutunda (indiki Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu) keçirilmiş, əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Süleyman Əliyarlının, yazıçı-jurnalist Məhəmməd Baharlının və başqalarının iştirak etdiyi elmi konfransla başa çatmışdır. Zakir Məmmədov dövri mətbuatda onun yaradıcılığının müxtəlif aspektlərini işıqlandıran 17 elmi məqalə dərc etmişdir.

Məmmədtağı bəy Mirzə Məhəmmədhəsən bəyin ortancıl oğludur. Arxiv sənədlərindən aydın olur ki, Məmmədtağı bəy 1867-ci ildə Şuşada doğulmuşdur. O, ilk təhsilini atasından almışdır. 1886-cı ilin arxiv sənədində 19 yaşlı Məmmədtağı bəyin Şuşa realnı məktəbində oxuması, rus dilini bilməsi haqqında məlumat bildirilmişdir.

Azərbaycanın görkəmli teatr xadimi Əbülfət bəy Vəlinin adı H.Ərəblinski, C.Zeynalov, Məhəmməd Əlvəndi, Sidqi Ruhulla, H.Q.Sarabski, M.A.Əliyev, M.Ə.Abbasov, Ə.Yüzbaşov, M.T.Ələsgərov kimi professional sənətkarlarla bir sirada çəkilir. O, Mirzə Məhəmmədhəsən bəyin kiçik oğludur. Əbülfət bəy arxiv sənədlərinə görə 1874-cü ildə Şuşada anadan olmuşdur. 1886-cı il arxiv sənədində 12 yaşlı Əbülfət bəyin Şuşa realnı məktəbində oxuması, rus dilini bilməsi haqqında məlumat qeyd edilmişdir.

Əbülfət bəy Vəlinin Azərbaycanın teatr tarixində rejissor, aktyor kimi xidmətləri müasirləri olan teatr xadimləri, ondan sonra gələn teatr tədqiqatçıları tərəfindən yüksək qiymətləndirilmişdir.

Göründüyü kimi, Mirzə Vəli bəy Baharlının övladları tarixin müxtəlif dövrlərində Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatında əhəmiyyətli rol oynamış nəsildir. Mirzə Vəli bəy Baharlının nəslinə mənsub insanlar bu gün də sələflərinin layiqli davamçıları kimi görkəmli şəxsiyyətləri, tanınmış övladları ilə seçilirlər.

# *СЕМЕЙНАЯ ХРОНИКА*

**Э.Э.Исмаилов**

## ДАШДАМИРОВЫ

Первые сведения о предках фамилии Дашдамировых я получил, в основном, от своей бабушки Зарифы Алиевой и ее младшего брата Хагверди Дашдамирова. Эти данные обрывались на имени их деда, т.е. моего прапрадеда, Гусейна (Кербалаи Гусейна) и заключались в следующем. Гусейн проживал в Шуше; был дважды женат; от первого брака с NN у него было два сына – Ага и Гейдар; вторую жену Гусейна звали Гюльниса (? – 1920); от неё у него было три сына и одна дочь – Алиш (1882/1885 – 16.12.1952), Бахлул (1884/1885 – 6.12.1958), Джалил (1889 – 1947) и Хафиза (1888 – 6.12.1965).

По тем же данным фамилию «Дашдамиров» приняли дети и внуки Гусейна – сыновья Алиш, Бахлул, Джалил и дочь Хафиза (дети от его второго брака), и внуки Гара, Яхъя, Бёюк Киши (дети его старшего сына от первого брака).

Для меня оставалось не ясным – когда потомки шушинского жителя Гусейна приняли фамилию «Дашдамиров» и что было взято за ее основу.

Обнаруженные в Государственном историческом архиве Азербайджанской Республики (ГИААР) свидетельства на право получения паспорта моим прадедом Бахлулом и его старшим братом Алишем за 1904 г. показывают, что фамилия «Дашдамиров» в этот период еще не употреблялась, а представители семьи в официальных документах использовали только отчество. Когда они приняли эту фамилию, точных сведений на настоящий момент пока нет. Можно только предположить, что это произошло около 1920 г.

Работая с камеральными описаниями города Шуши в ГИААР, мне удалось установить имя отца и деда Гусейна, которых звали Али и Дашдамир соответственно, и тем самым установить точную этимологию фамилии этой семьи[1].

Согласно описанию Карабахской провинции 1823 г. ***Машади-Даш-Темур***, по крайней мере, в этом году уже проживал в Шуше. Он являлся выходцем из кочевья (селения) Саатлы Карабахского магала Игирмидёрд. Кочевье Саатлы в этот период состояло всего из 15 дымов (домов), 14 из которых платили различные подати. Также к этому селению принадлежали еще 25 дымов, которые проживали в городе Шуше и были показаны в городском списке, в том числе и

[1] Выражаю свою благодарность Энверу Чингизоглу за помощь в работе с материалами камеральных описаний города Шуши.

дым *Машади-Даш-Темура*. Проживающие в Шуше выходцы из этого селения до 1822 г. «обременены были приемом и угощением гостей ханских»[2].

Как видно из имени Мешади Дашдамира он еще до 1823 г. совершил паломничество к шиитским святым местам в город Мешхед, что на то время требовало значительных затрат и из чего можно сделать вывод о приблизительном финансовом состоянии данной семьи.

У Мешади Дашдамира был единственный сын – **Мешади Али** – который согласно данным камеральных описаний города Шуши родился около 1798 г. Он также как и его отец совершил паломничество в город Мешхед.

У Мешади Али было четверо сыновей: Гусейн (род. ок. 1839), Гасан (род. ок. 1842), Мамед-Багир (род. ок. 1843) и Ширин (род. ок. 1846).

Старший сын Мешади Али – **Гусейн (Кербалаи Гусейн)**, о потомках которого собственно и пойдет речь ниже, как следует из его имени, совершил паломничество к шиитским святым местам в город Кербала.

Кербалаи Гусейн был женат дважды. От первого брака с NN у него было два сына – Ага и Гейдар. Вторую жену Гусейна звали Гюльниса (? – 1920). От неё у него было три сына и одна дочь – Алиш (1882/1885 – 16.12.1952), Бахлул (1884/1885 – 6.12.1958), Джалил (1889 – 1947) и Хафиза (1888 – 6.12.1965).

После смерти Кербалаи Гусейна старший брат его второй жены Гюльнисы – Гамбар Таиров (род. ок. 1866 – 2.08.1938), который проживал в это время во Владикавказе, перевез своих племянников из Шуши во Владикавказ, где обеспечил их работой.

Если взять за основу документы из ГИААР, в частности, «свидетельства жителей города Шуши на право получения паспорта» за февраль–март 1904 г., согласно которым шушинцам «Бахлюлу Кербалай Гусейн оглу» и «Алию Кербалай Гусейн оглу», записанным в посемейных списках жителей города Шуши 1886 г. под № 1251, «на получение из Шушинского Уездного Управления паспорта на следование их в разные города Российской Империи по своей надобности, сроком на один год, нет препятствий», то можно предположить, что их отец Кербалаи Гусейн умер до марта 1904 г., и они в этом году переехали во Владикавказ.

* * *

[2] Описание Карабагской провинции, составленное в 1823 году, по распоряжению главноуправлявшего в Грузии Ермолова, действиительным статским советником Могилевским и полковником Ермоловым 2-м. Тифлис, 1866.

# *ARXİV SƏNƏDLƏRİ*

**Ə.Ş.Tahirzadə**

## ŞƏKİNIN XAN, BƏY VƏ RUHANİ AİLƏLƏRİ HAQQINDA QİYMƏTLİ BƏLGƏ

AMEA Şəki Regional Elmi Mərkəzinin (ŞREM) direktoru, professor Zəkəriyyə Əlizadə çalışdığım arxivlərdə Şəki tarixiylə bağlı qarşılaşdığım bütün bəlgələrin, sənədlərin üzünü çıxarmağı, onları toplayaraq ŞREM-ə verməyi neçə illər bundan öncə məndən xahiş edib. O çağdan bu çağatan həmin xahişi yerinə yetirməkdəyəm və ŞREM həmin bəlgələrdən məqsədyönlü yararlanmaqdadır. Zəkəriyyə müəllimin qayğıkeşliyi və tələbkarlığı sayəsində Şəkinin və şəkililərin şərəfli keçmişini əks etdirən bir çox dəyərli nəşrlər ortaya qoyulub. Ancaq əldə edilmiş bütün sənədləri tezliklə nəşrə hazırlamaq, əlbəttə, mümkün deyil – bunun üçün aylar, illər gərəkdir. Bu üzdən də bəzi bəlgələr öz “növbəsini” gözləməli olur. Onlardan biri də Azərbaycan Respublikası Dövlət Tarix Arxivindən (ARDTA) üzə çıxardığımız qiymətli bir sənəddir.

Azərbaycan Respublikası Dövlət Tarix Arxivində Zaqafqaziya Xəzinə Odasına aid 10-cu fondda 1-ci siyahıda saxlanılan 79-cu iş Odanın vergi məsələsiylə bağlı 1860-cı ildə tərtib etdiyi və üzərində 3 fevral 1865-ci ilədək dəyişikliklər apardığı siyahıdır.

79-cu işdə 4 siyahı verilib. Onlar nömrələnib. 1-ci siyahı yoxdur və iş 2-cidən başlanır. Biz tariximizçün maraqlı olan yalnız 2-ci (müsəlman məmur və bəyləri; 1–18-ci vərəqlər) və 4-cü (molla və seyidlər; 23–40-cı vərəqlər) siyahıları üzə çıxarmağı məqsədəuyğun saydıq.

1860-cı ildə tərtib edilmiş “Şəki şəhəri müsəlmanlarından məmur və bəylərin siyahısı” bu bölgülər üzrə aparılıb:

1. “Ailələrin sıra ilə nömrəsi”;
2. “Ailənin son təsvirdə qeydə alındığı nömrə”;
3. “Kişi cinsindən olanların adı, atasının adı, sənəti”;
4. “Yaşı”;
5. “Son qeydəalmadan sonra gəlirinin izahı”;
6. “Ailədə qadın cinsindən canların sayı”;
7. “Hansı dindəndirlər”;
8. “İzahlar”, yəni qeydlər.

Məzmunundan da göründüyü kimi, Zaqafqaziya Xəzinə Odasının hazırladığı bu siyahılar əslində Şəki şəhərinin 1860-cı ildə dövlət xəzinəsinə vergi ödəməkdən azad edilmiş imtiyazlı şəxslərinin adlarından və onlarla bağlı özəl qeydlərdən ibarətdir. Ancaq 1860-cı ildən sonrakı qeydləri diqqətlə gözdən keçirdikdə bu şəxslərin xeyli hissəsindən həmin imtiyazın geri alındığı və onların da adi şəhər sakinləri kimi vergi ödə-

məyə məhkum edildiyi aydınlaşır. Doğrudur, bunun konkret səbəblərini dəqiqləşdirmək sonrakı araşdırmalar nəticəsində mümkündür, ancaq, bizcə, burada ağla gələn ilk amil yerli məmur və ruhanilərin çar hakimiyyətinin daxili siyasətindən narazı qalaraq hökumətin «üzünə ağ olması»dır.

Bu siyahılar tarix baxımından çox önəmlidir. Hər şeydən öncə, onlar nəsillərin şəcərəsini tərtib edərkən əvəzsiz qaynaqdır. Bütün kişilərin adları qarşısında onların yaşının göstərilməsi doğum illərini öyrənməyi asanlaşdırır. Buna görə də bir çox şəkililər özünün ən azından 5–6 arxa dönənini müəyyənləşdirə bilər. Nəzərə almaq gərəkdir ki, burada sadalanan şəxslərin həlledici qisminin adlarını hər hansı başqa qaynaqdan tapmaq mümkünsüzdür.

İkincisi, bu siyahılar Şəki şəhərinin 1860-cı illərdəki kübar təbəqəsinin, seçmə insanlarının, demək olar ki, tam mənzərəsini yaradır. Həmin dönəmdə Şəkidə dövlət qulluğunda bulunmuş və dövlət xəttiylə rəsmən ruhanilik etmiş bütün imtiyazlı şəxslərin və onların ailə üzvlərinin adları burada əksini tapıb.

Doğrudur, bir sıra başqa qaynaqlarda da Şəki xanlarının nəsilləri haqqında dəyərli bilgilər var, ancaq buradakı adların sayca daha çox və daha dəqiq olması şübhəsizdir. Bu baxımdan başda *Kərim ağa Fətəli xan oğlu* (şair *Kərim ağa Fateh*) olmaqla 5 xan ailəsinin üzvləri haqqında verilən məlumat gerçəkdən əvəzsizdir.

Siyahılarda bir sıra çağdaş soyların ulu babalarının və onların törəmələrinin adlarıyla tanış oluruq. Örnəkçün bəzilərinin adlarını çəkirik.

1) Bugünkü Sədrəddinbəyovların ulu babası və şair İsmayıl bəy Nakamın atası *Hacı Məhəmməd bəy Hacı Sədrəddin bəy oğlu* (2-ci siyahı, № 17/17);

2) Azərbaycan Cümhuriyyətinin (1918–1920) Baş naziri Fətəli xan Xoyskinin atası, qvardiya polkovniki *İsgəndər xan Kəlbəli xan oğlu* (2-ci siyahı, № 26/26);

3) Azərbaycanda əsla tanınmayan, ancaq Osmanlı sarayında və Buxara əmirinin sarayında böyük hörmət qazanmış, məşhur rus səyyahı Prjevalskinin səyahətinin gerçəkləşməsində mühüm rol oynamış zabit, quberniya katibi Zaman bəy Şıxəlibəyovun atası praporşik *Şıxəli bəy Hacı bəy oğlu* (2-ci siyahı, № 35/35);

4) Cümhuriyyətdə (1918–1920) Parlament üzvü və nazir olmuş, sonradan Türkiyəyə mühacirətə getmiş görkəmli dövlət və siyasət adamı Əbdüləli bəy Əmircanovun babası *Abdulla bəy Əmircan bəy oğlu* (2-ci siyahı, № 68/65);

5) Şəkinin ən hörmətli ruhanilərindən biri, XIX yüzilin ortalarında çarizmə qarşı Cənubi Qafqaz diyarını bütünlüklə əhatə etməsi nəzərdə tutulan ümummüsəlman azadlıq mübarizəsinin, bu mübarizənin başlanğıcı sayılan 1844-dəki Şuşa üsyanının baş ideoloqu olmuş, 1846-da həccə

gedərək bir daha Vətənə dönməmiş qazı *Hacı Əbdüllətif əfəndi Hacı Əbdüssalam əfəndi oğlu* (4-cü siyahı, № 1/1);

6) çox böyük şərqşünas alim və ilahiyyatşünas *Əbdülqəni əfəndi Hacı Məhəmməd əfəndi oğlu (Xalisəqarızadə)* (4-cü siyahı, № 19/43) və bir çox başqaları.

Bu siyahıların bir üstünlüyü də ondadır ki, bu qəbildən gərəkli bilgilər səpələnmiş ayrı-ayrı qaynaqlarda deyil, bir yerdə toplanaraq təqdim edilib.

Siyahını ruscadan ana dilimizə ilk dəfə çeviririk. Onun nəinki yazılış biçimini, hətta yazıldığı dönəmin dəftərxana üslubunu da tərcümədə qoruyub saxlamağa çalışmışıq. Siyahıların əslindəki qeydlər ya ailənin sıra nömrəsini bildirən rəqəmlərin altında (bəzən üstündə), ya da adların qarşısında yazılıb. Biz onları səhifənin aşağısında ətək qeydləri şəklində verməyi məqsədəuyğun saydıq. Özümüzün qeydlərini ad-soyadımızın baş hərfləriylə seçdirdik.

Sənədin tərcüməsi aşağıda verilir.

Yeri gəlmişkən, məqalənin ortaya çıxmasının əsl səbəbkarı olan AMEA Şəki Regional Elmi Mərkəzinin (ŞREM) direktoru, professor Zəkəriyyə Əlizadəyə, bu cür sənədləri əldə etməkdə daim yardımçımız olmuş AR Milli Arxiv İdarəsinin rəisi, prof. Ataxan Paşayevə, Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin direktoru Anar Məmmədova və arxivin məsul işçiləri Qızılgül Babayeva və Roza Əliyevaya dərin minnətdarlığımı bildirirəm.

## 2-Cİ SİYAHI
### Şəki şəhərinin müsəlman məmur və bəyləri
1860-cı ildə tərtib edilib

**<u>Xan nəslindən</u>**

1. 1[1]. Kərim ağa Fətəli xan oğlu[2] – ölüb 8[3]

Onun oğulları:

1. Əbdülhəşim ağa – 34[4]
2. Mustafa ağa[5] – 29
3. İsmayıl ağa – 23
4. Cəfər ağa – 20

---

[1] Adların qarşısındakı birinci rəqəm ailələrin 1860-cı ildəki nömrəsini, ikinci rəqəmsə onun bu tarixdən öncəki əyal dəftərində (kameral təsvirdə) yazılmış nömrəsini bildirir. – *Ə.T.*

[2] Şair Kərim ağa Fatehdir. – *Ə.T.*

[3] Ailə başçısının adı qarşısında bu yerdəki rəqəm ailədəki qadınların sayını bildirir. Müsəlman ailələrinin əyal dəftərindəki siyahılarda, bir qayda olaraq, qadınların adı göstərilmir, onların ümumi sayı verilir. – *Ə.T.*

[4] Adların qarşısındakı bu rəqəm sakinin yaşını bildirir. – *Ə.T.*

[5] Şair Mustafa ağa Şuxi. – *Ə.T.*

5. Məhəmməd ağa – 1 körpə[6]
İsmayıl ağanın oğulları:
1. Hüseyn ağa – 3 körpə
2. Abbasqulu ağa – 1 körpə
2. 2. Abdulla ağa Məhəmmədhəsən xan oğlu – 62 5
Onun oğulları:
1. Uğurlu bəy – ölüb
2. Praporşik Hüseyn ağa – 34
3. Kornet Cəfər ağa – 28
Uğurlu bəyin oğulları:
1. Süleyman bəy – 6 körpə
2. Xanlar ağa – 1 körpə
3. 3. Həşim ağa Məhəmmədhəsən xan oğlu – 54 3
Onun oğulları:
1. Sadıq ağa – 24
2. Həmid ağa – 22

**Bəy nəslindən**

4. 4. Praporşik Mirzəməhəmməd bəy İsmayılov[7] – ölüb 3
Onun oğlu: Ağası bəy – 22
5. 5. Nəsib bəy Şirin bəy oğlu – ölüb 3
Onun oğulları:
1. Mustafa bəy – 13
2. Aslan bəy – 11 körpə
3. Məhəmməd bəy – 5 körpə
Onun qardaşları:
1. Qəhrəman bəy – ölüb
2. Abbas bəy – 34
6. 6. Praporşik Hacı bəy İsgəndər bəy oğlu – 22 2
Onun qardaşı: praporşik Nuh bəy – 32
7. 7. Hacı Əbdürrəhman bəy Hacı Şəmsəddin bəy oğlu – ölüb 5[8]
Onun oğulları:
1. Hacı bəy – 34
2. Vahab bəy – 27
3. Səlim bəy – 20
4. İsgəndər bəy – 20
Hacı bəyin oğlu: Məhəmməd bə – 13
8. 8. Praporşik Əlisultan bəy Aslan bəy oğlu – ölüb 3
Onun oğulları:
1. Fərəc bəy – 37

[6] Bundan öncəki qeydəalma zamanı o hələ anadan olmadığına görə oraya düşməmişdi. – *Ə.T.*
[7] Bunu «İsmayıl oğlu» kimi də anlamaq olar. – *Ə.T.*
[8] [Ailə] Şəki qəzası Xaçmaz nahiyəsinin Qarabaldır kəndində yaşayır.

| | | | | |
|---|---|---|---|---|
| | 2. Ağa bəy | – 27 | | |
| | 3. Əbdürrəhman bəy | – 24 | | |
| 9. 9. Ağamoğlan bəy Hacı Məhəmmədxan bəy oğlu – ölüb | | | | |
| Onun oğulları: | | | | |
| | 1. Nəcəfqulu bəy | – ölüb | | |
| | 2. Qafar bəy | – 11 | körpə | |
| 10. 10. Əbdürrəhman bəy Həşim bəy oğlu | | – 20 | | 1 |
| 11. 11. Mirzəəhməd bəy Mirzə İbrahim bəy oğlu – 62 | | | | 4 |
| Onun oğulları: | | | | |
| | 1. Məhəmmədəli bəy | – 27 | | |
| | 2. İsmayıl bəy | – 24 | | |
| | 3. Əbdürrəhim bəy | – ölüb | | |
| | 4. İbrahim bəy | – 19 | | |
| | 5. Salam bəy | – 18 | | |
| | 6. Mustafa bəy | – 10 | körpə | |
| | 7. Məhəmməd bəy | – 7 | körpə | |
| 12. 12. Mirzə Əsəd bəy İbrahim bəy oğlu | | – 50 | | 2 |
| Onun oğlu: Əbdülkərim bəy | | – 10 | körpə | |
| 13. 13. Mirzəməhəmməd bəy Mirzə Nəbi bəy oğlu – 54 | | | | 4 |
| Onun oğulları: | | | | |
| | 1. Hacıağa bəy | – 26 | | |
| | 2. Qasım bəy | – 17 | | |
| Onun qardaşı: Mirzə Yusif bəy | | – 42 | | |
| Onun qardaşı oğulları: | | | | |
| | 1. Yəhya bəy | – ölüb | | |
| | 2. İsmayıl bəy | – ölüb | | |
| | 3. Həsən bəy | – 22 | | |
| | 4. Mahmud bəy | – ölüb | | |
| | 5. Lətif bəy | – 12 | körpə | |
| 14. 14. Məhəmməd ağa Mahmud ağa oğlu | | – ölüb | | 6 |
| Onun oğulları: | | | | |
| | 1. Abdulla bəy | – ölüb | | |
| | 2. Mustafa bəy | – 16 | | |
| Onun qardaşı: Süleyman bəy | | – 50 | | |
| Onun oğulları: | | | | |
| | 1. Hüseyn bəy | – 16 | | |
| | 2. Həsən bəy | – 9 | körpə | |
| | 3. Musa bəy | – 5 | körpə | |
| | 4. Mahmud bəy | – 4 | körpə | |
| 15. 15. Əbdüləziz bəy Feyzulla bəy oğlu | | – ölüb | | 1 |
| Onun qardaşı: Əbdüllətif bəy | | – 24 | | |
| 16. 16. Praporşik Səməd bəy Hacı Sədrəddin bəy oğlu – ölüb3 | | | | |
| Onun oğulları: | | | | |
| | 1. Cabbar bəy | – ölüb | | |

| | | | | |
|---|---|---|---|---|
| | 2. Hüseyn bəy | – 20 | | |
| 17. | 17. Hacı Məhəmməd bəy Hacı Sədrəddin bəy oğlu – ölüb | | | 5 |
| | Onun oğulları: | | | |
| | 1. Həmid bəy | – 24 | | |
| | 2. İsmayıl bəy[9] | – 22 | | |
| | Onun qardaşı: Əhməd bəy | | – 24 | |
| | Onun oğulları: | | | |
| | 1. Məhəmməd bəy | – 3 | körpə | |
| | 2. Yusif bəy | – 1 | körpə | |
| 18. | 18. Praporşik Əbdülhəlim bəy Şıxcəfər bəy oğlu – ölüb | | | 2 |
| | Onun oğulları: | | | |
| | 1. Məhəmməd bəy | – 5 | körpə | |
| | 2. Cəfər bəy | – 4 | körpə | |
| 19. | 19. Məhəmməd ağa Mustafa ağa oğlu | – 32 | | 4 |
| | Onun qardaşları: | | | |
| | 1. Hacıağa bəy | – 27 | | |
| | 2. Əbdürrəhim bəy | – 24 | | |
| 20. | 20. Hacı Süleyman bəy Hacı Məhəmməd bəy oğlu – 62 | | | 4 |
| | Onun oğlu: Hacıağa bəy | – 32 | | |
| 21. | 21. Məhəmmədhəsən bəy Kərim bəy oğlu – ölüb | | | 1 |
| | Onun qardaşı: Məhəmməd ağa | – 30 | | |
| 22. | 22. Əbdülqədir bəy Məlik bəy oğlu | – ölüb | | 3 |
| | Onun oğulları: | | | |
| | 1. Ağakişi bəy | – 28 | | |
| | 2. Ağa bəy | – 18 | | |
| | 3. Nəsib bəy | – ölüb | | |
| | Onun qardaşları: | | | |
| | 1. Mahmud bəy | – ölüb | | |
| | 2. Həmid bəy | – 37 | | |
| | Mahmud bəyin oğlu: Bəkir bəy | – 10 | körpə | |
| 23. | 23. İbrahim bəy Nadir bəy oğlu | | – 22 | 2 |
| | Onun qardaşı: Əbdülxalıq bə | – 20 | | |
| 24. | 24. Səlim bəy Əbdürrəhman bəy oğlu | – 24 | | 1 |

**Xan nəslindən**

| | | | |
|---|---|---|---|
| 25. | 25. Poruçik Ağakişi bəy Mahmud ağa oğlu – 52 | | 5 |
| | Onun oğlu: Musa bə | – 18 | |
| | Onun qardaşı: Mirzə bəy | – 24 | |
| 26. | 26. Qvardiya polkovniki İsgəndər xan Kəlbəli xan oğlu – 42 | | 1 |

**Bəy nəslindən**

| | | |
|---|---|---|
| 27. | 27. İbrahim bəy Kərim bəy oğlu | – 22 |

[9] Şair İsmayıl (İsmi) bəy Nakam. – *Ə.T.*

| | | | | |
|---|---|---|---|---|
| | Onun qardaşı: Bəkir bəy | – 19 | | |
| -”-. 28. | Mustafa ağa Əbdürrəhim ağa oğlu | – ölüb | | |
| 28. -”-. | Qafar bəy Hüseyn bəy oğlu[10] | – 42 | | 2 |
| | Onun oğulları: | | | |
| | 1. Həsən bəy | – 3 | körpə | |
| | 2. Əbdülkərim bəy | – 1 | körpə[11] | |
| 29. 29. | Əbdürrəhim bəy Adıgözəl bəy oğlu | – ölüb | | |
| | Onun oğlu: Əhməd bəy | – 14 | | |
| | Onun qardaşı: İsmayıl bəy | – 19 | | |
| 30. 30. | Məhəmməd bəy Səfərəli bəy oğlu | – 57 | | 4 |
| | Onun oğlu: Səfərəli bəy | – ölüb | | |
| 31. 31. | Ağa bəy Əsəd bəy oğlu | – 24 | | 3 |
| | Onun oğulları: | | | |
| | 1. İsmayıl bəy | – 5 | körpə | |
| | 2. Mustafa bəy | – 1 | körpə | |
| | Onun qardaşı: Rəhim bəy | – 21 | | |
| 32. 32. | Kapitan Əlican bəy Seyidməhəmməd bəy oğlu – ölüb | | | |
| | Onun qardaşları: | | | |
| | 1. Praporşik Abdi bəy | – 70 | | |
| | 2. Əsədulla bəy | – ölüb | | |
| | Əbdi bəyin oğlu: Abdulla bəy | – 16 | | |
| | Əlican bəyin qohumu: Yusif bəy | – 37 | | |
| | Onun oğulları: | | | |
| | 1. Məhəmməd bəy | – 8 | körpə | |
| | 2. Cəfər bəy | – 6 | körpə | |
| | 3. İsmayıl bəy | – 3 | körpə | |
| 33. 33. | Bəbiş bəy Məhəmmədsəid bəy oğlu | | – ölüb | 5 |
| | Onun oğulları: | | | |
| | 1. İsmayıl bəy | – ölüb | | |
| | 2. Vahab bəy | – ölüb | | |
| | 3. Məhəmməd bəy | – 22 | | |
| | 4. Mustafa bəy | – 21 | | |
| | 5. Abdulla bəy | – 11 | | |
| | 6. İsmayıl bəy | – 9 | körpə | |
| | 7. Həsən bəy | – 6 | körpə | |

[10] Qafar bəy Hüseyn bəy oğlu keçmiş əyal dəftərlərində bəylərin də, ödəyicilərin də içində yazılmayıb, onun doğma qardaşları Hacı Həsən bəy və Hacı Səməd bəy seçicilərin siyahılarında 1840-cı № altında yazılıb və bəy olduqları göstərilib.

[11] 28-ci № altındakı ailə bu siyahıdan çıxarılıb və İmperator həzrətləri Böyük Knyaz Qafqaz canişininin təsdiqlədiyi [Xəzinə] Oda[sı] 30 iyul 1863-cü il tarixli yığıncağının protokolu ilə bu şəhərin vergi ödəyən sakinləri sırasına daxil edilib; iş №5/1859-cu il.

| | | | |
|---|---|---|---|
| 8. Süleyman bəy | – 5 | körpə | |
| Mustafa bəyin oğlu: Qaçay bəy | – 2 | körpə | |
| 34. 34. Əbdülqəni bəy Əhmədəli bəy oğlu | – 68 | | 1 |
| Onun oğlu: Əhməd bəy | – 17 | | |
| Onun qardaşı: İbrahimxəlil bəy | – ölüb | | |
| 35. 35. Praporşik Şıxəli bəy Hacı bəy oğlu | – ölüb | | 2 |
| Onun oğulları: | | | |
| 1. Quberniya katibi Zaman bəy | – 22 | | |
| 2. Bala bəy | – 20 | | |
| 3. Mehdi bəy | – 16 | | |
| 4. İbrahim bəy | – 10 | körpə | |
| 5. Məhəmməd bəy | – 8 | körpə | |
| Zaman bəyin oğulları: | | | |
| 1. İsa bəy | – 4 | körpə | |
| 2. Hacıağa bəy | – 1 | körpə | |
| 36. 35. Mütəllib Hacı bəy oğlu | – 47 | | 2 |
| Onun oğulları: | | | |
| 1. Hüseyn bəy | – 6 | körpə | |
| 2. Abbas bəy | – 3 | körpə | |
| 37. 36. Abdulla bəy Əbdürrəhman bəy oğlu | – ölüb | | 6 |
| Onun oğlu: Yusif bəy | – 27 | | |
| Onun qardaşları: | | | |
| 1. Praporşik Əbdürrəhim bəy | – 52 | | |
| 2. Əhməd bəy | – ölüb | | |
| 3. İbrahimxəlil bəy | – ölüb | | |
| Əhməd bəyin oğulları: | | | |
| 1. Əbdülhəmid bəy | – 25 | | |
| 2. Nəbi bəy | – ölüb | | |
| 3. Ağa bəy | – 20 | | |
| 4. Bala bəy | – 16 | | |
| 5. Mehdi bəy | – 8 | körpə | |
| 38. 37. Abdulla bəy Məhəmmədsadıq bəy oğlu | – ölüb | | 8 |
| Onun oğlu: Məhəmmədqasım bəy | – 11 | körpə | |
| Onun qardaşı oğlu: Cəfər bəy | – 18 | | |
| Onun əmisi oğlanları: | | | |
| 1. Yusif bəy | – 30 | | |
| 2. İlyas bəy | – 24 | | |
| 3. Mustafa bəy | – 20 | | |
| 39. 38. Mirzə bəy Bayraməli bəy oğlu | – 44 | | 2 |
| Onun oğulları: | | | |
| 1. Paşa bəy | – 14 | | |
| 2. Əhməd bəy | – 7 | körpə | |
| 3. Baba bəy | – 3 | körpə | |
| 4. Baxış bəy | – 2 | körpə | |

40. 39. Podporuçik Mustafa bəy Hacı Şəmsəddin bəy oğlu – 57 3
Onun oğulları:
1. Paşa bəy – 32
2. Məhəmməd bəy – 21
3. Mehdi bəy – 16
4. Həsən bəy – 15
5. Hüseyn bəy – 5 körpə
41. 40. Hacı Sadıq bəy Qasım bəy oğlu – ölüb 1
Onun oğlu: Süleyman bəy – 17
42. 41. Hacı Ağa bəy Məhəmmədrəhim bəy oğlu – ölüb 4
Onun oğulları:
1. Hüseyn bəy – ölüb
2. Kollej qeydiyyatçısı Məhəmməd bəy – 29
3. Xıdır bəy – 13
4. İlyas bəy – 10 körpə
Hüseyn bəyin oğulları:
1. İdris bəy – ölüb
2. Həsən bəy – 8 körpə
43. 42. Fəttah bəy Məhəmmədkərim bəy oğlu – 47 1
Onun qardaşları:
1. Babur bəy – 52
2. Şükür bəy – 42
3. Lütfəli bəy – 24
44. 43. Cavad bəy Məhəmmədsəid bəy oğlu – ölüb 8
Onun qardaşı: Hacı Vahab bəy – 49
Onun oğlu: İsmayıl bəy – 14
45. 44. Mirzə Məhəmməd bəy Mirzə Bədəl oğlu – ölüb
Onun oğulları:
1. Əbdülkərim – 37 8
2. Mirzə Əbdürrəhim bəy – 33
3. Mirzə Səlim bəy – 30
4. Teymur bəy – 24
5. Maqsud bəy – 25
6. Sadulla bəy – 14
Əbdülkərimin oğulları:
1. Əbdülhəlim bəy – 2 körpə
2. Abdulla bəy – 1 körpə
Teymur bəyin oğlu: Məhəmməd bəy – 1 körpə
Onun qardaşı: Əhməd bəy – 47
46. 45. Mirzə Mustafa bəy Mirzə Bədəl bəy oğlu – 45 2
Onun oğulları:
1. Cabbar bəy – 22
2. Qafar bəy – 20
3. Yusif bəy – 18

4. Nəsib bəy – 14

47. 46. Mirzə Şıxməhəmməd Mirzə Cəlil bəy oğlu – ölüb 2

Onun oğulları:

1. Mirzə Əbdürrəhim bəy – 37
2. Ağası bəy – 22
3. Soltanməhəmməd bəy – 14
4. Əbdülqasım bəy – 9 körpə
5. Əbdüssalam bəy – 7 körpə

48. 47. Əbdülvahab bəy Mirzə Cəlil bəy oğlu – ölüb 5

Onun qardaşları:

1. Mirzə Səlim – 44
2. Abbas bəy – ölüb
3. Həsən bəy – 38
4. Əliəşrəf bəy – ölüb

Mirzə Səlim bəyin oğulları:

1. Uğurlu bəy – 14
2. İsmayıl bəy – 8 körpə

49. 48. Ağaşirin bəy Mirzə İbrahim bəy oğlu – ölüb 1

Onun qardaşı: Cabbar bəy – 34

Başqa qardaşı: Süleyman bəy[12] – 50 5

Onun oğlu: Nəsrulla bəy – 8 körpə

50. 49. 14-cü sinifli[13] Mirzə Əli bəy Mirzə İsmayıl bəy oğlu – 55 1

Onun oğulları:

1. Kollej qeydiyyatçısı Ağasəf bəy – 30
2. Hüseyn bəy – 25

51. 50. Quberniya katibi Mirzə Abdulla bəy Mirzə İsmayıl bəy oğlu – 39 3

52. 51. Mirzə Əbdürrəhim bəy Mirzə İsmayıl bəy oğlu – ölüb 2

Onun oğulları:

1. Ağa bəy – 19
2. Əbdürrəzzaq bəy – 15

53. 52. Mirzə Əziz bəy Səfəralı bəy oğlu – ölüb 2

Onun oğulları:

1. Mehdi bəy – 37
2. Əbdülqafar bəy – 29
3. Hüseyn bəy – 24

54. 53. Məhəmməd ağa Şahqulu bəy oğlu – ölüb 2

Onun oğulları:

1. Səfər bəy – 13
2. İsmayıl bəy – 8 körpə

---

[12] Süleyman oğlu ilə [siyahıda] buraxılıb, bu ailənin üstünə yazılıblar; iş № 97/1869, 3-cü maddə.

[13] Vəzifə pilləkənində məmurlar üçün olan 14-cü sinif nəzərdə tutulur. – *Ə.T.*

| | | | | |
|---|---|---|---|---|
| | 3. Eldar bəy | – 3 | körpə | |
| 55. 54. | Hacıağa bəy Şahqulu bəy oğlu | – 47 | | 2 |
| | Onun oğulları: | | | |
| | 1. Əhməd bəy | – 22 | | |
| | 2. Uğurlu bəy | – 18 | | |
| | 3. Səməd bəy | – 8 | körpə | |
| 56. 55. | Mustafa bəy Şahqulu bəy oğlu | – 42 | | 3 |
| | Onun oğulları: | | | |
| | 1. Adil bəy | – 9 | körpə | |
| | 2. Baxış bəy | – 7 | körpə | |
| 57. 55. | Allahverdi bəy Əbdürrəhim bəy oğlu | – 22 | | 2 |
| | Onun qardaşı: İsa bəy | – 16 | | |
| 58. 56. | Cabbar bəy Azax bəy oğlu | – ölüb | | 2 |
| | Onun oğlu: Yusif bəy | – 24 | | |
| 59. 57. | Hacı bəy Kərim bəy oğlu | – ölüb | | 4 |
| | Onun oğulları: | | | |
| | 1. Praporşik Rza bəy | – 42 | | |
| | 2. Səməd bəy | – 32 | | |
| | 3. Rəşid bəy | – 27 | | |
| | Rza bəyin oğlu Hüseynqulu bəy | – 1 | körpə | |
| | Onun qardaşı oğulları: | | | |
| | 1. Əli bəy | – 37 | | |
| | 2. Kərim bəy | – 34 | | |
| | 3. Həsən bəy | – 32 | | |
| | 4. Ağa bəy | – 28 | | |
| 60. 57. | Ağagözəl bəy Kərim bəy oğlu | – ölüb | | 3 |
| | Onun oğulları: | | | |
| | 1. Kərim bəy | – 30 | | |
| | 2. Qafar bəy | – 28 | | |
| | Kərim bəyin oğlu: Fərəcullah bəy | – 1 | körpə | |
| | Ağagözəl bəyin qardaşı: Bala bəy | – ölüb | | |
| 61. 58. | Praporşik Cəfərqulu bəy Rəhim bəy oğlu | – 57 | | 4 |
| | Onun oğlu: Həsən ağa | – ölüb | | |
| | Onun qardaşları: | | | |
| | 1. Məşədi Abbasqulu bəy | – 47 | | |
| | 2. Əhməd bəy | – 37 | | |
| | 3. Ağa bəy | – ölüb | | |
| | Əhməd bəyin oğlu: Mütəllib bəy | – 7 | körpə | |
| 62. 59. | Talıb bəy Hacıəli bəy oğlu | – ölüb | | 4 |
| | Onun oğulları: | | | |
| | 1. Bəylər bəy | – ölüb | | |
| | 2. Bağır bəy | – ölüb | | |
| | 3. Əli bəy | – 17 | | |
| | Onun qardaşı: Əkbər bəy | – 38 | | |

| | | | |
|---|---|---|---|
| Onun oğulları: | | | |
| 1. Əbdülqafar bəy | – 13 | | |
| 2. Cabbar bəy | – 7 | körpə | |
| 3. Səttar bəy | – 2 | körpə | |
| 63. 59. Məhəmməd bəy Ağa bəy oğlu | – ölüb | | 2 |
| Onun qardaşları: | | | |
| 1. Mirzə bəy | – 34 | | |
| 2. Zeynalabdin bəy | – 24 | | |
| 64. 60. Mirzə Lütfəli bəy Mirzə Əsgər bəy oğlu | – ölüb | | 5 |
| Onun qardaşı: Səməd bəy | – 58 | | |
| Səməd bəyin oğulları: | | | |
| 1. Mirzə Həsən bəy | – 18 | | |
| 2. Mirzə Mehdi bəy | – 14 | | |
| 3. Əliəkbər bəy | – 7 | körpə | |
| 65. 61. Hacı İsmayıl bəy Hacı Qasım bəy oğlu | – ölüb | | 4 |
| Onun oğulları: | | | |
| 1. Lətif bəy | – 65 | | |
| 2. Məhəmməd bəy | – ölüb | | |
| 3. Mirzə Baba bəy | – 32 | | |
| Lətif bəyin oğulları: | | | |
| 1. Bağır bəy | – 42 | | |
| 2. Praporşik Cəfər bəy | – 40 | | |
| 3. Qafar bəy | – 32 | | |
| Məhəmməd bəyin oğulları: | | | |
| 1. Cabir bəy | – 21 | | |
| 2. Əbdülhəşim bəy | – 15 | | |
| 3. Rzaqulu bəy | – 6 | körpə | |
| -”-. 62. Hacı Mirzə Hüseyn bəy Mirzə Qurban bəy oğlu | – ölüb | | |
| 66. 63. Fətəli bəy Lütfəli bəy oğlu | – ölüb | | 2 |
| Onun oğulları: | | | |
| 1. Şıxəli bəy | – 32 | | |
| 2. Cəfərqulu bəy | – 16 | | |
| Şıxəli bəyin oğlu: Abbasəli bəy | – 7 | körpə | |
| 67. 64. Hacı Nəcəf bəy Lütfəli bəy oğlu | – 62 | | 3 |
| Onun oğlu: İrzaqulu bəy | – 19 | | |
| 68. 65.[14] Abdulla bəy Əmircan bəy oğlu | – ölüb | | 12 |

